**ZAUR USTAC**

# QƏLƏMDAR-2

## (məqalələr)

(YAZARLAR DƏRNƏYİ)
XXI KİTAB

Bakı - "USTAC.AZ" nəşrləri - 2022

**Zaur Ustac**
***"Qələmdar-2"*** **(məqalələr)**
Azərbaycan dilində. Bakı - "USTAC.AZ" nəşrləri - 2022, 172 səh.

**Redaktor:** Hacıxanım Aida.
**Ön söz:** Qurban Bayramov.
**Naşir:** Tuncay Şəhrili.

Əbdürrəhim bəy Haqverdiyevin xatirəsinə ithaf olunur.
Topluya müəllifin "Əbdürrəhim bəy Haqverdiyev – 150" yubiley tədbirləri ilə əlaqədar qələmə aldığı (24-49-cu yazılar) məqalələr (müxtəlif təəssüratlar) daxil edilmişdir.

Kitab "Yazarlar" jurnalının həyata keçirdiyi "Tərəfsiz ədəbiyyat tarixdir" layihəsi çərçivəsində nəşr olunur.
Elektron (PDF) variantı var.

MÜSTƏQİL YAZARLAR KONFEDERASİYASI
"Yazarlar" jurnalının xüsusi buraxılışı (QN : 2319).
XXI buraxılış. Yazarlar XB N:21 (035) 25.03.2022.
Kod: 040-04-MZM-14-20-22

©Yazarlar.az, 2022.
©Ustac.az, 2022.
©Z.Ustac, 2022.

# ÖN SÖZ

**Zaur Ustac – qələmdar olmaq missiyası**

***(Tənqidçinin xəfif ekskluziv münasibəti...)***

Tanıdığım istedadlı gənclər sırasında olduqca işgüzar, zəhmətkeş, obyektiv, prinsipial, hər cür manipuliyasiyadan uzaq, sözə-qələmə bağlılıq, həssaslıq, sözü-qələmi müqəddəs hesab edən və bu müqəddəsliyi hər məqamda qorumağa çalışan, içində klassik, modern maarifçilik ruhu daşıyan, bir sözlə, qələmdar olmaq missiyasını Heraklsayağı çiyinlərinə götürən, yaradıcılığın Sizif cəfasına qatlaşan gənclərdən biri də Zaur Ustacdır. Olduqca səmimi, təvazökar qələmdardır və bu yeni sözü, yeni anlayışı da ədəbiyyat cameəsinə gətirən odur.

Zaur Ustacın müasir ədəbiyyatımızda vicdanlı, tərəfsiz, liberal - azad, sərbəst ədəbi davranışı təqdirəlayiqdir və deyərdim ki, yenidir, müasir ədəbi gəncliyə örnəkdir. Zaur Ustac radikalizmdən uzaq, sözün səmimiyyətinə sığınan qələmdardır. Zaur Ustac gənc olmasına baxmayaraq (hər halda məndən çox gəncdir), o, özündə elə bir yaradıcılıq gücü tapıb və ədəbi sifera yaratmağa müvəffəq olub ki, artıq onun özgür ədəbi nüfuzu, özgür yaradıcı çəkisi haqqında çəkinmədən danışmaq olar. Mənim qənaətim belədir və bu qənaəti ictimailəşdirməmək günah olardı. İstedadı və istedadlı ədəbi gücü məqamında görmək və qiymələndirmək, fikrimcə, mühüm əhəmiyyət kəsb edir. Bizim ədəbi tənqid üçün belə yanaşma prioritet olmalıdır.

Zaur Ustac maraqlı həyat yolu keçib, hərbçidir, istefada olan zabitdir. Onda hərbçi peşəsindən ədəbi yaradıcılığına sızan bir yaradıcılıq intizamı, ədəbiyyata yansıyan hərbçi “geosiyasi marağı” olduğunu sezirəm. Yaxşı bildiyini müdafiə etmək, onu ədəbi fikrə gətirmək, yeni nəslə, gəncliyə əlahiddə vətənpərvərlik ruhu aşılamaq və bu işi maarifçilik səviyyəsinə yüksəltmək – onun ən ümdə “geosiyasi marağı” budur və bu da yenidir. Və bu, Zaur Ustacda istək, arzu deyil, deyərdim ki, onun şəxsi xarakterinə tamamilə yad, amma yaradıcılığına xas olan ədəbi ambisiyadır, ədəbi-bədii fəaliyyətinin nüvəsini təşkil edən amildir, ona məxsus

ədəbi statusdur. Elə buna görə də onun yaradıcılığı çoxsahəli, çoxyönlü, çoxsəsli, polofondur...
Zaur Ustacın ədəbi fəaliyyəti çağdaşlıqla bərabər, ən çox gələcəyə, perspektivə yönəlikdir. Onun yaradıcılığı, həm də yaxşı olacaq dərəcədə sosialyönümlüdür. Zaurun fəaliyyəti səmərəli fəaliyyətdir, praktik iş görür, həyatın olaylarından çıxış edərək özünün yazılarında olaya çevrilir, olay içində olay yaradır. Yaddaşı çağdaşlığa daşıyır. Bir az obrazlı desək, qədimliyə bürünmüş yenilikdir, istər ədəbi mövzüda, istərə də ədəbi janrda...
Onun yaradıcılığı impultiv deyildir, ardıcıllıq, mütəmadilik, məqsədyönlülük, prinsipiallıq üslubunu, yazı-mövzu yönümünü-yöndəmini şərtləndirən amillərdəndir. Ona görə də Zaur Ustacın yaradıcılığı bezdirici deyil, maraq doğurur, fəaliyyətə sövq edir, ədəbi zərurət olur...
Zaur Ustacın ədəbi fəaliyyətinin bir yönü də onun mövzu seçimidir. O, əksərən baxımsız qalmış, gözdən-könüldən iraq salınmış, unudulmuş yox, unutdurulan mövzulara da ürəklə, cəsarətlə göz yetirir, necə deyərlər, kölgədə saxlanılan həqiqətləri gün işığına çıxarır, yaddaşları dirildən kitaba çevirir. Bu da onun vətənsevərliyini fərqləndirən cəhətlərdəndir. Çünki o, sosial-ictimai maraqla mənəvi marağın kəsişmə bucağını müəyyən etməyi bacarır. O, ədəbi ştamplardan uzaqdır. Tarixi-mənəvi müstəvimizdə gəzişmələr edir. Maraqlı, aktual bədii konsepsiyalar, orijinal ədəbi konfiqurasiyalar axtarışındadır. Total azərbaycançılıq tərəfdarıdır. Bütün bunları, - hələ bizim sosial durumumuzu əyən bazar iqtisadiyyatının ərkəsöyün diqtəsi dövründə etməyin çətinliyini demirəm, - əzabını, məşəqqətini göz önünə gətirin... Amma şükürlər ki, onda qara duyğular yoxdur, dan şəfəqinin duruluğu, lacivərdliyi var. Bir də ki, onun yazılarında hər şeyi öz adı ilə çağırmaq istəyi üstündür və bu, ədəbi yaradıcılıq üçün vacib şərtlərdəndir. Yazıçı məşşatə olmamalıdır.
Zaur Ustacın qələmi kənarda yox, özəkdə, nüvədə gəzişmələr edir. O, həmişə çalışır ki, standart və ehkamlar yaradıcılığına

yansımasın. Diqqətimi çəkən müsbət bir cəhət də odur ki, Zaur Ustac azərbaycançılıqla türkçülüyün sinergizmindən çıxış edir, yəni söhbət sosial-fəlsəfi mənada özünütəşkildən gedir. Burada eyniyyət yox, biri-digərinin qüvvətləndiricisi olmaq şərtdir. Yəni, türkçülük və azərbaycançılıq biri-digərinin tərkibidir, amma biri o biri deyil, hər ikisi müstəqildir. Bunların dərkində paralellik və ya qəti oxşarlıq axtarmaq sosiallaşmada ziyanlıdır, bu metodda qeyri-xəttilik üstündür (Lütfi Zadə metodu). Zaur Ustac ədəbi-metodoloji cəhətdən sinergetik yanaşma paradiqmanın metodoloji plüralizminə daha çox meyillidir. Əlbəttə, bu, onda hələ rüşeym halındadır, amma inanırıq ki, təməldə olan dinamikadadır, inkişafdadır. Belə ki, ədəbi yaradıcılıq mexanizmlərin ardıcıl fəaliyyətini nəzərdə tutan bu metod, insan varlığının hərtərəfli inkişafı, şəxsiyyətin özünüifadə və özünütəsdiq imkanları və bütövlükdə yaradıcılıq qabiliyyətlərinin reallaşdırılması üçün ən əlverişli şərait yaradır. Zaur Ustacda türkçülüyü və azərbaycançılığı təkcə qanla, soyla bağlamır, həm də şüurla bağlayır. Bu, əslində, Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə və Əhməd bəy Ağaoğlunun konsepsiyasıdır. Biz qanla, soyla türkük, amma şüurla, düşüncəcə, təfəkkürcə Azərbaycanlıyıq! Bu, populizm deyil, həqiqətdir!

Zaur Ustacın qələm yoldaşları yazılarında orijinallığı qeyri-ənənəvi yollarda axtarırlar, amma onun məni qane edən cəhətlərindən biri də ənənvi yolda qeyri-adiliyi tapmaq və müxtəlif ədəbi ölçülərdə (deyək ki, janrlarda) şərh etmək bacarığıdır. Xalq həyatının müxtəlif məqamlarında, ən ağır anlarında, millətin şərəf və ləyaqəti naminə ayağa qalxmış, onun oğulları vətən yolunda qorxmadan dirigözlü ölümə gedən, “şər yuvalarına”, az qala əliyalın hücum çəkən oğulları – kişiləri, ərənləri, igidləri barəsində (məsələn, mərdliyin, igidliyin, qəhrəmanlığın oriyentir ulduzu olan Mübariz İbrahimov haqqında) bədii-publisist yazıları da belə xoş məramın nəticəsində ortaya gəlir, “yazıya pozu yoxdur” yaddaşına çevrilir, yaddaş kitabı olur: “Oriyentir ulduzu” (povest), “Gülünün şeirləri”, “Otuz ildir

əldə qələm", "Əliş və Anna" (poema), "Sevin ki, seviləsiz", "Qəlbimin açıqcası", "Çəhrayı kitab" və s. kimi iyirmidən çox kitabı kimi... Doğrudan da bu kitabları bir yerə cəm etsək, elə adını "Qəlbin açıqcası" qoyardım, çünki bu əsərlərin, demək olar ki, hamısı Zaur Ustacın oxucuya ünvanladığı ədəbi-bədii açıqcalardır, özü də səmimiyyətlə yoğrulmuş, ürəkdən, qəlbdən süzülüb gələn gizlinlər yox, məhz açıqcalar. Bir bayatısında dediyi kim, onun "can evindən qopub düşən" namələrdir. Bundan əlavə, o, ümumtəhsil məktəbləri üçün metodik vəsaitlərin, dərsliklərin, proqramların da maarifçi müəllifidir.
Bu məqamda, onun milliliyə, vətənsevərliyə, yurdabağlılığa söykənən bilgisi, axtarış və tapmaq şövqü məmnunluq doğurur. Bu, əslində, müasir Azərbaycan zehniyyətinin bənzərsiz xüsusiyyətindən irəli gəlir – unutqanlıq sindiromundan qurtuluş yolunu tapmaq və bunu şahrah yola çevirmək cəhdi. Bunu mənəvi ehtiyacları ödəyən, əsrarəngiz Azərbaycan ruhunu bərpa edərək epik bir prinsipə çevirmək cəhdi kimi də qəbul etmək olar. Əslində, indi bu prinsipi yaratmağa əşəddi ehtiyac var! Mənə elə gəlir ki, Zaur Ustac müstəqillik dövrü ədəbiyyatımızın, xüsusən, tarixi mövzularda qələmə alınan nəsr nümunələrinin yaratdığı ovqatdan güc alır, "Əliş və Anna" poemasında olduğu kimi, özünün istehlak enerjisinə çevirir, bu günün praqmatizmindən çıxış edir, yuxarıda qeyd etdiyim kimi, qədimliyə bürünmüş yenilik yaradır.
Gerçəyi dərk etməyin üsulu təkcə ağılla deyil, gərək ürəklə – hiss və duyğuylarla da dərk edəsən. Bu cəhət, hələlik embirional səviyyədə onun bədii təfəkkürünün dominantına çevrilməyə başlayıb və inanıram ki, tam dominantlıq alınacaq. Zaur Ustacın bir xoş prinsipi də var, ətrafına, mühitinə əlindən gələn yaxşılığı et! Bu deviz onundur: "Yaxşılıq əlindən gəlmir, heç olmasa pislik eləmə!" O, həyatının bu çağına qədər hər cür formatda təzahür edən, min bir cildə girən pisliyə qarşı Ustac qələmini sipər edərək Qələmdar olmağı bacarıb, qələmin yükünü, sözün müqəddəsliyini dərk etdiyindəndir ki, "Söz müqəddəsdir" şeirində yazır:

*Gəldin bu aləmə, ərkanı gözlə,*
*Yaxşı bax ətrafa, dövranı izlə,*
*Ustac əmanəti, aram ol sözlə,*
*Qələmlə elə yaz, qoy izi düşsün.*

Zaur Ustacın (Mustafayev Zaur Mustafa oğlunun) 45 yaşı var, ardıcıl olaraq Bakı Dövlət Universitetində, Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində, Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutunda və Şamaxı Humanitar Kollecində təhsil alıb. Birinci Qarabağ müharibəsinin iştirakçısı və hazırda ehtiyatda olan zabitdir. 1988-ci ildən yaradıcılığa başlayıb, 32 ildir ki, ədəbi cameənin əli qələmli nümayəndəsidir. Ləqəbi “Ustac”dır; AJB-nin üzvü, “Qızıl Qələm” mükafatı laueratı, “Yazarlar” jurnalının təsisçisi və baş redaktoru, “Ustac.az” fərdi inkişaf və yaradıcılıq mərkəzi”nin təsisçisi, naşir, müasir dövrün maarifçi-demokratıdır. İntellektualdır, kreativ təfəkkürlü, qüvvətli və sağlam məntiq sahibidir. Mən onu təmiz qəlbli, doğru sözlü, mətanətli, tam mənası ilə dürüst, fikir və yoluna dərin bir inam bəsləyən, fədakar bir gənc yazıçı-publisist, şair, nasir, tərcüməçi, naşir, ən ümdəsi, ziyalı kimi görür və belə də qiymətləndirirəm... Və bir yazıçı olaraq Zaur Ustacın gələcək çəki-düzənini bu sadaladıqlarımda, konkret mövqeində, QƏLƏMDARLIĞINDA görürəm. Eyni zamanda, toz qonmayan Qələmdar qürurunda, təmkinində görürəm! Çünki bilirəm ki, təmkin və qürur mənəviyyatı hər zaman bütün fəsadlardan, yanlışlıqlardan qoruyar... ALLAH QORUSUN!

**QurbanBayramov,**
*tənqidçi-ədəbiyyatşünas, doktor-professor,*
*"Fədakar alim" ,"Elm fədaisi",*
*“Ən yaxşı Vətənpərvər tədqiqatçı alim”, “Vintsas” mükafatları diplomantı,*
*"SəmədVurğun mükafatı" laureatı,*
*1984-cü ildən AzərbaycanYazıçılar Birliyinin üzvü*
*28.04.2020*

MƏQALƏ KİTABLARDA ÖN SÖZ KİMİ:

Zaur Ustac "Qədimliyə bürünmüş yenilik" (şeirlər).
Qələndər Xaçınçaylı "Taclı şair" (Zaur Ustac haqqında).
Zaur Ustac "Qələmdar-2" (məqalələr).

MƏQALƏNİN YAYIMLANDIĞI MƏTBU ORQANLAR:

"TƏZADLAR" qəzeti N : 12 (2253) 5 may 2020-ci il. səh. 14.
"HƏFTƏ İÇİ" qəzeti N : 42 (3280) 5-6 may 2020-ci il. səh. 8.
"ƏDALƏT" qəzeti N : 69 (5729) 16 may 2020-ci il. səh. 11 və 14.
"KREDO" qəzeti N : 35 (1015) 01 oktyabr 2020-ci il. səh. 10.
"ƏDƏBİYYAT QƏZETİ" N : 46 (5274) 17 oktyabr 2020-ci il. səh. 29.
“YAZARLAR” jurnalı, yanvar - 2022, say: 01 (13), s.4-10.

**PDF>>>ZAUR USTAC – “BB” HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**



# *TƏƏSSÜRATLAR*

## *(birinci kitab)*



## BİR MÜƏLLİM TANIYIRAM

### *İYİRMİ DÖRDÜNCÜ YAZI*
*(Vəliyev İlham Əli oğlu haqqında)*

Bu gün onların günü. Bu gün onların sınağa çəkildiyi, yoxlanıldığı gündür. Hər il bugünkü gündə onlar ya "Müəllim" adlı qala divarına bir qızıl kərpic qoyub bu adı bir basamaq da yüksəldir, ya da yazıq, günahsız uşaqların müəllimlərinə söydürürlər.

Nədənsə, "Müəllim" sözü eşidəndə ilk ağlıma gələn şəxs Üzeyir Hacıbəyov olur. Bu haqda söhbətə başlamazdan əvvəl dünyasını dəyişmiş müəllimlərimi rəhmətlə anmaq, sağ olanlara isə uzun ömür, cansağlığı diləmək istəyirəm. Allah Bayramov Əbdüləli, Qasımov Həsən (Ağdam rayon, Yusifcanlı kənd orta məktəbi), Orucəliyev Malik (BABKM) kimi müəllimlərə qəni-qəni rəhmət eləsin. Əmirəliyev Füzuli (BABKM), Süleymanov Rasim (BDU) kimi müəllimlərə uzun ömür, cansağlığı versin. Bir müəllim də var, hansı ki, bu yazımı ona həsr edirəm və onun haqqında geniş söhbət açacam. Ancaq onun haqqında danışmazdan əvvəl hal-hazırda müəllimlik fəaliyyəti ilə məşğul olub, hər gün 20-30 şagird və ya tələbənin olduğu sinif otaqlarına – auditoriyalara baş çəkən müəllimlərə xatırlatma olsun deyə qısa bir haşiyəyə çıxmaq istəyirəm.

HAŞİYƏ

BABKM-da oxuyanda bir "müəllim" var idi, bizə zenit silahlarının istismarı fənnindən dərs deyirdi. Dərs vaxtı orda-burda avaralanar, dərsləri boş keçərdi. İmtahan vaxtı TKM-i çağırıb deyərdi ki, bütün qrupdan filan məbləğdən yığmalısan. Ya hamı, ya heç kim. Siyahıda nə qədər kursant var, hamısı verməlidir. Mənim pul verməyəcəyimi bildikdə isə deyərdi: "Onda Mustafayev, uzağı ondan başqa da bir nəfər – Rüstəmov Elnuru nəzərdə tutardı – qiymət alacaq,  qalanları kəsildi". Uşaqları

salardı üstümə: – "Sənə görə biz də kəsiləcəyik" – qəribə olsa da, reallıq belə idi. Mən də onlara yeganə çıxış yolunu göstərərdim (nə yaxşı ki, uşaq vaxtı rəhmətlik Sükeydə nənəm mənə "Cırtdanın nağılı"-nı çox danışıbmış): "Mənim üçün fərqi yoxdur, kəsilmək istəmirsinizsə, mənim də əvəzimə yığın" və onlar məcbur olub, bunu edirdilər. Bir neçə dəfə belə hal olub.

90-cı illərdə BDU-nun tələbələri Qrabağda şəhid olanda, Bakıda bir torba alçaya, almaya qiymət yazan, hətta "üçlük", mobil telefonlar çıxandan sonra "kontur" ləqəbi qazanmış müəllimlər də var idi. Şamaxı Humanitar Kollecində isə Tədris hissə müdiri vəzifəsindən sui-istifadə edərək, bəzən fənn müəllimlərinin razılığı və xəbəri olmadan yalançı imtahanlar düzənləyib, tələbələri "kəsər", sonra düzəltmək üçün pul yığardı. Zənn edərdi ki, heç kim bunu anlamır…

Biz orta məktəbdə oxuyanda belə söhbətlər yox idi. Əksinə, müəllimlər dəftər-qələmi olmayana evdən gətirədi, ya da anındaca şkafdan çıxarıb verərdi… Ta indikilər kimi çığırıb-bağırmaz, kiminsə, nəyinsə xatirinə bəzi həkimlərdən öyrəndikləri metodlarla lazımlı-lazımsız əlavə vəsaitləri uşaqlara bəlkə də valideyinin sonuncu 5-6 manat çörək pulu, yol pulu üçün saxladığı vəsaitə aldırıb, sonra ilboyu arasın açmadan bir küncdə yatırtmazdılar… Bunlar həqiqət olsa da, necə deyərlər, dünya təkcə bunlardan ibarət deyil. Sadəcə, sözüm bəzi müəllimlərədir ki, diqqətli olsunlar. Allah bilir bu gün onların qarşısında oturan şagird və tələbələr sabah nələr danışıb, nələr yazacaqlar. Bu qədər geniş və təfsilatlı girişin yalnız bir məqsədi var, dünya təkcə bu gündən ibarət deyil, bunun sabahı da var… Və həmişəki kimi bizim pislərlə işimiz yoxdur – pis elə pisdir, onlar həmişə olub, və olacaqlar. Sadəcə, tək-tək fərdlər yaxşılardan nümunə götürüb yaxşı olsunlar deyə, bilməzlikdən bu girdaba yuvarlanmasınlar deyə nümunəvi, nəsə öyrənilə biləcək şəxslərdən, nümunələrdən yazmaq, təbliğ etmək lazımdır. Bugünkü qəhrəmanım, haqqında

söhbət açacağım şəxs Şamaxı Dövlət Regional Kollecinin direktoru iqtisad elmləri namizədi, dosent İlham Vəliyevdir.




QISA ARAYIŞ

Vəliyev İlham Əli oğlu – 7 oktyabr 1959-cu ildə Tovuzu rayonunun Əlibəyi kəndində müəllim ailəsində anadan olub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat fakültəsini bitirib. Müəllimliklə başladığı fəaliyyəti dövründə indiyə qədər bir çox təhsil müəssisələrində müxtəlif vəzifələrdə çalışıb. İqtisad elmləri namizədi, dosentdir. Hal-hazırda Şamaxı Dövlət Regional Kollecinə rəhbərlik edir.

İlham müəllimi 2017-ci ildən – Şamaxı Dövlət Regional Kollecinə rəhbərlik etməyə başladığı ilk günlərdən tanıyıram. O vaxt diqqətimi çəkən onun kollecə rəhbərlik etməyə başladıqdan sonra təhsil müəssisəsində ab-havanın dəyişməsi və yerli camaatın onun haqqında müsbət fikirləri olmuşdur. Həmin vaxt İlham müəllimlə görüşüb ətraflı söhbət etmiş, nəticədə mətbuatda “STEREOTİPLƏRİ YOX EDƏN ADAM” adlı yazı ilə çıxış etmişdim. Bu yazı mənim 23 yazımdan 12-cisi olub, elm və

təhsillə bağlı, eləcə də digər kütləvi elekton vasitələrdə yayımlanmaqla bərabər, "YARADANLA BAŞ-BAŞA" kitabıma on ikinci yazı kimi daxil edilib. Bu il (2019) sentyabrın 9-u, ya 10-u idi. Mobil telefonuma zəng gəldi – İlham müəllim idi. Salamlaşdıq, hal-əhval tutduq. İlham müəllim məni kollecdə 16 sentyabr Bilik Günü münasibəti ilə təşkil olunmuş tədbirdə bir məzun kimi çıxış etməyə dəvət etdi. Məmnuniyyətlə qəbul etdim, vədələşdik. Ayın 16-sı, səhər saat 9:00-da Şamaxıda olmalı idim. Əvvəlcədən şair-publisist "Həftə içi" qəzetinin əməkdaşı Qələndər Xaçınçaylı da mənimlə getməyi planlaşdırsa da, son anda vacib iş çıxdığına görə gedə bilməyəcəyini söylədi. Və mən ehtiyat əməkdaş, şəxsi fotoqrafım Tuncay bəylə gedəsi oldum. Vədə günü səhər saat 9-a 15 dəqiqə qalanda biz artıq hadisə yerində idik. Olduqca maraqlı tədbir keçdi. Mən də gənclərə, xüsusi ilə birinci kurs tələbələrinə bir məzun kimi tövsiyə xarakterli çıxış etdim. Eyni zamanda, onlara iştirak edə biləcəkləri davam edən "Kərəmli – 700" layihəsi barədə məlumat verdim. Ustac.az və Yazarlar.az adından İlham müəllimə layiq görüldüyü digər məşhur bir müəllimin adına olan "Vintsas" Mükafatını təqdim etdim. Tuncay bəy də çəkdi. Sonra onun kabinetində bir-neçə il əvvəl qaldığımız yerdən söhbətimizə davam etdik. İlham müəllim böyük şövqlə bu il kollecin 35 məzununun imtahansız – subbakalavr diplomu ilə ali məktəblərə qəbul olunduğunu bildirdi. (Səmimiyyətimə inanın, İlham müəllim bu nəticəyə elə sevinirdi ki, elə bil öz doğmaca övladları ali məktəbə daxil olub. Halbuki elə valideyinlər var, övladı ali məktəbə daxil olanda nəinki, sevinmir, hətta onlara mane olmağa çalışır. Örnəyi ilə elə bu ilki qəbulda da rastlaşdıq…). Sonra ümumi mənimsəmədə ən aşağı nəticənin 53%-ə çatdırıldığını bu yöndə fəaliyyətin davam etdiyini bildirdi. Söhbət zamanı hiss edirdim ki, İlham müəllim məni boş-boşuna dəvət etməyib. Əvvəlki dövrlərdən xəbərdar olan və nə olur-olsun səmimi olacaq bir şəxs kimi mənim fikrimi bilmək istəyir ki, görsün nə qədər fərq, dəyişiklik var. İlham müəllim, buradan tam səmimi olaraq demək istəyirəm ki, çox fərq var. Bu fərq artıq




Şamaxıya daxil olan kimi əhalinin, tələbələrin söhbətindən, kollecdəki ab-havadan, müəllimlərin və tələbələrin davranışından hiss olunur. Rəqəmlər və nəticələr də göz qabağında. Sağollaşıb çıxanda İlham müəllim yenə ilk görüşümüzün sonundakı kimi hələ nöqsanların olduğunu və onların səylə aradan qaldırmağa çalışdıqlarını bildirdi. Haqlı olaraq qeyd etdi ki, bu iş çox vaxt rəhbərlik və müəllimlərdən asılı olmur, bəzi valideynlər, tələbələr dəfələrlə onlara "yalnız oturub oxumaq lazımdır" – deyilməsinə rəğmən yenə digər yollar axtarırlar və aldanırlar, səhv edirlər, əsassız söz-söhbətlərə səbəb olurlar. Bu yerdə lap indi dəbdə olan məktəblərdə sinif valideynlərinin "vatsap" qrupları yadıma düşdü. Təhsil naziri əmr verir, məktəb direktorları hər dəfə iclas edib az qala bir-bir hər valideynə şəxsən çatdırır. Hər küncə-divara məlumat-bildiriş yapışdırır… Bir də görürsən bir valideyn düşdü ortaya, bəs ayıbdı, "Müəllimlər günü" gəlir pul yığmaq lazımdır. Özü də nə az, nə çox, filan qədər… Nəsə mətləbdən uzaqlaşmayaq. Necə deyərlər, pislər qalsın, pis yerində…

Bəli, sevinirəm ki, belə bir müəllim tanıyıram və bu gün onun da günüdür. Gününüz mübarək, İlham müəllim! Sizə uzun ömür, cansağlığı və başladığınız bütün işlərdə müvəffəqiyyətlər arzu edirik. Uğurlarınız bol olsun! Heç narahat olmayın, nəticələr əladır və kənardan olduqca gözəl görünür. Xüsusi ilə qeyd etmək istəyirəm ki, fərq çox böyükdür. Ümumi mənafeyi düşünən bütün vətənpərvər vətəndaşlarımız adından sizə çox sağ olun deyirik. Başladığınız işdə Uca Yaradan yar və yardımçınız olsun. Var olun!

19.09.2019. Şamaxı – Bakı.

*QEYD:*

*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı “TƏƏSSÜRATLAR” və “QƏLƏMDAR – 2” kitablarında İYİRMİ DÖRDÜNCÜ yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda* ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunub:

1.“Bir müəllim tanıyıram”, “Təzadlar”,01.10.2019, say: 45 (2230), s,13,
2.“Bir Müəllim tanıyıram”, “Ədalət”,03.10.2019, say: 158 (5622), s,8,

**PDF>>>ZAUR USTAC – “BB” HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

## ULUSUN ULUSU – TURAN YOLÇUSU

### *İYİRMİ BEŞİNCİ YAZI*

Ataların bir sözü var, “dost dar gündə bəlli olar”. Bu misalı dosta, qardaşa, lap elə ailə üzvülərinə də aid etmək olar.

Məlum hadisələrlə əlaqədar son günlərdə (Gəncədə baş verən xain düşmən saldırısını da nəzərə almaqla) baş verən hadisələr bir daha göstərdi ki, yaman gündə xalqımız, millətimiz daha da sıx birləşməyi bacarır. Bu nəinki ölkəmizin hüdudları çərçivəsində belədir, hətta onun xaricində də özünü bu soydan bilən hər bir fərdin mənəvi qardaşlıq borcuna çevrilmişdir. Bu baxımdan, artıq uzun illərdir ki, “bir millət – iki dövlət” anlayışı ilə yaşayan Azərbaycan və Türkiyə son günlər sanki “bir millət – bir dövlət” kimi yaşamağa başlayıb. Bu qardaşlıq dövlət başçıları səviyyəsindən tutmuş hər iki ölkənin sıravi vətəndaşlarına kimi dövlətlərimizin mücadilə etdiyi ən müxtəlif cəbhələrdə özünü məhz belə göstərir.

Şübhəsiz ki, qələm adamları bu baxımdan həmişə ön sıralarda olub və olmaqda davam edirlər. Belə ki, son günlər Azərbaycan professoru Ramiz Həsənlinin tanınmış Türkiyə yazarı Yahya Azəroğlu haqqında nəşr etdirdiyi “Turan yolçusu” kitabı təqdirəlayiq hadisədir və bu qardaşlığı möhkəmləndirən addımlardan biri kimi qiymətləndirilməlidir. Kimdir Yahya Azəroğlu? Professor Ramiz Həsənlinin “Turan yolçusu” adlandlrdığı kitabda haqqında bəhs etdiyi şəxs həqiqətən Turan yolçusu, bir ulusun Ulusudur.


www.USTAC.az

Bəli, mən onu məhz belə adlandırardım. Düşünürəm ki, bu təbir hər cür mübaliğədən uzaq və reallığa daha yaxındır. O, sözün əsl mənasında Gündoğandan Günbatana bütün türk ellərində aşağı-yuxarı bax, mənim bu yazını yazdığım şipşirin ana dilimizdə oxuyub – anlayan bir ulusun şairi, söz adamı, ulusudur. Təbii ki, onun yazılarını çevirmələr vasitəsi ilə başqa xalqların nümayəndələri də oxuyurlar. Ancaq onlar bu yazılarla hansı dildə tanış olmalarından asılı olmayaraq, müəllifin kim olduğunu, milli kimliyini anlayırlar. Yahya Azəroğlu məhz hər kəlməsinin sahibi olduğu kimi, onun qələmindən həyat qazanan hər bir söz də öz sahibini tanıdır və ona həyat vərəni yaşadır. Yahya Azəroğlu təpədən dırnağa qədər vətən, millət, insan üçün çalışan, yazıb-yaradan söz adamıdır. Onu bütün türk ellərində tanıdan da məhz bu xüsusiyyətidir. Onun vətən, bayraq, vətəndaş, qardaş sevgisi bir başqadır. İstər şeirlərində, istərsə də fiziki – faktiki olaraq dünyanı gəzib dolaşan Yahya Azəroğlu bir elin, bir obanın deyil, məhz bir ulu ulusun ulusu – ozanı, şairi olduğunu aşağıdakı iki misrasında çox qabarıq, açıq və net şəkildə ifadə etmişdir:

Vatanın aşkıyla çarptı yüreğim,
Her an kızıl elma oldu ereğim…

Hər yeri gəldikcə amalından, məqsədindən, yolçusu olduğu yolundan oxucusuna sevə-sevə böyük fəxarət hissiylə, özünəməxsus xüsusi pafosla anladan Yahya Azəroğlu yaradıcılığı boğazdan yuxarı populizmdən uzaq, mayası haqdan gələn səmimi, təbii bir ustad – ozan sözüdür. Belə ki, o, lazımi məqamda nə qədər arzu – istəyindən hayqıraraq söhbət açırsa, yeri gələndə o qədər də hüznlü tonda, acılar içində qıvrıla-qıvrıla nalə çəkən misralarla oxucusuna, soydaşına, qardaşına ümumi dərdimizdən söhbət açır, çıxış yolu göstərməyə çalışır:

Yüreğim kann ağlar yurdun haline,
Hayalim uzanır Oğuz eline,
Maruz kalmış Türk milləti zulüme…

– deyə, ümumi Türk ellərinin Doğudan Batıya, Güneydən Quzeyə mücadilə, arayış içində olduğunu və bu yolda böyük əngəllərlə üz-üzə qaldığını qəlb ağrıları ilə anladır. Ayrı-ayrı yüz bölük olmuş böyük Türk yurdunun dərdi bir xalq ozanı kimi onun hər kəlməsində hiss olunur, duyulur. Doğu Türküstana cıları, Kərkük mücadiləsi, Qarabağ yarası, şanlı Türk Əsgərinin “yurdda sülh, cahanda sülh” şüarı ilə girdiyi savaşlar, bütün bunlar hamısı Yahya Azəroğlunun qələmindən ağ kağızlar üzərinə köçüb, oradan dünyaya boylanır. Bəzən qəh-qəhələrlə gülür, bəzən için-için ağlayır… Bura qədər yazdıqlarımdan oxucuda belə təsəvvür yarana bilər ki, Yahya Azəroğlu tipik bir tribuna şairi, təbliğatçıdır. Xeyir, bu, əsla belə deyil, o, nə qədər emosianal, çağırış şairi olsa da, o qədər də bədii cəhətdən zəngin, poetik duyğular yüklü misraların müəllifidir:

Azer oğlu hayat oldu derbeder,
Yaralı gönlümü yıktı bu haber.
Pencereden bakanlarla beraber
Perdeler ağladı, tüller ağladı…”

– el ozanı vəzifəsini üstlənmiş şair yurda düşmüş şəhid xəbərini bax belə anladır öz yurddaşına…

Zəngin dünyagörüşünə və eyni zamanda, rəngarəng bədii yaradıcılıq imkanlarına malik olan Yahya Azəroğlu bütün yaradıcılığı boyu ciddi bir arayış içindədir. Demək olar ki, onun bütün yaradıcılığının leykmotivini Vətən, Bayraq, Millət məsələləri təşkil edir. Ulusun ulusu tez-tez xəyaləndə də – babaların yaşadıqları dönəmlərə səyahət edir, təklənmiş oxşar misali ayrılıqda Türk ellərinə çətin olduğunu artıq, hansısa bir

ümumi çatı altında birləşməyin zamanı gəldiyini anlayır və soydaşlarına çatdırmağa çalışır.

Ancaq bütün bunlara baxmayaraq, biz qələm adamları, xüsusilə son dövrlərdə qardaş Türk dövlətlərinin başçılarının tez-tez bir araya gəlmələrini, hər dəfə müxtəlif formalarda birlikdən, bərabərlikdən, qardaşlıqdan danışmalarını yüksək qiymətləndirir, gələcəyə nikbin baxışlarla baxır və artıq üfüqdə arzularımızın parıltısını görürük. Uca Yaradan bu ulusun yar və yardımçısı olsun! Tanrı Türkü qorusun! Amin! Belə bir müqqədəs amala xidmət edən, müasir dövrümzüdə olduqca mühüm tərbiyəvi əhəmiyyətə malik kitabın Azərbaycanda, Bakı şəhərəndə geniş oxucu kütləsi qarşısında nəzərdə tutulmuş təqdimat mərasimi məlum məhdudiyyətlərlə əlaqədar hələlik təxirə salınıb. Gələcəkdə bu barədə mətbuat və elektron kütləvi informasiya vasitələri ilə əlavə məlumat veriləcək.

19.10.2019. Bakı.

*QEYD:*

*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı "TƏƏSSÜRATLAR" və "QƏLƏMDAR – 2" kitablarında İYİRMİ BEŞİNCİ yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda* ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunub:

1."Ulusun ulusu – Turan yolçusu", "Təzadlar", 13.10.2020, say: 34 (2275) s.15.
2."Ulusun ulusu – Turan yolçusu", "Kredo", 13.11.2020, say: 41 (1021) s.15.

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

## “QIZLARI QOYMAYIN ŞEİR YAZMAĞA”

### *İYİRMİ ALTINCI YAZI*

*(Fərqanə Ananaın əziz xatirəsinə)*

Salam olsun, çox dəyərli oxucum, əziz dostlar və tanışlar! İlk öncə təşəbbüskarı alqışlayır və böyük Allahdan hamı üçün belə xeyirli dostlar arzu edirəm. Xeyirli övladdan sonra, xeyirli dost Allahın ən böyük nemətlərindən biridir ki, hər adama qismət olmaz. Bu nemət ancaq seçilmiş bəndələrin qismətində var. O da məhz belə seçilmişlərdən idi. Allah yanında sevimli bəndələrdən, *“...göylərdə yerini yazmış...”* seçilmişlərdən biri, yeri lap ön sıralarda olanlardan… Məhz buna görə də Adil Allah onun bu rəzalət və zəlalət dolu dünyada daha çox əziyyət çəkməsini rəva bilmədi, xilas etdi bu məşəqqətlər diyarından, cəzasını əhv etdi… Günahını bağışlayaraq öz yerinə keçməsinə, layiq olduğu mərtəbəsinə yüksəlməsinə icazə verdi. Məqamın mübarək olsun, Allahın sevimli bəndəsi… Yerini aldığın kimi, hədiyyəni də alacaqsan İnşəAllah… Uca Rəbbimin rəhmət dənizinin ən səfalı guşəsindəki cənnət məkan adalardan biri məskənin olsun İnşəAllah…

Əlbəttə, bu tam subyektiv bir fikrdir, yəni hamının təbii olaraq əksini düşünmyə haqqı vardır. Və bu hüquqa sayğı duyuram. Məncə iki qrup yazı yazanlar var; birinci qrup nəyinsə xatirinə dəftər – qələmi qarşısına qoyub boğazadan yuxarı, mənim də bir yazım olsun deyə yazanlar, ikinci qrup isə məqamı gələndə dəftər – qələm axtarıb, bu yazını yazım məndən çıxsın, canım da bir rahatlaşsın, ruhum dinclik tapsın deyə içini boşaltmaq istəyənlər … Birinci qrup qələm adamlarını yazıçı, ikinci qrup qələm tutanları isə yazar adlandırıram öz – özlüyümdə həmişə… O mənim üçün yazarların önünündə gələnlərdən idi və bu belə olaraq qalacaq…




Bu adı mənim qəlbimdə bircə şeiri ilə qazanmışdı (mən həm də ona Fərqanə Ana deyə müraciət edirdim) … O, bax elə adına, ruhuna istinad edib, yazmaq istədiyim bu yazının da yoluna çıraq tutan "QOYMAYIN QIZLARI ŞEİR YAZMAĞA" adlı şeiri idi. Bu şeiri ilk dəfə harada oxuduğum və ya hansı tədbirdə öz ağzından eşitdiyim yadımda deyil.

Ancaq, sonuncu dəfə özünün içdən gələn ifasında dinlədiyim dəqiq yadımdadır. 28 fevral 2020 – ci il tarixində Bakı şəhəri, Xətai rayonunda yerləşən 64 saylı məktəbdə keçirilən Gülşən Mustafanın kitab

təqdimatı zamanı ərəb-zəngi kimi tribunaya qalxması, mərdi – mərdanə ürəkli, xüsusi gümrahlıqla çıxışı və bu şeiri özünəməxsus bir əda ilə söyləməsi yəqin ki, ömrüm boyu xatirimdən silinməyəcək… Nə vaxtsa görüşəndə də söhbətə elə bu məqamdan başlayacağıq yəqin… Nəsə o səhnə dərin iz buraxaraq, xüsusi bir rənglə yaddaşıma həkk olunub. Şeirlə tanış olmayanlar müxtəlif axtarış sistemlərində adını yazıb sadəcə axtarış verərək çox asanlıqla tapıb oxuya bilərlər. Mən isə burada iki bəndi misal göstərmək istəyirəm (yarım misraya artıq yuxarıda istinad etmişəm):

Taleyin qışından qoyun büstünü,
Başının daşından qoyun büstünü,
Üşüsə şeirlə örtün üstünü,
Qızları qoymayın şeir yazmağa.

Xəyalı göylərdə yerini yazır,
Qovrula-qovrula sirrini yazır,
Hələ beş dərdindən birini yazır,
Qızları qoymayın şeir yazmağa.

Şeirin ilk sözündən son kəlməsinə qədər içdən gələn bir etiraf, bir hayqırtı, bir imdad, bir kövrək qəlbin yalvarışı duyulur. Və "…mən bilirəm, bu nə deməkdir…" onları qoruyun, onlara imkan verməyin, onları buna – şeir yazmağa vadar etməyin… Onları dəftər-qələmə möhtac etməyin… Onların yanında olun, onlarla söhbət edin, qoy dərdlərini sizə danışsınlar, sizinlə həmsöhbət olsunlar… Sirlərini təkcə siz bilin, hələ "*beş dərdindən biri*" olsa da, el-aləmə faş olmasın… Bu şeir heç vaxt boğazdan yuxarı, oturum bir şeir yazım ədası ilə kefdən yazılmış ola bilməz !!! Bu onun (şeir yazmağın) nə demək olduğunu çox gözəl bilən, bütün təfərrüatı ən xırda detalına qədər içindən keçirmiş, yaşamış insan, qadın, ana olaraq anlayan, məşəqqətlərinə qatlaşan, ancaq, bunları başqalarına rəva görməyən yazarın, seçilmiş müdrik bəndənin, ilahi məqamdan söz alan carçının çağırışıdır. Əks

cinsin nümayəndəsi olaraq, çağdaş poeziyamızda sayı elə də çox olmayan (… Gülşən Mustafa, Solmaz Qəribel, Mərziyə Sarvan, Arzu Göytürk, Aysel Səfərli, Ülkər Nicatlı, Əfsanə Rəvan, Əsmər Hüseyn Xan və b. …) qadın müəlliflərin yazdıqları nümunələrə rast gəldikcə həmişə bu problem məni düşündürüb və indi də düşündürür. Deməzdim ki, bu yeni məsələdir. Məsələn yaxın keçmişdə Natəvanın yazıb-yaratdıqları, Şövkət Ələkbərovanın, Rübabə Muradovanın yanğılı, içdən gələn ifaları və ya Elza İbrahimovanın bəstələri də eyni qəbildən olan sənət əsərləridir. Bəlkə də mən və ya qeyri bir əks cinsin nümayəndələrindən olan qələm adamının bu məsələyə diqqət eləməsi, bu qadınları belə dərindən düşündüən, onları narahat edən, içdən parçalayan, ruhunu üşüdən nədir ? – deyə düşüncəyə qapılmasını hardasa normal və adi hal kimi qəbul etmək olardı. Ancaq, Fərqanə Ananın bir qadın olaraq bu problemi qəbul edərək, içindən keçirib, aləmə car çəkməsi xüsusi cəsarət tələb edən hadisədir. Hələlik bunu yalnız və yalnız o edib… Və ümumiyyətlə girişdə qeyd etdiyimiz iki qrup qələm əhlinin olmasını da elə bu məsələ şərtləndirir… Bu elə mövzudur ki, uzandıqca uzanır və hiss edirəm ki, artıq formatdan kənara çıxmaq üzrəyəm. Odur ki, Fərqanə Ananın bu məşhur şeirində qaldırdığı məsələni bir az da qabartmaq məqsədi ilə, onun sözünə qüvvət olaraq, daha dərin qatdan, problemin kökündən atalara, babalara, əmilərə, dayılara, qardaşlara, ərlərə, dostlara, sirdaşlara bir çağırış etmək istəyirəm. Və inanıram ki, o da məni dəstəkləyərdi – ruhu şad osun:

***ELƏ AD VERİN Kİ, BƏXTİ YAR OLSUN!!!***

*Atalar, qızlara siz ad verəndə,*
*Elə ad vein ki, bəxti yar olsun!*
*Ya Humay çağırın, ya Sona deyin,*
*Elə ad verin ki, bəxti yar olsun!*
* * *

*Sükeydə, Fəğanə, adı verməyin,*
*Bəxtinin yoluna "cadu" hörməyin,*
*Uğurlu bir adı əsirgəməyin,*
*Elə ad verin ki, bəxti yar olsun!*
* * *
*Adı elə seçin, Aydan bac alsın,*
*Ayağı zəmində, göyə ucalsın,*
*Adıyla qarıyıb, xoşbəxt qocalsın,*
*Elə ad verin ki, bəxti yar olsun!*
* * *
*Əridib gözünün, nurun qarəsin,*
*Zaur "Ustac" ilə tapıb çarəsin,*
*Hamı xoşbəxt istər ciyərparəsin,*
*Elə ad verin ki, bəxti yar olsun!*
*04.05.2020 – Bakı ş.*

Allah Fərqanə Anaya qəni-qəni rəhmət eləsin… Ruhu şad olsun…

*QEYD:*

*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı "TƏƏSSÜRATLAR" və "QƏLƏMDAR – 2" kitablarında İYİRMİ ALTINCI yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda* şair Fərqanə Mehdiyevanın əziz xatirəsinə həsr olunmuş "Mən sizə darıxmaq öyrədəcəyəm" xatirələr toplusunda çap olunub. səh. 369.

**PDF>>>ZAUR USTAC – "BB" HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

## "SÖZÜN XAQANI" HAQQINDA SÖZ

## İYİRMİ YEDDİNCİ YAZI

Salam olsun, çox dəyərli oxucum! İnanıram ki, bu söhbətimiz də maraqlı alınacaq. Belə əminliyimi şərtləndirən başlıca amil mövzunun əhəmiyyətli və vacib olmasından qaynaqlanır. Özünəqayıdış dönəmini yaşadığımız bir zamanda belə söhbətlərə mümkün qədər çox yer verilməli və vaxt ayrılmalıdır. Bax elə adi bu sadaladığım "yer", "vaxt" anlayışlarının uzlaşmasında apardığımız söhbət əslində öz-özlüyündə bir "hadisə"-dir. Və artıq bu üç anlayışın bir arada olması isə tarix deməkdir. Tarix isə bizim iradəmizdən asılı olmayaraq artıq yaşanmış an, baş vermişhadisə, gələcəyə özül olacaq keçmişdir. Məhz bu səbəbən vaxtaşırı tarixə müraciət etmək, soy-kökümüzü tanımaq, tanıtmaq vacibdir. Ədəbiyyat tariximizə baxdıqda, A. Bakıxanov, İ. Qutqaşınlı, M. S. Ordubadi, Y. V. Çəmənzəminli, Makulu, S. Vurğun, B. Bayramov, İ. Şıxlı, İ. Əfəndiyev, İ. Muğanna, Ə.Cəfərzadə, F.Kərimzadə ənənələrinin Y.Oğuz, Ə.Nicat kimi tanınmış, müasirlərimiz olan yazarlar tərəfindən bu gün də uğurla davam etdirlməsi sevindirici haldır. Ancaq, olduqca sevindirici hal odur ki, bu sahədə görülən işlər bununla kifayətlənmir. Məsələn, son iki ildə tanış olduğum kitablardan yuxarıda sadaladığım müəlliflər qədər məşhur olmayan müasirimiz şair-publisist Qələndər Xaçınçaylının "Güllə işığında" və yazıçı Hüseynbala Mirələmovun "Son səfər" povestləri tarixilik baxımından misilsiz sənət əsərləridir. Bugünkü söhbətimizin mövzusu isə ən son tanış olduğum "Söz xaqanı" kitabı barədə olacaq. Kitabın müəllifi artıq ədəbi mühitdə öz sözünü demiş, istər şeirləri ilə, istərsə də publisistik yazıları ilə oxucu rəğbətini qazanmış Sona Abbasəliqızıdır.

QISA ARAYIŞ

Sona Abbasəliqızı Göyçə mahalında anadan olub.BDU-nun (keçmiş ADU-nun) Jurnalistika fakültəsini bitirib.Səkkiz kitab müəllifidir.Azərbaycan yazıçılar və Jurnalistlər,İraq-Türkmən Yazıçılar,Özbəkistan Yazıçılar Birliklərinin üzvüdür.Dəfələrlə

Dövlət tərəfindən mükafatlandırılıb.Uzun müddət dövrü mətbuatda məsul vəzifələrdə çalışıb.Bu müəllifin doqquzuncu kitabıdır. Nəşr olunan bütün kitablar çalışdığı Dövlət Neft Şirkəti tərəfindən maliyyələşdirilir. "Ziyadar" Mükafatına layiq görülmüşdür.İki övladı var.Kitabda adı keçən romandan əlavə "Tale yolu" adlı bir povest və "Ümid", "Ürək unutmur", "Səssizliyin səsi" kimi üç hekayə də yer alıb. "Elm və Təhsil" nəşriyyatında işıq üzü görən kitabın naşiri, redaktoru və eyni zamanda ön sözün müəllifi filologiya elmləri doktoru, professor, Nadir Məmmədlidir. Bundan əlavə Ağrı İbrahim Çeçen Üniversitesi Eğitim fakültəsi dekani və Atatürk Üniversitesi Kazim Karabekir Eğitim fakültəsi yabanci dillər Eğitimi bölüm başkanı alman dili eğitimi ABD başkani Professor. Dr. Melik Bülbül kitaba tarixilik baxımından dəyər qazandıran son söz yazmışdır.

"Onlardan biri də hekayə, povest və şeirlə ədəbiyyata gələn və tez bir zamanda yaradıcılığı ilə şöhrət tapan Sona İsmayılovadır. Nəsrindən görünür ki, onun çox zəngin elmi-tarixi düşüncəsi, tarixə dərindən bələdliyi, faktlarla işləmək mədəniyyəti, eyni zamanda, güclü bədii təfəkkürü və təxəyyülü vardır. Qələmə aldığı "Sözün xaqanı" tarixi-bədii roman klassik şairimiz, ziddiyyətli tale yaşamış ƏfzələddinXaqaniyə həsr olunmuşdur. Müəllif romanı qələmə alarkən, ilk növbədə, özünü həmin tarixə aid etmiş, məhz o tarixdə yaşamış, dövrün hadisələrini, adət-ənənələrini, faktlarını öyrənmiş, qələmə aldıqlarını təhtəlpsixologiyası və yazıçı təxəyyülündə saf-çürük etmişdir. Elə buna görədir ki, əsər çox uğurlu alınmışdır." – Bu fikirlər məhz hörmətli professorumuz Nadir Məmmədlinin kitaba yazdığı ön sözdəndir. Mənim fikirlərimə gəlincə Hüseynbala Mirələmovun "Son səfər" povesti Nəsimi haqqında, Nəsimi dövrü haqqında, həmin dövrün Şamaxısı, Azərbaycanı – yəni bu coğrafiya üçün zəruri məlumatlar baxımından nə qədrər qiymətlidirsə, Sona Abbasəliqızının "Sözün

xaqanı" romanı da Xaqani – Şairin adı İbrahim, atasının adı Əli idi. Orta əsr mənbələrində o, belə təqdim edilir: Əbu Bədil Əfzələddin İbrahim ibn Əli Nəccar ibn Osman ibn İbrahim Həqaiqi Həssanul-Əcəm Xaqani Şirvani. Burada Həqaiqi, Həssanul-Əcəm və Xaqani onun təxəllüsü, Əfzələddin ləqəbi, Əbu Bədil kunyəsi və Şirvani mənsub olduğu yerin adı-nisbəsidir. –haqqında, onun yaşadığı dövr haqqında məlumatlılıq baxımından zəngin mənbə hesab oluna bilər. Ümumiyyətlə onu qeyd etmək istəyirəm ki, Sona xanım tarixi roman janrına yanaşması, bu yanaşmada qarşıya qoyduğu məqsəd və nailiyyəti alqışa layiqdir. Əsərin sonluğunu nəzərə almasaq demək olar ki, təbiət mənzərələrindən tutmuş, insanların davranışları, müxtəlif hadisələrin təsvirləri, dialoqların tərtibi, müəyyən söz və ifadələrdən yerində, düzgün istifadə etmək kimi bütün zəruri məsələlər uğurla öz həllini tapmışdır. Yuxarıda qeyd etdiyim kimi yalnız sonluq hissədə, artıq roman bitdikdən – hər şey gözəl başlayıb, inkişaf edib, yekunlaşdıqdan – sonra hansısa texniki səbəbdən zamanın itməsi, uyğunsuzluq baş verir. Bu halla biz nəsr əsərlərinin çoxunda məhz sonluqda rastlaşırıq. Belə hallarda müəlliflər ya bilərəkdən bu addımla nəsə əlavə bir məlumat çatdırmaq istəyirlər, ya da sonluqda müxtəlif səbəblərdən, bəlkə də ani diqqətsizlikdən xırda qüsurlar yaranır. Ancaq onu da əlavə etmək istəyirəm ki, bu uyğunsuzluğun həmən ardından "… Təbrizin mərkəzində də Bakıdakı kimi yaraşıqlı, güllü-çiçəkli Xaqani parkı var. Parkın girəcəyində Əfzəlləddin Xaqaninin şərəfinə böyük və əzəmətli bir abidə də ucaldılıb. Xiyabanın yaxınlığında "İslamın Firuzəsi" adlandırılan Göy məscid, məscidin içərisində Həqiqi təxəllüsü ilə tanınan hürufi şair, Qaraqoyunlu dövlətinin Beşinci Sultanı Müzəffərəddin Cahan şahın və onun xanımının dəfn olunduğu məqbərə yerləşir. Cahan şah Həqiqi Azərbaycan türkü idi… Şairlər məqbərəsində isə şamaxılı Azadlıq zəvvarının – əslən oğuz türkü olan Xaqani Şirvaninin başdaşına bu sözlər yazılıb: "Bu qəbir rəhmətlik, bağışlanmış, filosofların və şairlərin böyüyü, həkim Əfzələddin İbrahim Xaqani ibn Əli

Şirvaninindir.

Hicri beş yüz doxsan beşinci ilin şəvval ayı" . … Burada uyuyan dörd yüzdən çox şairin cərgəsindən sanki söz mülkünün xaqanının – orta əsr Şərq intibahının "Zöhrə ulduzu" sayılan Xaqani Şirvaninin ölməz və əbədi səsi gəlir: "bir əcəm türküyəm… Tanrı istəyən… " … "belə bir gözəl sonluqla öz fikrini tamamlayır və oxucuda tam fikir formalaşmasına xidmət edən bitkin məlumat ötürməyi bacarır.
"Sözün Xaqanı" romanı haqqında təəssüratlarımı aşağıdakı kimi yekunlaşdırmaq istəyirəm:
– Müəllifin romanı yazmağa ciddi hazırlaşdığı, mütaliəsi və səfərlərinin nəticəsi göz qabağındadır. Bu təqdirəlayiq və bütün gənc yazarlara tövsiyə olunmalı bir örnəkdir,
– Romanın həcmi müasir tələblərə tam cavab verir,
– Dili səlisdir və aid olduğu dövrlə səsləşir,
– Tarixilik baxımından zəruri məlumatlarla zəngindir,
– Ən əsası olduqca vacib bir mövzuya müraciət etməklə əslində cəsarətli bir addım ataraq ədəbiyyatımıza gözəl, bitkin, tam məlumat yüklü bir əsər qazandırmışdır. Nəzərinizə çatdırıram ki, görkəmli şairimiz Məmməd Rahimin "Xaqani" mənzum dramından sonra Xaqani haqqında ikinci iri həcmli əsər, nəsrdə ilsə ilk nümunədir. Bütün bu sadaladıqlarıma görə Sona xanımı təbrik etmək olar.
Qeyd etdiyim kimi kitabda adı çəkilən romandan əlavə bir povest və üç hekayə də var. Kitabın diqqətəlayiq xüsusiyyətlərindən biri də odur ki, bu povest və hekayələrin də ruhu kitabın ümumi ruhu, ab-havası ilə uyğunluq təşkil edir və özünəməxsus xüsusi bir vəhdət yaradaraq birlikdə tarixilik ampulasından çıxış edirlər.
Sonda yenə söhbətimizin əvvəlindəki məsələyə qayıtmaq istəyirəm. İlk öncə Sona xanıma belə bir xeyirli işə imza atdığına görə təşəkkür edir, sonra üzümü gənc yazarlara tutaraq demək istəyirəm ki, araşdırsalar nə qədər haqqında yazılmalı Kərəmlilərimiz, Nəsimilərimiz, Xaqanilərimiz, Hadilərimiz,

Qəmküsarlarımız var… Ən dəyərli nemət olan vaxtınızı bu sətirləri oxumağa sərf edib sona qədər həmsöhbət olduğunuz üçün qarşınızda baş əyir və sonsuz təşəkkürlərimi çatdırıram.
30.06.2020 – Bakı.

QEYD:

Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı “TƏƏSSÜRATLAR” və “QƏLƏMDAR – 2” kitablarında İYİRMİ YEDDİNCİ yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:

1. Sözün Xaqanı haqqında söz”, “Ədalət”, 09.07.2020, say: 91 (5751) s.6.
2. “Sözün Xaqanı haqqında söz”, “Kredo”, 09.07.2020, s.6.
3. “Sözün xaqanı haqqında söz”, “Təzadlar”, 14.07.20, say: 21 (2262) s.15.

**PDF>>>ZAUR USTAC – “BB” HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

## TORPAQ BİZİ GÖZLƏYİR

## İYİRMİ SƏKKİZİNCİ YAZI

Salam olsun, çox dəyərli oxucum! Şükürlər olsun Böyük Allaha. Hər ötən an, hər saat, hər gün üçün min dəfə şükürlər olsun! Sizlərlə yeni bir görüşə imkan verib, zaman tanıdığına görə nə qədər minnətdar olsaq da yenə çox azdır, çox az... Necə deyərlər, dəryada damcı qədər.

1993-cü ilin fevral ayının 24-ü Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsində qış imtahan sessiyasını yola verib orduya yollanandan sonra bir də 12 mart 2002-ci ildə ordudan ayrıldıqdan sonra yenidən Bakı şəhərinə yerləşdim. Subay vaxtı tək, evləndikdən sonra uşaqlarla həmişə bütün 20 Yanvar, 26 fevral, Məhərrəmlik ayında Aşura günləri Hüseynin qəbrini ziyarət etməklə qeyd edirdim (indi də belədir, sadəcə olaraq İlqar, Vüqar, Şükür, Həmdəm, Qərib, Hikmət, Polad da bu siyahıya əlavə olunub...– 20.02.2022).

Hüseyn kimdir? – Hüseyn mənim ana tərəfdən (Əfkarlı-Əfkərli) qohumum, Qara Hüseynin nəvəsi, anamın dili ilə desəm doğmaca Əkbər dayımın oğludur. Ağdam rayonu Yusifcanlı kənd orta məktəbində də məndən bir sinif yuxarı oxuyub. (Rəhmətlik adı çəkilən məktəbi 1990-cı ildə, mən isə 1991-ci ildə bitirmişik)

QISA ARAYIŞ

Hüseynov Hüseyn Əkbər oğlu (Əfkərli) 18.09.1973-cü ildə Ağdam rayonunun Yusifcanlı ("Sufcannı") kəndində Əfkərli Qara Hüseynin ocağında ziyalı ailəsində dünyaya göz açıb. Anasının adı Məleykə, atasının adı isə Əkbərdir (Allah hər ikisinə rəhmət

eləsin). Atası Əkbər dayı (ana tərəfdən Əfkərlilərdən qohum olduğumuza görə dayı deyirdik, əslində anamın dayısı oğlu idi (Əfkərli Qara Hüseynin oğlu)). Hüseyn evin sonbeşiyi idi. Ona babası Qara Hüseynin adını qoymuşdular. Hüseyngil üç qardaş (Misir, Məhəmmədəli, Hüseyn) və bir bacı (Arzu – uzun illər Bakı ş. A.Hüseynzadə adına 20 nömrəli məktəb-liseydə müəllim işləyib) olmaqla ailədə dörd uşaq olublar. Hüseyndən başqa hamısı ali təhsil alıb, müxtəlif sahələrdə ixtisaslarına uyğun fəaliyyət göstəriblər. Hüseyn də yaxşı oxuyurdu. Ağdam rayon, Yusifcanlı kənd tam orta məktəbində tarix-coğrafiya müəllimi olmuş Əkbərov Yusifin onun haqqında qeydlərindən: "...Balaca Hüseyn, (babası Qara Hüseynə görə belə yazıb. Burada "Qara" sözü barədə bir neçə kəlmə yazmağa ehtiyac duydum. Ümumiyyətlə, bizdə ana tətəfdə qara adam yoxdur. Əksinə hamı ağbəniz (sarıyanız yox), göygöz (ala-yaşılaçalan) insanlar olub. Elə Balaca Hüseyn, onun qardaşları Məhəmmədəli, Misir, ataları Əkbər dayı, Babası Böyük – Qara Hüseyn də ağsifət, bədəncə iri cüssəli, zəhmli, sayılıb-seçilən, istər hakimiyyət orqanları, istərsə də əhali arasında xüsusi çəkiyə malik şəxs olublar. Yusif müəllimin burada nəvə Hüseyni "Balaca Hüseyn" kimi təqdim etməsi, əslində ağ bənizli, iri bədənli sözün bütün mənalarında böyük kişini niyə Qara Hüseyn adlandırdıqlarını ortaya qoyur. Burada ləqəb, ayama kimi işlənən "Qara" sözü rəng deyil, böyük mənasında işlənib. Təxminən yüz il əvvəl "Qara Hüseyn" ifadəsi "Böyük Hüseyn" anlamına gəlirdi. (Ağdam rayonu, Yusifcanlı kəndi. Qarabağ bölgəsi, Qarqar çayının dağlara tərəf sahili, Əfkərlilər.)) sən axı əlaçı oxuyurdun... ...hər hansı bir sənətin kamil bilicisi olasan. Lakin çərxi-fələk tərsinə dövran etdi. Sən universitet əvəzinə cəbhəyə getdin.... Öz-özünə söz verdin ki, yalnız Vətən (Yurd) azad olandan sonra, qələbədən sonra təhsil alacaqsan..." Yusif Əkbərov,

Şahin Qasımov. “Qarabağda bir kənd var -Yusifcanlı” kitabından, s.93.




Hüseyn 1980-ci ildə Ağdam rayon Yusifcanlı kənd tam orta məktəbinin birinci sinfinə getmiş, bütün təhsil illəri boyu dərs

əlaçısı olmuş, tarix fənnindən olimpiadalarda iştirak etmişdi. 1990-ci ildə elə həmin məktəbdə təhsilini baş vurduqdan sonra (bu 20 yanvar hadisələrindən sonrakı ən qarışıq dövrlərə, xüsusi ilə gənclər üçün qəbuledilməz hadisələrin cərəyan etdiyi bir vaxta təsadüf edirdi) Yusif müəllimin də qeyd etdiyi kimi hamı onun da ali məktəbə sənəd verəcəyini gözləsə də o bütün oxuyub öyrəndiyi tarix kitablarını (“SSRİ tarixi” kitablarını) yandıraraq, Azərbaycanın yeni yaranmaqda olan Milli Ordusunun ilk əsgərlərindən biri oldu...

Hüseynov Hüseyn Əkbər oğlu 09.07.1994-cü ildə (atəşkəsdən sonra) Ağdam rayonu, Yusifcanlı kəndi istiqamətindəki cəbhə xəttində həm əraziyə yaxşı bələd olan, həm də təcrübəli döyüşçü kimi kiçik kəşfiyyat qrupu ilə düşmənin dərinliyində yerləşdiyi mövqeləri dəqiqləşdirmək məqsədi ilə yerinə yetirməyə getdiyi döyüş tapşırığını icra edən zaman qrup üzvlərindən biri düşmən tələsinə - minaya düşür. Qrup üzvlərinin hamısı yaralansa da təkcə Hüseyn şəhid olur. Onun daha çox qəlpə yarası almasının əsas səbəblərindən biri həm bədəncə digər qrup üzvlərindən çox böyük olması, həm də partlayış anında digər qrup üzvlərini sanki qucaqlayırmış kimi özünü onlarla partlayışın arasına atması olub...

Hüseyn Bakı şəhəri, İkinci Fəxri xiyabanda dəfn olunub. Allah rəhmət eləsin. Ruhu şad olsun. Ruhuna Fatihə (oxuyun):

Bu qeydləri təsədüfən və ya nəyinsə xatirinə buraya yazmıram. Belə geniş girişin öz səbəbi var. Deməli, yuxarıda qeyd etdiyim kimi, Hüseynin məzarı Bakı şəhəri, İkinci Fəxri Xiyabanda (Vətən Müharibəsi şəhidlərimizin uyuduğu yeni - İkinci Fəxri Xiyabanın davamına tərəf - indi köhnə hasar qalsa da

aranı tağvari keçidlə açıb birləşdiriblər) hərbçilərin dəfn olunduğu yerdədir. Hər dəfə Hüseyni ziyarət etdikdən sonra, digər sıraları da gəzir, bütün şəhidlərimizin ruhuna dualar oxuyurduq. 2010-cu ildə Mübarizi də orada dəfn etdilər. Hər dəfə ziyarətə getdikdə müxtəlif səbəblərdən həyatını itirmiş hərbçilərin yeni məzarlarının olduğunu görməyə adət etmişdik...

Nəhayət xiyabanın qonşuluğunda, İkinci Fəxri Xiyabanla qəbiristanlığın arasında Yasamala tərəf ayrıca hasarın içərisində yerləşmiş sovet dönəmindən qalma köhnə anbarların sökülərək yerində yeni xiyaban salınmasına şahidlik etdik. İlk vaxtlar bu işləri adi hazırlıq, tikinti-abadlaşdırma işləri kimi qəbul etmişdim. Ancaq 2020-ci ilin yazında pandemiya səbəbindən karantin günlərində məhdud vaxt çərçivəsində bu yerləri məsafədən ziyarətim mənə tamam başqa təsir bağışlamışdı... Həmin gün oradan gəzə-gəzə M.Müşfiq küçəsi ilə üzüaşağı düşəndə artıq qeyri-iradi dilimdən ey dili-qafil “Torpaq bizi gözləyir” ifadəsi çıxmışdı...

Bir də həmin gün - İlqarla Poladı (Azərbaycanın Milli Qəhrəmanları şəhid polkovnik İlqar MİrzəyevBABKM–da bölük komandirim olub, şəhid general-mayor Polad Həşimov – onu özüm kimi yaxından tanısam da şəxsi tanışlığımız olmayıb) orada, yeni salınmış İkinci Fəxri Xiyabanda dəfn etdikləri gün çox heyrətlənmişdim. Mənzərə çox dəhşətli görünürdü mənə. Döyüş sahəsində saman bağları kimi cərgə ilə düzülü qalmış cəsədləri görmüş bir şəxsdə boş məzar yerlərinin niyə, hansı səbəbdən bu qədər heyrət doğurduğunu hələ də özüm üçün tam aydınlaşdıra bilməmişəm. İlk vaxtlar pandemiya ilə əlaqədar karantinə və xiyabanda aparılan təmir işləri ilə bağlı müxtəlif səbəblərə görə

uzun müddət ziyarətə icazə vermirdilər... Neçə dəfə elə darvazadan və ya Hüseyni ziyarət etdikdən sonra hasarın üstündən heyrətlə boş məzar yerlərini seyr edərək, "Torpaq bizi gözləyir"i dəfələrlə təkrarlamışdım... "...Tək qalıbdı, iki paşa, Hanı qoşun, hanı ləşkər!?..." demişdim... Nəhayət, o gün yetişdi - 27 sentyabr 2020-ci il oldu. Bu tarixdən sonra digər mərd vətən övladları da İlqarın, Poladın yanında özlərinə yer qazandılar... Yavaş-yavaş məni bürümüş heyrət hissi şeirlərə çevrilməyə başladı...



Burada geniş bir haşiyəyə çıxmaq istəyirəm:

HAŞİYƏ

DƏSTƏGÜLDƏ GÖRDÜKLƏRİM
*(...əsgər gündəliyindən sətirlər...)*
Salam olsun, çox dəyərli oxucum! Şükürlər olsun böyük Allaha! Daha bir vəsilə ilə sizlərlə görüşmək qismət oldu. Ötən günlərdə televiziya kanallarının birindən ötəri olaraq "Dəstəgül" kəlməsini eşitməyim və son günlər baş verən hadisələr bu yazının

yaranmasına, sonucda görüşümüzə səbəb oldu.

“Dəstəgül”lə bağlı eşitdiyim cümlə tam olaraq belə idi:- “…onun son döyüş yeri Dəstəgül olub…” Dəstəgül, Dəstəgül… Dəstəgül sözün əsl mənasında neçə-neçə igid -ər oğullarımızın son döyüş yeri, son mənzili, son ünvanı olub və uzun illərdir bu belə qalmaqdadır. . . Məlumunuz olsun ki, son günlər hələ I Qarabağ müharibəsində itkin düşmüş və o vaxt tanınmadığı üçün “Naməlum” adı ilə dəfn olunmuş döyüşçülərimizin siyahısının bir daha dəqiqləşdirilməsi, “naməlum”ların tanınması yolunda mühüm işlər görülür. Mənim qulaq müsafiri olduğum söhbət də məhz bu məsələ ilə bağlı idi.




Dəstəgül (40°19′14″ şm. e. 46°41′29″ ş. u.) istər 2016 –cı il Aprel döyüşləri, istərsə də II Qarbağ – Vətən müharibəsi zamanı adı daha çox hallanan Çaylı, Talış, Suqovuşan istiqamətində, onlardan sonra Təpəkəndə deyil, Gülüstan, Ballıqaya – Murova

tərəf, yəni Suqovuşandan sonra çayqırağı getdikdə sağ (Goranboy) tərəfdə sıx meşə örtüklü dağlıq ərazidə yerləşmiş kiçik bir yaşayış məntəqəsidir. Daha çox yaylaq yerinə oxşayır. Buna baxmayaraq bir neçə qəbirdən ibarət olan qəbirstanlığı da var. Evlər əsasən "finski" dediyimiz taxta evlərdən ibarətdir. (Bəlkə də bu məlumatlar artıq keçmiş zamanda qəbul edilməlidir.) Tale elə gətirib ki, bu yerləri  həm yayda (iyul 1993), həm də qışın oğlan çağında (fevral 1994) ziyarət etmək mənə qismət olub. 1994-cü ilin fevral ayında bu kiçik yaşayış məntəqəsini (Dəstəgül və ya Dəstəgir) kəşfiyyatçılardan təhvil alıb, motoatıcı bölmələr gələnə qədər qoruyub  saxlamış bölmənin tərkibində qulluq etmişəm. Olduqca keşməkeşli həyatımın bu hissəsinin  müəyyən məqamları yaradıcılığımda həm nəsrdə, həm də nəzmdə özünü zaman-zaman göstərib və yəqin ki, hələ çox göstərəcək. Məsələn elə bu yazı… Azərbaycanın Milli Qəhrəmanı  Mübariz İbrahimov haqqında olan (son günlərdə bədxahlar tərəfindən məqaləsi vikipediyadan silinmiş) *"Oriyentir Ulduzu" kitabından bir hissəni sizlərə təqdim edib, sonra söhbətimizə davam etmək istəyirəm: – "Bəs, bu dağlardakı səngərlədə neçə illərdir torpağa tapşırılacağı günü gözləyən igid-ər şəhidlərimizin sümüklərini nə vaxt yığıb mənzilinə çatdıracağıq??? Düşünə- düşünə dərə boyu dağlara baxdı. İndi onun baxışları dağlara zillənsə də, dağların arxasında da nə olduğunu gün kimi aydın görürdü... Halbuki o, heç Çaylıda da olmamışdı, amma postdakı bütün əsgərlər kimi o, da bilirdi ki, dərədə, daşı daş üstə qalmayan, bu kənd Çaylıdı. Adından da göründüyü kimi vaxtında çox səfalı, axarlı-baxarlı kənd olub. Dərə boyunca dağlara – Talışa tətəf – qalxanda, Gülüstan, birinci görünən dağı aşdıqdan sonra Madagiz, sonra hər yerdə gölqırağı, çayqırağı üzü Günbatana sağ tayla, dağ cığırı ilə gedib çıxırsan yol ayrıcına, ayrıc dərədədi, köhnə ferma binası da var dərədə. Fermanın yanında dağ yolu ilə təxminən iki saat dolama yollarla sağ tərəfə qalxsan, Dəstəgüldü. Dəstəgüldə qışda qar dizdən olsa da dərədəki bulağın başında artıq Fevral ayının ortalarında qarın, buzun içində bənövşələr açır. O, bənövşələrin qurusu indi də*

*postdakı köhnə dəftər- kitabların arasında durur, təzələrini dərməyincə uşaqlar atmaq istəmirlər.”*
Sonra yenə Mübarizə həsr olunmuş “Şəhid haqqı” adlı bir şeirdə;

*Bir əsgər kəmərinin toqqasıcan yoxuq biz,*
*İllərdi ki, gözləyir; neçə qışdı, neçə yaz,*
*Deyir: – “Gəl bu şəhidə bir quruca məzar qaz”,*
*Bu qədər bivec ata, ya da ki, qardaş olmaz…*
*Vallah, atam-qardaşım bundan vacib iş olmaz…*
* * *
*Hər şeyi yükləmişik, Lazım bəyin belinə,*
*Zalım oğlu zalım da qüvvət verib dilinə,*
*Heç kimsə razı olmaz, bir quş səkə gülünə,*
*Bəs bu dağlarda yatan gül balalar kimindi?!*
*Ay – ulduzlu toqqalar, qumqumalar kimindi?!*
* * *
*Dəstəklərə yazılı, neçə-neçə adımız,*
*Qundaqlara qazılı, sezilməyən ay-ulduz,*
*Nişan durub, gözləyir; birdən düşər yolumuz,*
*Gəlin, o nişanların gözün yolda qoymayaq…*
*Bu işi, bu gün görək, sabaha saxlamayaq…*
* * *
*Bu işin bir yolu var, göstəribdi Mübariz!*
*Torpaq bizim Vətənsə,  düşməlidi izimiz.*
*Bəsdir bəhanə etdik, bağlanıbdı yol-iriz.*
*Örnəkdən, ibrət alıb, cümləmiz coşmalıyıq!!!*
*Tikanlı məftilləri bu gün biz aşmalıyıq!!!*
* * *
*Dəli bilirlər bizi, doğruldaq adımızı,*
*Dost özün göstərəcək, tanıyaq yadımızı,*
*İllərdir su vermişik, püskürək odumuzu,*
*Belə yaşamaq olmaz, bilməliyik hamımız!!!*
*Mübariz gedən yolu, getməliyik hamımız!!!*
*03.08.2019. Bakı.*

Daha sonra isə ümumilikdə bütün məzarsız şəhidlərimizə ithaf etdiyim “Müqəddəslər” şeirində;

*MÜQƏDDƏSLƏR*
*(… bütün məzarsız Vətən övladlarına ithaf olunur…)*
*Səngəri məzarı olan qardaşım,*
*Hələ də bilinmir əhvalın sənin…*
*Dəfndən Məada Bərzəx deyirlər,*
*Məchuldur durumun, məqamın sənin…*
** * **
*Silahın pas tutub, daha heç atmaz,*
*Dəbilqən gəzsə də, çəkmən köç etməz,*
*Kəmər yox olsa da, toqqan heç itməz,*
*Qumquman olubdu kimliyin sənin…*
** * **
*Üç rəngli bayrağım süsləyən dağlar,*
*Hər zirvə minlərlə şəhidi ağlar,*
*Bənövşə çiçəyi qəlbimi dağlar,*
*Dağların ağ qarı kəfənin sənin…*
** * **
*Zaur buz bulaqdan içəmməz daha,*
*Bənövşə müqəddəs, dərəmməz daha,*
*Ağ qarı tapdayıb, gəzəmməz daha,*
*Bu yurdun nəyi var, ünvanın sənin…*
*09.05.2021. – Bakı.*
Dəstəgüldə gördüklərim zaman-zaman özünü xatırlatmış, müxtəlif təzahürlər şəklində biruzə verərək, kağız üzərinə köçmüşdür. Bütün bunlardan əlavə həmin dövrdə baş verənlər “Bir parça taxta və ya ağ mələfə səfası” əsərində ətraflı öz əksini tapıb.

Yuxarıda təqdim etdiyim nümunələrin yaranmasında əsas bir epizodun rolu olub ki, o da bugünkü vəziyyətlə səsləşdiyinə görə bu yazını yazmağı özümə borc bildim. Deməli, necə deyərlər

quşbaşı qar yağa-yağa gecədən xeyli keçmiş təyin olunmuş yerə çatıb mövqeyi kəşfiyyatçılardan təhvil aldıq. Komandir hamını düzüb postları, kimin harada duracağını, istirahət növbəsinin harada dincələcəyini, postda dayanma müddətini elan etdikdən sonra hamı təyin olunmuş yerlərə getdi. Mən istirahət edən heyətə düşmüşdüm. Tez istirahət edən növbə üçün təyin olunmuş evə (Kiçik girişdən və iki pəncərəli bir otaqdan ibarət olan taxta ev idi, pəncərələr Goranboy tərəfə, sıldırım dərəyə baxırdı.) daxil olduq. Pəncərələri özümüzlə gətirdiyimiz odeyallarla tutduq. Bir odun sobası tapıb qurduq və turbanın başına vedrə keçirdik ki, yananda qığılcımlar çıxmasın. Seçdiyimiz ev dağın düşmən tərəfindən görünməyən sıldırım yamacında yerləşməsinə rəğmən bildiyimiz bütün maskalanmak və gizlilik tələblərinə riayət etməyə çalışırdıq. Artıq zaman olaraq, gecədən xeyli keçsə də hər yan dümağappaq qar olduğuna və qara buludluq olmadığına görə görünüş demək olar ki, gündüz kimi idi. İstirahət otağı tam hazır idi. Hətta çaydan da qaynadıb, həm posta gedənlər, həm də postdan gələnlər üçün isti şirin su hazırlamışdıq. Biz elə posta çıxmağa hazırlaşırdıq ki, uşaqlardan (əsgər R.E.-ni) birini halı pisləşmiş vəziyyətdə içəri gətirdilər. Nə baş verdiyi ilə marqalandıqda məlum oldu ki, əsgər digər post -növbə yoldaşları ilə təyin olunduqları səngəri qardan təmizləyən zaman lapatkası nəyəsə ilişir və bu da lapatkanı qaldıranda gördüyü mənzərədən sarsılır… Halı pisləşir… Səngəri təmizləyən əsgərin lapatkası bizdən əvvəl o mövqedə olub, şəhid olmuş digər Azərbaycan əsgərinin kəmərinə ilişibmiş. Lapatkanı qaldıran zaman isə bədən ortadan bükülmüş vəziyyətdə yuxarı qalxmışdı. O vaxtlar, bizim əsgərlərə verilən yaşıl rəngli, ay ulduzlu aliminium toqqa və dəriəvəzedicidən olan qəhvəyi kəmər aydın bilinirdi. Bundan əlavə bayraqlı "bakinski" forma və çəkmələr də bizim əsgər olduğunu təsdiqləyirdi…

Biz əvəz olunana qədər itkisiz-filansız nizam-intizamla, bütün qayda-qanunlara əməl edərək (Hələ bu müddətdə xüsusi tapşırıqla

bir-neçə dəfə kəşfiyyata ketmək, bundan əlavə bənövşələri dərdiyim – maraqlıdır ki, fevral ayında buzun içində bənövşələr açmışdı – bulağa suya getmək, ərzaq gətirməyə gedən uşaqların (əsgərlərin) qarşısına çıxmaq üçün aşağı düşmək kimi tapşırıqları da yerinə yetirirdik) sağ-salamat demək olar ki, Dəstəgüldə əməllibaşlı dincəldik. Vaxtı çatanda gəlib bizi əvəz etdilər…

*GÜNDƏLİKDƏN SƏTİRLƏR:*
*08.02.1994 – axşam saat 11-də(23:00) komandir məni postdan çağırtdırdı. 6 nəfərlə Təpəkəndə kəşfiyyata getdik. Tapşırığı yerinə yetirib,( 09.02. 1994) səhər saat 4 –də Dəstəgülə qayıtdıq.*
Biz əvəz olunduqdan 3-4 gün sonra (bu hadisənin öz obyektiv və subyektiv səbəbləri olub) qəfil hücumla demək olar ki, bir-iki yaralı olaraq min-bir müsibətlə qurtulan və qaçanlardan başqa bizi əvəz edən bölmənin bütün şəxsi heyətinin hamısını öldürmüşdülər…

Deməli, təkcə bu balaca (heç yanda adı, xəritələrdə izi-tozu olmayan) Dəstəgüldə həm ikinci dəfə biz alana qədər 90-cı illərdə şəhid olmuş əsgərlərimizin, həm də 1994-cü ilin fevral ayında qısa bir müddət ərzində bizdə olan vaxt şəhid olanlarla birlikdə xeyli şəhidimizin nəşi qalmaqdadır…

Görün indi nə qədər belə Dəstəgüllər var…

Xidmət müddətimdə sözün əsl mənasında başıma gəlməyən iş qalmasa da Dəstəgül mənim də yaddaşıma xüsusi olaraq yazılıb. Gözümün önündən getməyən
altında gizlətdikləri məlum olan qarla dolu səngərlər və bir də istədiyim zaman baxıb, toxuna bildiyim, hətta yeri gələndə söhbət etdiyim gündəliklərin vərəqlərinə qopub itmək qorxusu ilə bərk-bərk yapışmış 1994 – cü ilin fevral ayında Dəstəgüldə Gülüstan,

Ballıqaya istiqamətində dərədəki bulqdan qarın- buzun içindən yığdığım bənövşələrin qurusu mənim üçün istənilən zaman astral səyahətlə reallıq arasında mövcud olan bir dünya qurur. Həmişə bir istək olub, qəlbimin dərinliyində. Bir gün mütləq qışın oğlan çağında dincəldiyim bu səfalı məkanı may ayının sonlarında görmək, əsrlərdir şəhidlərimizn qanını ilə qidalanıb, Babəkin azadlıq sancağı kimi zühur edən alqırmızı lalərdən dərib, igid-ər oğullarımızın məzarı olmuş səngərlərin üzərinə sərmək, dərədə hüzünlü bir səslə zümzümə edən “Bənövşəli bulağ”a baş çəkmək istəmişəm. İnanıram ki, bütün digər arzularım kimi bu istəyim də vaxtı gələndə gerçəkləşəcək!

Allah bütün məzarlı və məzarsız şəhidlərimizə rəhmət eləsin. Siz də sona qədər həmsöhbət olduğunuz üçün çox sağ olun.

Haşiyəyə daxil olan bu sətrlər 16.08.2021 –ci ildə qələmə alınınb...



Əlavə çox söhbətlə yazılar oldu...

Görüşlər keçrildi...

“Torpaq bizi gözləyir” adlı şeir də yazdım...




***TORPAQ BİZİ GÖZLƏYİR…***

*(Milli Qəhrəman  İlqar Mirzəyevin xatirəsinə)*

*Gəlmişəm görüşə yenə də, qardaş!*
*Ayaqlar olmadı sonadək yoldaş…*
*Qollarım qoynumda qurudu bardaş…*
*Yadıma xırdaca günahım düşdü…*
*Yanında boş yerə tamahım düşdü…*

* * *

*Gəlmişəm görüşə yenə də, qardaş!*
*Ayaqlar olmadı sonadək yoldaş…*
*Qollarım qoynumda qurudu bardaş…*
*“Hazırdır məzarlar”, – eyindən keçir…*

*Yanına gələn yol çiyindən keçir…*
* * *
*Gəlmişəm görüşə yenə də, qardaş!*
*Ayaqlar olmadı sonadək yoldaş…*
*Qollarım qoynumda qurudu bardaş…*
*Bu süslü “otaqlar” xiffət eyləyir…*
*“Daş yastıq yataqlar” minnət eyləyir…*
* * *
*Gəlmişəm görüşə yenə də, qardaş!*
*Ayaqlar olmadı sonadək yoldaş…*
*Qollarım qoynumda qurudu bardaş…*
*Səngər, məzar ortaq bizi gözləyir…*
*Qardaş, Ana torpaq bizi gözləyir…*
***23.08.2020. – Bakı. (II F.X.)***

**ZAUR USTAC – XƏZƏR DELTASINDA GÖYQURŞAĞI**

**ZAUR USTAC – XƏZƏR DELTASINDA GÖYQURŞAĞI**

**ZAUR USTAC – XƏZƏR DELTASINDA GÖYQURŞAĞI**




Əlavə olaraq İlqara və digər şəhidlərimizə həsr olunmuş silsilə şeirlər yazdım... Ancaq günü bu gün də (20.02.2022) hələ o istədiyim sözü deyə bilməmişəm. O söz, o yazı hələ doğulmayıb. "Torpaq bizi gözləyir".

Bu baxımdan İyirmi səkkizinci yazım hələ də tam sayıla bilməz...

17.07.2020 – 20.02.2022. Bakı.

QEYD:

Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı "TƏƏSSÜRATLAR" və "QƏLƏMDAR – 2" kitablarında İYİRMİ SƏKKİZİNCİ yazı kimi müstəqil məqalə şəklində yer almışdır.

**PDF>>>ZAUR USTAC – "BB" HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

## KREMLİN MEMARI ƏLİŞ KƏRƏMLİ

## İYİRMİ DOQQUZUNCU YAZI

*(Görkəmli memarın xatirəsinə)*

Salam olsun, çox dəyərli oxucum! Şükürlər olsun Böyük Allaha ki, bu görüşü də bizə qismət etdi. Bu dəfə söhbətimizin mövzusu görkəmli Azərbaycan memarı Əliş bəy Kərəmli haqqında olacaq. Öncə qeyd edim ki, oktyabr ayının ilk həftəsinin bazar ertəsi günü Beynəlxalq Memarlar Günü kimi qeyd olunur.

Cari ildə bu gün 5 oktyabra təsadüf edir. Deməli, 5 oktyabr 2020-ci il dünyada Memarlar Günü kimi qeyd olunacaq. Biz də “Yazarlar” jurnalı və “Ustac.az” olaraq bu günə öz töhfəmizi verməyə çalışdıq. Belə ki, hələ 2018-ci ildən davam edən (21 aprel 2022-ci ilə qədər davam edəcək) “Kərəmli-700” layihəsi çərçivəsində tərəfimizdən bir sıra tədbirlər həyata keçirilmişdir. Görülən işlər barədə təfsilata keçməzdən əvvəl Əliş bəy Kərəmli haqqında qısa bir məlumat vermək istəyirəm.

QISA ARAYIŞ:

Əliş bəy Sübhan oğlu Kərəmli (Kərimli) – Şirvani (onu Avropada və Rusiyada Şamaxılı Alis kimi də tanıyırlar) 21 aprel 1322-ci ildə Şamaxıda anadan olmuşdur. İlk təhsilini doğma yurdu Şamaxıda almış və memarlığı özünə məslək edərək, üzünü mədəniyyətin beşiyi sayılan Şərqə tutmuşdur. Onun bu səfəri uğurlu alınır. Dəməşqdə, Şirazda, Təbrizdə gördüyü işlərlə məşhurlaşır və artıq tanınmış memar kimi vətənə dönür. Az sonra Şimala üz tutur və bu dəfə Krımda Bağçasarayda gördüyü işlərlə diqqət mərkəzinə düşür. Bu işi tamamladıqdan doğma Şamaxıya qayıdan memar az bir müddətdən sonra yenidən Şimala getməli olur və özünün son əsərini – günümüzdə də dünyaca məşhur olan Moskva Kremlini tikib təhvil verir. Elə bu münasibətlə təşkil olunmuş ziyafət

zamanı – 22 iyun 1371 – ci ildə Moskvada xaincəsinə öldürülmüşdür.




Qarşıdan gələn 2022-ci ildə böyük memarın anadan olmasının 700 illi tamam olacaq. Qeyd etdiyim kimi, biz bu tarixi nəzərə alaraq artıq 2018-ci ilin yay aylarından "Kərəmli-700" layihəsi

başlatmışıq və bu gün də nəzərdə tutulmuş tədbirlər uğurla həyata keçirilir. Mütəmadi olaraq görülmüş işlər barədə mətbuat, elektron media vasitəsilə məlumatlar verilir. Əsas işlərdən biri kimi görkəmli memarın anadan olmasından həlak olana qədər bütün həyatını qısa və yığcam şəkildə özündə əks etdirən "Əliş və Anna" poemasının yazılmasını və ayrıca kitab şəklində bu günə qədər artıq dörd dəfə (iki dəfə paralel olaraq Az-lat və Az-ərəb qrafikalarında) nəşr olunmasını misal göstərə bilərik. Kitabın Cənubi Azərbaycan da daxil olmaqla bütün Azərbaycan ərazisində yayılması – Təbrizdə, Bakıda, Şamaxıda və ölkəmizin digər şəhər və rayonlarının, ayrı-ayrı təşkilatların kitabxanalarında yerləşməsi təmin olunmuşdur. Bundan əlavə, ilk gündən poemanın elektron variantı hər iki qrafikada əsas elektron kitabxanalara yerləşdirilmiş dünyanın internet olan istənilən nöqtəsindən oxumaq üçün əlçatanlığı təmin olunmuşdur. Eyni zamanda, tanınmış alim, AYB-nin üzvü, Əməkdar müəllim Kamal Camalovun poema haqqında yazdığı geniş təhlil "Əliş və Anna haqqında" adı ilə "Yazarlar" jurnalının xüsusi buraxılışı şəklində ayrıca kitab kimi nəşr olunaraq, yayımlanmışdır. Bu layihə tədbirləri çərçivəsində görülən ən önəmli və yadda qalan iş tanınmış şair-rəssam Şehran Allahverdi tərəfindən görkəmli memarın portretinin yaradılması və onun lazımi ünvanlara çatdırılması olmuşdur. Portret hələlik iki orijinal nüsxədə – birincisi (42,5 X 54), ikincisi isə (50 X 74) ölçülərdə olmaqla kətan üzərində yağlı boya ilə çəkilib. "Kərəmli-700" yubiley tədbirləri çərçivəsində qarşıdan gələn Beynəlxalq Memarlar Günü ilə əlaqədar görkəmli Azərbaycan memarı şamaxılı Əliş bəy Kərəmli bir daha anılmış və 42,5 X 54 ölçüdə olan (passport nömrəsi: K700PƏbK1N001) birinci portret Şamaxı rayon Tarix-Diyarçünaslıq Muzeyinə, 50 X 74 ölçülü (passport nömrəsi: K700PƏbK2N002) ikinci portret isə Azərbaycan Memarlar İttifaqına hədiyyə olunmuşdur. Layihənin ilk günlərindən bu münasibətlə planlaşdırılmış və dəfələrlə təxirə salınmış Şamaxı Dövlət Regional Kollecinin tələbələri ilə görüş

məlum məhdudiyyətlər aradan qaldırıldıqdan sonra baş tutacaq.

Bu günə qədər ağızdan-ağıza gəzən şifahi söhbətlərin, rus, Azərbaycan yazarlarının (mənə məlum olan – bəlkə başqa dillərdə, başqa xalqların da ədəbiyyatında və digər yazılı mənbələrində, arxivlərdə bu barədə məlumatlar vardır) yaratmış olduqları yazılı ədəbiyyat nümunələrinin, publisistik yazıların qəhrəmanı kimi bədii portretlərdən tanıdığımız Əliş bəy Sübhan oğlu Kərəmli – Şirvaninin portretinin yaradılmasını xalqımızın görkəmli oğlunun akademik səviyyədə tanınması yolunda atılmış mühüm addım kimi qiymətləndirir və universitetlərimizin tarix fakültələrinin tələbələrini, aspirantları, doktorantları, onların rəhbərlərini referatlara, diplom işlərinə, eləcə də olduqca müxtəlif səviyyəli elmi işlərə mövzu seçərkən dərindən araşdırılmağa, tədqiq olunmağa ehtiacı olan bu vacib şəxsiyyəti, onun həyat-fəaliyyətini diqqət mərkəzində saxlamağa çağırırıq. Onu nəzərinizə çatdırıram ki, məzarının yeri dəqiq məlum olmasa da (bu amil günümüzdə aktual olan mədəniyyətlər fərqi məsələsini bir daha ortaya qoyur – demək olar ki, müasiri, eyni zamanda həmyerlisi olan İmadəddin Nəsiminin həyatı daha faciəli sonluqla Şərqdə – müsəlman torpaqlarında başa çatsa da günümüzədək məzarı Hələbdə qorunub saxlanmışdır), əlimizdə ölkəmizin hüdudları daxilində və xaricində tam şəkildə qorunmuş və ya qalıqları mövcud olan tikililər, xalq arasında geniş şəkildə yayğın olan şifahi məlumatlar, kifayət qədər zəngin yazılı bədii nümunələr, publisistik yazılar, ən əsası hal-hazırda Qobustan rayonunun Ərəbşalbaş kəndində yaşayan Kərimlilər nəslindən olması kimi araşdırılaraq, dəqiqləşdirilməyə ehtiyacı olan çoxsaylı mənbəələr var.
FOTOLAR:

**PDF>>>ZAUR USTAC – "BB" HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**




42,5 X 54 ölçüdə olan (passport nömrəsi: K700PƏbK1N001) birinci portret Şamaxı ray. Tarix-Diyarçünaslıq Muzeyində.




50 X 74 ölçülü (passport nömrəsi: K700PƏbK2N002) ikinci portret Azərbaycan Memarlar İttifaqında.

Sonda maraqlananlar üçün onu qeyd edə bilərəm ki, görkəmli memarın həyatından bəhs edən "Əliş və Anna" kitabını əldə etmək istəyənlər "Mücrü" Nəşriyyatına, eyni zamanda Bakıda və

Sumqayıtda əsas kitab mağazalarına müraciət edə bilərlər. Ən dəyərli nemət olan vaxtınızı bu sətirləri oxumağa sərf edib, sona qədər həmsöhbət olduğunuz üçün minnətdarlığımı bildirirəm.

29.09.2020 - Bakı.
*QEYD:*

*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı "TƏƏSSÜRATLAR" və "QƏLƏMDAR – 2" kitablarında İYİRMİ DOQQUZUNCU yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda* ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:

1."Memarlıq irsimizə ehtiram hissilə atılan addımlar", "525-ci qəzet", 03.10.2020, say: 124 (5505) s.23.
2. "Memar Əliş bəy Kərəmli", "Ədalət", 06.10.2020, say: 135 (5795) s.7.
3. "Kremlin memarı Əliş bəy Kərəmli", "Təzadlar", 06.10.2020, say:33 (2274) s.12.
4. "Memar Əliş bəy Kərəmli", " Kredo", 08.10.2020, say: 36 (1016) s.15.

**PDF>>>ZAUR USTAC – "BB" HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

## SƏNƏTİN SEÇDİYİ ADAM – ŞƏHİD HƏMDƏM AĞAYEV

## OTUZUNCU YAZI

*(Polkovnik-leytenant Həmdəm Ağayevə həsr olunub)*

Salam olsun, dəyərli oxucu! Sizinlə daha bir görüşə imkan yaratdığı üçün Uca Yaradana minnətdarlığım sonsuzdur.

Zəfər ab-havası yaşadığımız bu günlər eyni zamanda ibrətamizdir. Bir yanda qələbə sevinci yaşadığımız halda, digər tərəfdə şəhidlərimiz dağ kimi dayanır. Necə deyərlər, bir gözümüzün gülüb, birinin ağladığı bu günlərdə çox diqqətli olmalı, bu zəfəri hansı itkilərin, necə oğulların qanı, canı hesabına əldə etdiyimizi unutmamalıyıq. Yəqin ki, indi bu sətirləri oxuyan hər bir şəxsin özünün şəxsən tanıdığı qəhrəman şəhidimiz və ya qazimiz var.

Qeyd edim ki, şəxsən tanıdığım, ya illərlə bir yerdə xidmət etdiyim, ya da ən azından bir neçə saatlıq da olsa, yol yoldaşı, söhbətdaş olduğum neçə belə igidlər var. Elələri var ki, həyatlarını dəfələrlə riskə atsalar da, sağ-salamt yeni döyüşlərə canla-başla hazırdırlar. Çoxları isə ya qazidirlər, ya da şəhidlik zirvəsinə ucalıblar. Və mən onları sayıb qurtara və ya bir-birindən fərqləndirə bilmərəm. Bu yazını yazmaqda məqsədim şəxsən tanıdığım belə qəhrəmanlardan biri şəhid polkovnik-leytenant Həmdəm Ağayevin timsalında bütün şəhidlərimizin ruhunu şad etmək, onları xatırlamaq, eyni zamanda müəyyən məqamlar barədə öz subyektiv fikirlərimi sizlərlə bölüşməkdən ibarətdir.

Həmdəmlə tanışlığım 1995-ci ilin may ayının ortalarına, səhv etmirəmsə, 16-sına təsadüf edir. Həmin gün Azərbaycanın müxtəlif bölgələrində olan hərbi hissələrdən komandirlərin təqdimatları ilə döyüşlərdə və xidmətdə fərqlənmiş hərbi qulluqçular Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə qəbulda iştirak etmək üçün seçim mərhələsinə göndərilmişdi. Bütün

gələcək namizədlər məktəbin həyatində toplanmışdı. Boş vaxtdan istifadə edərək hər kəs bir-biri ilə maraqlanır, kimin hansı hərbi hissədən gəldiyini soruşur, yerlilər toplaşıb dərdləşirdilər. Mən Tərtər cəbhəsindən gəlmişdim. Həmin günəşli gün indi də ən xırda detalına kimi yadımdadır. Ağdam cəbhəsindən gələn Dadaşov Haqverdi (Qubadlı) və Rəfiyev İlqarı (Şəki) çıxmaq şərti ilə Ağdamdan olan namizədlər; Əsgərov Əhliqar, soyadını unutduğum Sahib və rəhmətlik Həmdəm Ağayev bir ağacın kölgəsində dayanıb söhbət edirdik. İsgəndərov Namiqlə mən Tərtədən gəlmişdik. Ordan-burdan, hərə öz hərbi hissəsindəki vəziyyətdən danışırdı. Sahibdən (Sahib hamıdan hündür və canlı olsa da, sən demə, neçə illər cəbhədə döyüşən, hələ atəşkəsdən sonra da bir il qalıb xidmət edən bu dağ boyda igidin ürəyi xəstə imiş. O, bu səbəblə tibbi müayinədən keçə bilmədi.) başqa hamı qəbul olundu və zabit kimi ordu sıralarını qayıtdı. İndi bu yeddi nəfərin hərəsi bir mövqe sahibidir. Ən uca məqamı isə şübhəsiz ki, Həmdəm qazanıb. Sonralar uzun illər ərzində arada-sırada görüşdüyümüz vaxtlarda da Həmdəm, ümumiyyətlə, azdanışan, ciddi, qaraqabaq adam təsiri bağışlasa da, əksinə, o tam fərqli; sakit, yuxaürəkli, mərhəmətli, olduqca səmimi, bir yerindən nöqtə tapıb söhbətə başlaya bilsən çox məlumatlı, hərtərəfli ensiklopedik biliyə sahib, maraqlı həmsöhbət idi. Həmin gün də bəlkə o heç ağzını açıb bir söz deməmiş sanki bir ağsaqqal kimi hamını dinləmiş, kimin nə qədər şişirtmələrə yol verdiyini özü üçün saf-çürük etmişdi. Bizim onunla tanışlığımız bax belə başladı. Fakültələrimizin fərqli olması səbəbindən sonralar da ara-sıra görüşərdik. Adətən, ya o, bizim kazarmaya gələndə (bizim “starşina” Məmmədov Fərmanla lap yaxın dost idi, tez-tez onun yanına gəlib, gedirdi), ya gündəlik məktəb həyatında təsadüfən idmanda, ya da dərsarası vaxtlarda belə görüşlər mümkün olurdu.

**PDF>>>ZAUR USTAC – “BB” HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**




QISA ARAYIŞ

Həmdəm Mayıl oğlu Ağayev 9 sentyabr 1975-ci ildə Ağdam rayonunda anadan olmuşdur. Yeniyetmə və gənclik illəri məlum münaqişənin ən qızğın dövrlərinə təsadüf etdiyindən, demək olar ki, o dövrün əksər gəncləri kimi güllə səsi, mərmi partlayışları əhatəsində olğunlaşmışdır. Onun məktəbli olduğu illəri tanınmış söz adamı, pedaqogika üzrə fəlsəfə doktoru Mayıl Dostu belə xatırlayır: "Əvvəlcə onu deyim ki, Həmdəmin ölümü həqiqətən məni çox ağritdı. Səhv etmirəmsə, Həmdəmgilin sinfinə 5-6 il dərs demişəm. Həmdəm çox çalışqan, məsuliyyətli, ciddi və ən əsası isə qorxmaz idi. Mən hələ o vaxtlar belə qənaətə gəlmişdim ki, bu

ötkəm, sözübütöv gənci heç bir vasitə ilə qərarından döndərmək mümkün deyil. Onun gözlərində qorxu deyilən hiss yox idi… Biz müəllimlərin belə gənclərə ümidləri böyük idi. Bizim nəzərimizdə onların hər biri həkim, müəllim, mühəndis kimi gələcək müstəqil Azərbaycanın qurucuları idi… Təəssüf… Belə… Allah rəhmət eləsin… Ruhu şad olsun…”. Müəllimlərin və böyüklərin müxtəlif arzularının olmasına baxmayaraq, Həmdəm də digər həmyaşıdları kimi orta təhsilini başa vurar-vurmaz könüllü ordu sıralarına qoşularaq vətənin, doğma yurdun müdafiəsinə qalxdı. Oxumaqdan söz salanlara onun bir cavabı var idi: – “Oxumaq qaçmır ki, – söz, bunların işini bitirən kimi gedib oxuyacam!” Bu minvalla 1994-cü ilin may ayı gəldi, atəşkəs oldu. Atəşkəsdən sonra da bir il xidmət edən Həmdəm komandirlərinin tövsiyəsi və təqdimatı ilə 1995-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə daxil oldu. 1999-cu ilin iyul ayında təhsilini müvəffəqiyyətlə başa vuraraq leytenant rütbəsində yenidən zabit olaraq ordu sıralarında xidmətinə davam etməyə başladı. 9 oktyab 2020-ci ilə qədər Naxçıvan da daxil olmaqla Azərbaycanın müxtəlif bölgələrində yerləşən hərbi hissələrində fərqli vəzifələrdə xidmət etdi. Ən böyük arzusu olan Qarabağın azadlığı uğrunda Vətən Müharibəsinin bu günündə amalı yolunda qəhrəmancasına şəhid oldu. Bakıda, II Fəxri Xiyabanda dəfn olunub. Onun saysız-hesabsız mükafatları, təltifləri içərisində ölümündən sonra qazandığı “Vətən uğrunda” medalı və “Azərbaycan Bayrağı” ordeninin öz yeri var. Çünki bu ödülləri canından çox sevdiyi Qarabağı düşmən tapdağından azad etdiyinə görə alıb.

Bu əvəzsiz təhsil müəssisəsinin (BABKM) bir özəlliyi var ki, dörd il təhsil müddətində yeddi kursun kursantları ən azından hamısı bir-birini üzdən tanıyır. Bir az diqqətli olanlar kimin kim olduğunu yaxşı bilir. Yaxınlar isə qardaş olurlar. Bu yeddi kursun kursantları isə nə az, nə çox – ortalama 5-6 min insan, dəliqanlı gənc, hər şeyi gözə almış vətənə sevdalı ər deməkdir. Təhsilin ilk illərində Həmdəmlə, adətən, axşamlar boş vaxtda idman şəhərciyində tez-

tez görüşürdük (Yuxarı kurslarda isə o şərq əlbəyaxa döyüş növlərinin biri ilə şəhərdə – məktəbdən kənarda məşq edirdi). Bir də Ağdamın Qiyaslı kəndindən orta məktəbi bitirib gəlmiş, bizdən yaşca bir neçə yaş kiçik Mehdiyev Ramiz var idi. Bu üçlük idman edə-edə söhbətləşərdik. Söhbətin mövzusu hər dəfə eyni idi. Qarabağ, Ağdam… Hər söhbətin sonu, adətən, belə bitərdi "…bu biabırçılıq nə vaxta qədər belə davam edəcək?" Həmdəm isə deyərdi: – "İnşallah, bir gün sonu gələr. Zalımın zülmü yerdə qalmaz. Biz öz işimizlə məşğul olaq. Bizim vəzifəmiz o günə hazırlaşmaqdan ibarətdir."

Həmdəm xidmətdən çavuş kimi gəlmişdi və təhsil müddətində də komandir müavini olaraq fəaliyyət göstərirdi. Dəfələrlə onun gələcəkdə onunla çiyin-çiyinə eyni sırada zabit kimi duracaq yaşca kiçik, hələ dünyanın bərk-boşundan çıxmamış öz kursantlarına sakit, aramla, yavaş səslə necə öyüd-nəsihət verdiyinin şahidi olmuşam. Məsələn, onun ən çox işlətdiyi bir cümlə var idi: – "Dövlət bu ağır günündə sənə cibindən bu qədər pul xərcləyir, yedirdir, içirdir, geydirir, oxudur, sağlamlığını qoruyur, sən isə yatırsan, oxumursan, 2 alırsan. Bu, kişilikdən deyil. Hər işdə gərək halallıq olsun". Bir məqamı da nəzərinizə çatdırım, artıq söz deməyə heç bir ehtiyac qalmayacaq. Buraxılışa sayılı günlər qaldıqda belə Həmdəmin tağımı məktəbdə öz nizam-intizamı ilə seçilirdi. Hərb həyatdan az-çox xəbəri olanlar bilir ki, çox haylı-küylü həyatdır. Həmdəm burada da özünəməxsusluğu ilə seçilirdi. Tutaq ki, dərsarası vaxtda və ya yeməkxanaya gedəndə nə qədər qarışıqlıq olsa da, görürdün ki, bir tağım (25-30 nəfər) qutu kimi nizam-intizamla öz yolu ilə bütün intizam qaydalarına ciddi riayət etmək şərti ilə gedir. Yaxınlıqda komanda verən heç kim olmasa da bilinirdi ki, bu, Həmdəmin tağımıdır. Diqqətlə ətrafa baxdıqda görərdin "planşet"i çiynində, başıaşağı, fikirli-fikirli gəlir. Gəlib çatanda qayğılı baxışlarla süzüb, başı ilə yüngül salam verib keçərdi…

Beləliklə, 1999-cu ilin yayı gəldi. Buraxılışa az qalmış şanlı qələbəmizin memarlarından olan Hikmət Mirzəyev məktəbdə göründü. Bu barədə mənə ilk olaraq Namiq xəbər vermişdi. Hikmət Mirzəyev onun komandiri olmuşdu. Mən də onu hələ Tərtərdən ciddi, səliqəli, hörmətli (Yəqin ki, Lənkəran Əliyevi mütləq tanıyacaqsınız, o da ordu quruculuğunda böyük əməyi olan zabitlərdən biridir. Doğma yaşlı atası belə qəbuluna gələndə elə olurdu ki, saatlarla NBM-də gözləməli olurdu. Hikmət Mirzəyev gənc olmasına rəğmən yeganə zabit idi ki, sutkanın hansı vaxtı gəlsə gözlətmədən Lənkəran Əliyev onu qəbul edirdi.) komandir kimi tanıyırdım. Tezliklə məlum oldu ki, xüsusi təyinatlılardan ibarət yeni hərbi hissə yaradılacaq, kim istəyir könüllü yazıla bilər. Həmin vaxt da Həmdəm, Namiq və mən təxminən 100-ə yaxın gələcək leytenantlar könüllü yazıldıq. Siyahılar hazır olandan sonra bir dəfə də məktəbin qərargahındakı akt zalında yeni yaranacaq hərbi hissənin kadrlar bölməsinin zabitləri ilə görüşümüz oldu. Bizə xidmətin özəllikləri və bəzi məhdudiyyətlər barədə məlumat verdilər. Bütün bunlarla tanış olduqdan sonra yenidən ərizə yazdıq. Həmdəmi sonuncu dəfə bax həmin toplantıda görmüşdüm. Xeyli söhbət etdik. Demişdi ki, sizi buraxmayacaqlar. Bizim qrupdan 11 nəfər yazılmışdı, onlardan, sadəcə, 1 nəfərin əmri gəldi (Məmmədov Rəşad – Bərdəli). Mən də daxil olmaqla qalanları üçün izahat belə oldu komandan buraxmayıb (O vaxt bizim komandan rəhmətlik Rail Rzayev idi). Komandan deyibmiş ki, dörd ilə güc-bəla 40 nəfər mütəxəssis hazırlamışıq, onu da sizə verə bilmərik. Çox da ki, leytenantlar bunu istəyir, onlar hələ çox cavandırlar.

Bizim son görüşümüz həmin toplantıda oldu. Sonra hərə bir tərəfə – öz xidmət yerlərinə yollandı. Eşitmişdim ki, Həmdəm istədiyi kimi həmin hərbi hissəyə düşüb. Sonra bir dəfə eşitdim ki, artıq Naxçıvandadır. Həmin vaxt mən də Naxçıvanda xidmət edirdim. Mənim vaxtım çox olsa da, onun heç vaxtı yox idi. Kəşfiyatda komandir idi. Həmişə ya təlimdə, ya tapşırıqda olurdu. Həmdəm

bax beləcə bir ömrü hərbi geyimdə, əlində silah başa vurdu. Şərəflə özü demişkən, hər kişiyə qismət olmayan şəkildə başa vurdu. Halbuki tamam başqa cür də ola bilərdi. Sizi inandırım ki, o necə peşəkar zabit idisə, ondan on qat daha tanınmış müəllim, pedaqoq, alim, mühəndis ola bilərdi. Təəssüf ki, əksər həmyaşıdları kimi o da özünə sənət seçə bilmədi. Onu seçən sənətin ardınca getməli oldu. Necə ki, digər şəhidimiz Polad Həşimovun anası demişdir: – "…o hüquqşünas olmaq istəyirdi, yaxşı da oxuyurdu, tarixi, xarici dilləri əla bilirdi, ancaq lap son anda bir gün gəlib dedi ki, mən hərbçi olacağam, indi vətənimiz üçün bu daha vacib peşədir…" Bu arada qısa bir haşiyəyə çıxıb sonra söhbətimi bitirmək istəyirəm.

HAŞİYƏ

İndi yazacaqlarım bəlkə də kim üçünsə qəribə görünə bilər. Ancaq inanın biz istəsək də, istəməsək də, inansaq da, inanmasaq da bu belədir. Bu fikrin dərinliyinə getmədən, sadəcə, (hamımızın yaxşı tanıdığı, hörmət etdiyi) son şəhidlərimizin adlarını xatırlatmaq kifayətdir. Məsələn, Polad Həşimov, Şükür Həmidov (bir ildən artıq eyni hərbi hissədə xidmət etmişik), Həmdəm və hələ 1993 - 94-də xüsusilə, atəşkəsə lap az qalmış mart-aprel döyüşlərində Tərtər-Ağdam cəbhəsində nə qədər gənc yaşda şəhid olmuş 75-lər. Qələbəmizin digər memarlarından olan Hikmət Həsənov, Zaur Rüstəmov (şəxsən tanıyıram) və digər nə qədər tanımadığımız qəhrəman 75-lər. Allah hamısına can sağlığı versin. Hərbçi olmayan Ceyhun Məmmədov, Kənan Hacı, İlqar Fəhmi və digər xüsusi istedad sahibi 75-lər. Bu adını çəkdiyim şəxslərin hamısını yaxından tanıyıram. Onların seçilmişlər olduğuna inanıram. Bu keyfiyyətlər təkcə 75-lərə deyil, məsələn, tanıya biləcəklərimiz…,. 1951, 1963, 1987, 1999… –cu illərdə anadan olmuş insanlara da aiddir. Kimə maraqlı gəlsə, diqqət edib fərqinə vara bilər. Həmdəm bu seçilmişlərin öndə gələnlərindən biri idi. Onu yaxından tanıyan, hörmət edən əsgərlərinin, döyüş yoldaşlarının

dediyi kimi, "o, şəhidlərin sultanıdır". Allah bütün şəhidlərimizə rəhmət eləsin! Hamısı bizim üçün əzizdir. Və söhbətimin əvvəlində qeyd etdiyim kimi, bu yazı Həmdəmin timsalında bütün şəhidlərimizə həsr olunur. Yazının məqsədi, sadəcə, necə igid oğullar, seçilmiş ərlər itirdiyimizə diqqət çəkməkdən ibarətdir. Məsələn, Həmdəmlə eyni gündə, sadəcə, bir dövr (bir dövr 12 ilə bərabərdir) əvvəl, yəni 9 sentyabr 1963-cü ildə anadan olmuş hamımızın fəxri İqor Aşurbəyli.

Bizim bu gün zamanın, sənətin onu seçib bizə məğrur, qayğıkeş, qorxmaz, səmimi, mərd, şəhid komandir kimi təqdim etdiyi, tanıtdığı Ağayev Həmdəm həmən-həmən, hardasa aşağı-yuxarı eyni potensiala sahib bir şəxs olub… Eləcə də Polad Həşimov, Şükür Həmidov və digərləri… Bunları xatırlatmaqda məqsədim odur ki, bu insanları unutmağa haqqımız yoxdur nə qədər ki, həyatdayıq. Çünki adları bu yazıda anılan və digər yüzlərlə qəhrəman oğullar bir an düşünmədən, gözlərini qırpmadan öz həyatlarından, arzularından, üstəgəl, yaxınlarının, doğmalarının, övladlarının istəklərindən vaz keçiblər… Və dahası, bu gün, bu an üçün on illiklərlə (on, iyirmi, otuz) hazırlaşıblar… Tam səmimi olaraq qeyd edim ki, döyüş toy-bayram kimi bir şeydir (Bir neçə saatlıq keçid, adaptasiya dövrü xaric.). Ancaq illərlə buna hazırlaşmaq, saysız-hesabsız məşəqqətli təlimlərə, müxtəlif mənəvi, maddi, fiziki məhrumiyyətlərlə dolu ağır xidmət illərinə qatlaşmaq, əsl şücaət budur. Bilirsiniz bu nəyə bənzəyir? İllərlə bəzənib, süslənib şərəfli anın nə vaxt gələcəyini gözləyirsən… Cidd-cəhdlə onu qarşılamağa can atırsan… Bax, bu məqamları unutmayaq. Bir an fikirləşək ki, Polad Həşimov ən azından hansısa rayonun hakimi kimi indi isti kabinetində oturub. Necə ədalətli bir hakim ola biləcəyini onun əsgərlərindən soruşun. Və ya Şükür Həmidovu ən azı bir rayonun icra başçısı kimi təsəvvür edin. O rayonun necə ola biləcəyini onu tanıyanlardan soruşun. Yaxud da bizim qəhəmanımız Həmdəm Ağayevi ali məktəblərin birində müəllim kimi təsəvvür edin. Onu tanıyanlar bilir ki, o, bu

peşəyə necə yaraşardı və onun öhdəsindən layiqincə gələr, ölkəmizə, millətimizə, xalqımıza, gələcəyimizə nə qədər faydalı ola bilərdi. Ancaq onlar bütün bunların hamısından bizlərə görə imtina etdilər. Ali xüsusiyyətlərinə görə Uca Yaradan onları seçdi, onlar da canla-başla bu yolu…

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Şəhidlərimizi daim xatırlayaq, nümunə götürək, onların bizə əmanət etdiyi gələcəyə xəyanət etməyək! Ruhunuz şad olsun, seçilmişlər…

30.12.2020. BAKI.

QEYD:

Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı “TƏƏSSÜRATLAR” və “QƏLƏMDAR – 2” kitablarında OTUZUNCU yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:

1.“Sənətin seçdiyi adam – şəhid Həmdəm Ağayev”, “Təzadlar” qəzeti, 12.01.2021, say: 01 (2286), s.5-14.

**PDF>>>ZAUR USTAC – “BB” HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

## QARABAĞDA TORPAQ İSLAHATLARI VACİBDİR

## OTUZ BİRİNCİ YAZI

İndinin özündə də müxtəlif internet resurslarında rast gəlinən iki il əvvəl mətbuatda "Köçkün (qaçqın) olmaq nə deməkdir?!" başlıqlı yazım dərc olunmuşdu. Bundan əlavə, illər öncə ənənəvi kağızda yazılıb, poçtla göndərilən Ağdam rayon İcra Hakimiyyətinə, "Qaçqınkom"a, Təhsil Nazirliyinə və bir çox müəssisələrə böyük qayıdışla bağlı yazdığım məktublar var. Yəni bu yazı birdən-birə, nəyinsə xatirinə yazılmayıb.

Bu gün qazandığımız şanlı zəfərin memarı cənab Ali Baş Komandan, möhtərəm prezidentimiz İlham Əliyev son çıxışlarının birində qeyd etdiyi kimi, bəzi məmurların işğaldan azad olunmuş torpaqları müxtəlif yollarla zəbt etməyə çalışdığı, eyni zamanda bugünkü həssas məqamlarda istər televiziya ekranlarından, istərsə də müxtəlif KİV-lərin, sosial şəbəkələrin imkanlarından istifadə etməklə hər gün bir avaz səsləndirən, yaxud da məqsədli şəkildə hansısa fikirləri artıq məcburi köçkün olmayan, vaxtilə ölkəmizin ərazisində keçirilmiş torpaq islahatlarından kənarda qalmış, torpaqsız Azərbaycan Respublikası vətəndaşlarına aşılamağa çalışırlar. Bütün yuxarıda sadaladıqlarımı nəzərə alaraq xatırlatmaq istəyirəm: BİZ İŞĞALDAN AZAD OLUNMUŞ TORPAQLARDA KEÇİRİLƏCƏK TORPAQ İSLAHATLARINI SƏBİRSİZLİKLƏ GÖZLƏYİRİK!

Mən bütün ümumi, pafoslu sözlərdən uzaq, Ağdam rayonunun Yusifcanlı kənd sakini olaraq şəxsən öz adımdan (Mustafayevlərin adından) bəzi məsələlər barədə özləri üçün xam xəyallar quranları qısa tarixi bir ekskursa dəvət edirəm. Onu da deyim ki, aşağıda yazacaqlarımı təsdiq edə biləcək çox sayda insanlar hələ həyatdadır.



Fotoda gördüyünüz şəxslər mənim ulu nənəm Müsəmbər (Şəhrili) və ulu babam Mahmuddur (Ustaclı). Elə də uzaq olmayan tarixdə – ötən əsrin 30-cu illərində kolxoz qurulanda bu kişinin torpaqlarını, bağlarını, mal-qarasını, demək olar ki, əlində nəyi var almışdılar. Özü də necə?

HAŞİYƏ: Bu məsələni uşaq ikən çox eşitsəm də, son vaxtlar Mahmud kişinin oğullarından biri, uzun illər kolxoz və sovxoz dönəmlərində həmişə idarə heyətində texnika məsələləri üzrə müvafiq vəzifələrdə işləmiş Mustafayev Şükürlə (Allah rəhmət eləsin!) dəqiqləşdirmişəm. Həmin vaxtlar Mahmud kişi artıq çox yaşlı imiş. Qoca olmasına baxmayaraq, ailənin idarəsi əlində olan ötkəm, zəhmli, həm də çox əsəbi kişi olub. O günə qədər artıq bir neçə dəfə evlərinə gəlib-gedən ağsaqqallar həmin axşam kişinin qarşısına konkret şərt qoyurlar. Ya əlində olan hər şeyi verib kolxoza girirsən, ya da bu gecə götürə biləcəyin vacib nəyin var götürüb kənddən çıxırsan, evin, torpaqların, bağların qalır hökümətə.

Şükür əminin sözlərinə görə, kişi heç düşünmədən deyib ki, – “durun yığışın”… Evindəki ailə üzvlərini (o vaxt artıq böyük qızları ərdə olub) və götürə bildiyi qədər nə lazımsa götürüb kənddən çıxan Mahmud kişi bir müddət kəndin indiki ərazisindən bir az yuxarı, Şelli (Şelli, Şıxbabalı, Saybalı, Bağbanlar və İsmayılbəyli) tərəflərdə yaşamalı olur. Ancaq orada da onu rahat buraxmırlar. Ağsaqqallar tez-tez yanına gəlib gedirlər. “A kişi, hökümətlə hökümətlik eləmiyəssən ha…” deyiminin də dəbdə olan vaxtları idi. Bir axşam yenə ağsaqqallar “qonaq” gəlirlər və bu dəfə söhbətin məzmunu təxminən belə olur ki, – “Qızın Gözəl qabaqcıl pambıqçı – Staxanovçudur, Moskvaya göndərirlər, Kalinin medal verəcək. Medalın alsın gəlsin, elə kolxozun sədri də o olar. Oğul-uşağı da gətirib tökmüsən çöllərə… Bunlar da bu gün-sabah böyüyüb hərəsi kolxozda bir iş, vəzifə sahibi olarlar… Gəl, bu daşı tök ətəyindən, qayıt kəndə, gir kolxoza, yaşlı adamsan, beş-on gün öz ev-eşiyində rahat yaşa, balaların da iş-güc sahibi olsunlar… Başqa yolu yoxdur. Bir də gördün bu gün olmasa da, sabah gəlib buradan da çıxaracaqlar səni. Onda hara gedəcəksən?”. Nəticədə, bu kimi söhbətlərlə kişini yola gətirirlər və o, kəndə qayıdır. Girir kolxoza. O vaxt verilən söz Sovet İttifaqı dağılana qədər tutuldu. Gözəl elə o vaxt və müharibə dövründə sədr olur və quruluş dağılana qədər (1993-cü ilin yayına qədər) bu ailə kolxozun və ya sovxozun idarə heyətində üstün mövqeyini qoruyub saxlayır.

Yaşlılar bir kənara, 90-cı illərdə 14-15 yaşı olan mənim yaşıdlarım da, “Mahmudun bağı”, “Mahmudun qozluğu”, “Mahmudun körpüsü” kimi ifadələri indinin özündə də yaxşı xatırlayırlar. Onu da qeyd edim ki, Mahmud Mustafa kişi ilə Sonanın tək övladı olub. Atası Mustafa gənc yaşlarında bağından dərdiyi Qızıl üzümü arabalarla Qalaya (Şuşaya) aparanda yolda – Şuşanın dolamalarında xain saldırı nəticəsində həlak olduğuna və anası sonra ailə qurmadığına görə bacısı-qardaşı olmayıb. Ancaq əmisi uşaqları olub. Bu bizə məlum olan ən uzaq keçmişdir. Ən yaxın

tarixdə isə, Mahmudun indi də sağ olan oğlu Quluş uzun illər kolxozda, sovxozda sürücü, artıq rəhmətə getmiş Şükür texnika üzrə mütəxəssis işləsə də, mənim babam – Mahmudun böyük oğlu Müseyib öz atasının torpaqlarında hökumətə məxsus iş yeri kimi fəhləliyin edib, halal zəhmətlə çörək pulunu qazanıb. Yəni, adı hökumətin olsa da, bütün ömrü boyu, son gününə qədər (1992-ci ilin payızı, üzüm yığılanda dünyasını dəyişib) torpaqda çalışıb. Əkin-biçinlə məşğul olub. Onun oğlu – mənim atam Mustafa gənc yaşlarında Bakıda özünə normal həyat şəraiti qurub yaşasa da (ötən əsrin 70-ci illərində Maştağa qəsəbə sovetinin deputatı olub), yenidən kəndə qayıdıb və o da 1993-cü ilin yayına qədər kənd təsərrüfatı ilə məşğul olub.

Məlum yenidənqurma məsələləri ortaya çıxanda Moskvada xüsusi dörd illik kurs keçib, dövlətdən 40 hektar torpaq icarəyə götürmüşdü. İcarədar kimi 20 hektarda xüsusi tezyetişən süfrə sortu üzüm, qalan 20 hektarda isə taxıl becərirdi. O da özündən əvvəlki, ata-babası kimi bütün ailə üzvlərini bu işlərə cəlb etmişdi. Bu təsərrüfata görə mən orta məktəbi bitirib ali məktəbə sənəd verəndə qiyabi təhsil formasını seçmişdim. Ən son 1992-ci ilin payızında mənim tək suvardığım taxıl sahəsini 1993-cü ilin yayında atam mərmi yağışları altında tək (o vaxt artıq bir-neçə dəfə yandırılmış Yusifcanlı kəndi boşaldılmışdı. Bu haqda “93-ün yayı və ya bir qaşıq qatıq” əsərində ətraflı yazılıb) biçib anbarlara təhvil verərək kənddən çıxmışdı. Hərbi xidmətdə olduğum ilk vaxtlarda (hələ kənd boşaldılmamışdı) evdən yanıma gələnlərdən ən son əkdiyim tinglərin vəziyyətini soruşurdum…

Bütün bunları yazmaqda yalnız bir məqsədim var. Son günə qədər torpaqla əlləşdik, çalışdıq… Qoyub çıxmağa məcbur olanda isə bu günə qədər də bir saatlıq da olsa ölkə sərhədlərini tərk etmədik. Mustafanın üç oğlu olsa da (1975, 1976, 1979 təvəllüd), 90-cı illərdə təxminən iki ilə yaxın zaman kəsiyi ərzində onlardan heç biri atasının yanda olub ən çətin dövrlərdə ona dolanışıq üçün

azacıq da olsa, yardım edə bilmədi. Çünki üçü də orduda idi. Əksinə, o, çətin vaxtlarda hər həftə birimizin yanına gəlirdi. Bu barədə maraqlı bir məqamı diqqətinizə çatdırım. 1994-cü ilin mart-aprel ayları idi. Düşmən cidd-cəhdlə Ağdamla Tərtər cəbhəsinin bitişdiyi yerdən – Təzəkənd, Qazyan-Qaynaq, Qırmızıkənd, Seyuslan, Qapanlı istiqamətindən Dördyola çıxmağa çalışırdı. Atəşkəsə az qalmış qızğın döyüşlərin getdiyi və yuxarıda qeyd etdiyim istiqamətdə ən çox gənc əsgərlərimizin şəhid olduğu vaxtlar idi. Təxminən 10-12 nəfərlə Qırmızıkəndlə Tərtər arası bir ərazidə (orada az müddətdə qaldığımız üçün hara olduğunu dəqiq bilmədim) düzənlik, açıqlıq ərazidə quru kanalın üstündə postda idik. Günəşin batan vaxt idi. Bir də gördük ki, qarşıdan – düşmən tərəfdən bizə doğru iki nəfər gəlir. Adamlar bizə yaxınlaşdıqca yanımdakı uşaqlara dedim ki, "ayə, onlardan biri bizim kəndçi Böyükkişi dayıya oxşayır" (Atam rəhmətə getsə də, Böyükkişi dayı sağdır, yəqin ki, o da bu hadisəni xatırlayar). Bir az da yaxınlaşanda isə dedim, "ayə, sənə o birisi də mənim atamdır…". Bu, çox uzun söhbət olsa da, ancaq onu xatırlatmaq kifayətdir ki, torpağın, vətənin keşiyində dayanan əsgər oğulların yanına əraziyə nabələdlik üzündən düşmən tərəfdən gələn atalar çox olub. Hətta yolu səhv salıb düşmən tərəfə keçənlər də olub… İndi hərə durub bir nağıl, dastan danışır. Biz bu günə qədər bütün qayda-qanunlara sayğı ilə, baş verənlərə səbirlə yanaşıb, yüksək dərəcədə dözümlülük göstərərək o günü gözləmişik – torpaqlarımıza qayıdacağımız günü… Aydın məsələdir ki, heç kim indi durub ata-babasının torpağını tələb edə bilməz. Qanunvericilikdə də belə bir hal nəzərdə tutulmayıb. Ancaq Ucarda, Şamaxıda, Qəbələdə və digər rayonlarda torpaq islahatarı keçrildiyi kimi, Ağdamda, Füzulidə, Cəbrayılda və digər işğaldan azad olunmuş rayonlarımızda da müasir dövrün tələblərinə cavab verən, cənab prezident İlham Əliyevin məsləhət bildiyi formada tədbirlər həyata keçrilməli, insanlar uzun illərdir həsrətində olduqları doğma torpaqlarına qovuşmalıdır…

Sizlərlə növbəti yazıların altında "Ağdam rayonu, Yusifcanlı kəndi" qeydi ilə quruculuq işlərindən bəhs edən məqalələrimlə görüşmək ümidi ilə:

*10.02.2020. BAKI.*

*QEYD:*

*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı "TƏƏSSÜRATLAR" və "QƏLƏMDAR – 2" kitablarında OTUZ BİRİNCİ yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:*

1. *"Qarabağda torpaq islahatları vacibdir, ...", "Təzadlar" qəzeti, 16.02.2021, say: 06 (2291), s. 11.*

**PDF>>>ZAUR USTAC – "BB" HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

**ƏLİ BƏYİN "HƏRBİ ZƏNGİLAN"INA SƏYAHƏT VƏ YA AZƏRBAYCANIN "HƏRB VƏ SÜLH"Ü**

***OTUZ İKİNCİ YAZI***

Dəyərli oxucunu salamlayaraq, yenidən görüşmək imkanını bizə nəsib etdiyinə görə Ulu Tanrıya şükürlər edirəm.

Bugünkü söhbətimizin mövzusu müasir Azərbaycan ədəbiyyatıdır. İmzası son iyirmi ildə ciddi yazılara maraq göstərən geniş oxucu auditoriyasına yaxşı bəlli olan Əli bəy Azərinin "Hərbi Zəngilan" əsəri barədə təəssüratlarımı sizinlə bölüşməyə çalışacağam.

Yeri gəlmişkən, nəzərinizə çatdırım ki, bu sətirlərin müəllifinin qələmindən çıxmış məqalələrdən biri "Hərb mövzulu yazılar…" – on yeddinci yazı adlanır.

İndi isə keçək mətləbə. Əsəri ilə tanışlıqdan əvvəl Əli bəy Azərinin özü barəsində məlumatlara nəzər salaq.

QISA ARAYIŞ. . *Əli bəy AZƏRİ* (Əli Qurban oğlu Rzaquliyev) 15 iyul 1966-cı ildə Azərbaycanın füsunkar bölgələrindən olan Zəngilan rayonunun Vejnəli kəndində dünyaya göz açıb. Məhəmməd Füzuli adına fizika-riyaziyyat təmayüllü Ordubad şəhər internat məktəbi bitirib. Ali təhsilini Ukraynanın Xarkov şəhərində alıb.

O, 1984–2002-ci illərdə hərbi xidmətdə olub. Vətən torpaqlarının müdafiəsi uğrunda döyüşlərdə iştirak edib, hərbi əməliyyatların təşkilatçısı və rəhbəri olub. Tank və motoatıcı taborlara komandirlik edib, motoatıcı briqada komandirinin müavini vəzifəsinədək yüksəlib. Təqaüdə "mayor" rütbəsində çıxıb. Müharibə veteranıdır.

Yaradıcılığa çox erkən yaşlarından başlayıb. Hərbi xidmətdən sonra həyatını bütünlüklə yaradıcılığa həsr edib. Dövri mətbuatda

300-dən çox məqaləsi dərc olunub. 11 kitabı çapdan çıxıb. Əsərləri almanaxlara daxil edilib. "Hərbi Zəngilan" roman-xronikası, "Arazgersdən keçən köç", "Qəmlibel müsibəti" adlı povestləri, onadək hekayəsi var.

Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. "Rəsmi Bakı" qəzetinin və "Xəzan" jurnalının baş redaktorudur. 2020-ci ildə yazıçılar üçün nəzərdə tutulmuş Prezident təqaüdünə layiq görülüb.

Biz müəllifdən tarixi mövzularda yeni-yeni dəyərli əsərlər gözləyirik.

HAŞİYƏ. *Burada yazını elektron variantda, yəni saytlardan oxuyanlar üçün müəllifin ƏLİ BƏY AZƏRİ – HEKAYƏ, ƏLİ BƏY AZƏRİ – QURD AĞZI olmaqla iki hekayəsi ilə tanış olmaq imkanı ərmağan edirəm.*

PARALELLƏR

Əli bəy Azərinin həyat və fəaliyyəti ilə tanış olduqda gördüm ki, biz çox az fərqlə eyni həyatı yaşamışıq. Belə ki, ikimiz də Azərbaycanın ərazi bütövlüyü uğrunda müharibənin iştirakçısı olmuşuq. Sovet ordusunun peşəkar, nümunəvi, tam hazırlıqlı zabiti Əli bəy savaş meydanına taborun qərargah rəisinin müavini vəzifəsində, baş leytenant rütbəsində atılmışdı. Mən isə döyüşlərə 18 yaşı yenicə tamam olmuş, universitet auditoriyasından çıxmış gənc əsgər kimi qatıldım…

O, özünün indi-indi nizama düşmüş həyatını, uzun illərdən sonra nəhayət ki, gerçəkləşdirməyə başladığı arzularını, qürbət eldə çətinliklə qazandıqlarını tərəddüd belə etmədən Vətən yolunda qurban verdi. Mən isə bir azərbaycanlı kimi özümdən soruşdum: "rayonu (Ağdam) müharibə meydanına çevrilmiş gənc Bakıda gün keçirə bilərmi?"

Əli bəy Azəri Füzuli–Zəngilan–Qubadlı cəbhəsində, Zaur Ustac

isə Ağdam-Tərtər-Goranboy cəbhəsində döyüşürdü.

Bunları “qismət”, “alın yazısı”, tale oxşarlığı adlandırmaq olar.

MƏZMUN

Beləliklə, “Hərbi Zəngilan”ın qısa məzmunu ilə tanış olaq. Bu əsər müəllifin “Könüllülər” və “Alay dövrü” adlı digər iki romanının da daxil olduğu trilogiyanın birinci hissəsidir. “Hərbi Zəngilan”da təsvir olunmuş hadisələr 1992-ci il iyun ayının birindən noyabr ayının 30-na qədərki qısa, ancaq hadisələrlə çox zəngin və ziddiyətli bir dövrü əhatə edir. Proseslər o qədər sürətlə cərəyan edir ki, zaman sanki bir çay kimi axıb gedir. Roman öz oxucusuna həmin günləri təkrar yaşadır. Bu əsər həm də gələcək nəsillərin real tarixlə tanış olmaları üçün gözəl bir imkandır.

Keçmişi bilməyənlər üçün gələcək həmişə qaranlıq olacaqdır. Kitabın 3-cü səhifəsinin 5-ci abzasında belə bir cümlə var : “…Roman-xronika, nəsrin, bəlkə də ən çətin formasıdır.” Onu da qeyd etmək istəyirəm ki, bu sətir müəllifin Müqəddimə əvəzi adlandırdığı hissədəndir. Əli bəy Azəri sözünə bədii əsər üçün müqəddimənin vacibliyi barədə qeydlərlə başlayır. İndi tanış olduğunuz bu yazı isə, əslində, əsərin kitabdan kənar müqəddiməsidir.

ƏSƏRİN DİLİ – MİLLİ BƏDİİLİK

Uzun müqəddimədən sonra əsərin dili barədə bir neçə kəlmə yazaq və bəhsimizi davam etdirək. Müəllif haqqında qısa arayışdan gördük ki, uşaqlıq vaxtından yazmaq həvəsi olsa da, taleyin hökmü onu tamam başqa bir səmtə yönəltmişdir. O, ədəbiyyat və tarix yaradan, lakin bunlarla heç bir əlaqəsi olmayan sənətə yiyələnmişdir. Filoloq deyil. Heç humanitar sahənin mütəxəssisi də deyil. Tam əksinə, dəqiq elmlərin, texniki sahənin adamı olan Əli bəy ixtisasca komandan-mühəndisdir. Görünür, məhz hərbçi olduğuna görə, Əli bəyin yazılarında ciddi

sistemlilik və dəqiqlik vardır. Bir məsələni də qeyd edək – o, ədəbiyyatçı olmasa da, dilimizin incəliklərindən, xüsusi ilə hadisələrin cərəyan etdiyi bölgələrə məxsus spesfik söz və ifadələrdən böyük ustalıqla istifadə etmişdir. Əsərin dilindəki bu xüsusiyyət həm də ona görə təqdirəlayiq və əhəmiyyətlidir ki, sözügedən bölgələrin insanları uzun müddətdir şəhərdə yaşadıqlarından spesifik söz və ifadələrin itirilməsi təhlükəsi yaranmışdır. Sadə xalq dilini yazılı ədəbiyyata gətirib belə söz və ifadələrə yeni həyat bəxş etdiyinə görə Əli bəyə təşəkkür düşür.

VƏTƏNPƏRVƏRLİK, TƏƏSSÜBKEŞLİK VƏ TARİX

Əsər gənc, enerjili, ən əsası isə düşmənə nifrət, Vətənə sonsuz bir məhəbbətlə alışıb-yanan baş leytenant Əli Rzaquliyevin Uzaq Şərqdən bir vaxtlar quzu otardığı, seyrindən doymadığı, 1988-ci ildən döyüş bölgəsinə çevrilmiş doğma yurduna qayıtması ilə başlanır. İlk hadisələr zəif və xaotikdir. İkinci fəsildə dinamiklik artır. “Hərbi Zəngilan”, yəni trilogiyanın birinci hissəsinin sonunda Zəngilan böyük dəyişikliklərin astanasındadır.

Hadisələr hərbi hissədə, hərbçilər arasında cərəyan edir. Əli bəy elə incəlikləri ustalıqla qələmə alıb ki, bunu hərbçi olmayan heç bir yazar edə bilməzdi. Təkcə müxtəlif situasiyaları, subardinasiya məsələlərini, qərargah mədəniyyətinə aid spesfik elementləri deyil, həm də qondarmaları böyük peşəkarlıqla təqdim etməyi bacarmışdır. Müəllif peşəkar hərbçi olduğuna, uşaqlığı kənddə keçdiyinə, zəngin söz ehtiyatına yiyələndiyinə görə belə faydalı, əhəmiyyətli, vacib bir əsəri ərsəyə gətirə bilmişdir.

Əsərdə yerli əhalinin hərbçilərə absurd münasibəti ilə rastlaşırıq. Məsələn, ikinci fəslin “Ölüm günü” bölməsində yenicə erməni atəşinə tuş gəlmiş kəndin sakinləri – arvadlar köməyə – haraya gələn hərbçilərə qarğış edirlər: “Sizi görüm qırılasınız. Vayınıza oturaq. Siz gələnədək …”. Müəllif burada həm maraqlı ifadə vasitələri şeçmiş, həm də bir eyhamla ara qarışanadək normal

qonşuluq münasibətlərinin olduğunu ortaya qoymuşdur. Yoxsa, arvadlar öz əsgərlərini niyə qarğısın ki?

“Nüvədi bölüyünün döyüş təyinatı” bölümündə təyinatla bağlı: “Lələnin öz əmridir…”.

“Qisas alınmalıydı” bölümündə idarəçilik barədə: “Salacaq şapalağın altına…”.

“Altı nömrəli ehtiyat möhür” bölümündə yerlibazlıqla bağlı: “Gürcüstanlı gəlib, Zəngilanda…” və s. maraqlı misallar var.

Satqınçılıq məsələsindən söhbət açılanda məlum olur ki, hamının bir nömrəli şübhəli şəxs hesab etdiyi Sona arvadın gəlini qərargahda makinaçı işləyir… Hər zaman olduğu kimi…

Bir maraqlı misala da nəzər salaq. Bu dəfə obyekt polisdir. Yeri gəlmişkən, bir nüansı diqqətinizə çatdırım. Makulunun “Səttarxan” əsərində göstərilir ki, jandarma işə düzəlmək üçün mütləq rüşvət vermək lazımdır. Bu yüz il əvvəl Güney Azərbaycanda baş vermiş hadisədir. Qeyd etmək lazımdır ki, SSRİ-də rüşvət və korrupsiya adi bir hal idi. “Hərbi Zəngilan” əsəri cəmiyyəti içindən məhv edən bu bəlaya da toxunur: “Cəbrayıldan gələn polis” bölməsində Azərbaycanın müstəqilliyinin ilk illərində Ukraynadakı düzənini pozub Vətənə xidmətə gəlmiş polis zabitinə Cəbrayıl rayon polis bölməsində açıq-aşkar deyilir ki, iyirmi beş min verməsən xeyri yoxdur…

Yerlibazlıq, yerliçilik adlandırdığımız murdar təzahürün əksi olan bir hiss də vardır. Onun adı yurdsevərlik, vətənpərvərlikdir.

Baş leytenant Əli Rzaquliyev Sovet Ordusu sıralarında qalsaydı, bəlkə də yüksələcək və daha firavan yaşayacaqdı. Ola bilsin ki, orada onun xidmətinə, işinə qiymət veriləcəkdi. Amma tarix “elə olmasaydı, belə olardı” fikrini qəbul etmir. Beləliklə, qəhrəmanımız Zəngilanı – doğulub boya-başa çatdığı yurdun

döyüşçüsü olmağı seçdi.

HAŞİYƏ. Baş leytenant Əli Rzaquliyev vətəninin, yurdunun fədakarıdır. O, əsl vətən oğullarının ümumiləşdirilmiş obrazıdır. Hər bir azərbaycanlı belə igidlərə dəyər verməyə borclu olduğunu dərk etməlidir. Çox heyiflər olsun ki, indinin özündə də bunu anlamayanlar, qiymətləndirməyənlər çoxdur.

Baş leytenant Rzaquliyev Silahlı Qüvvələrin Baş Qərargah rəisi general – leytenanat Bərşadlının qəbulunda olarkən ona başqa bölgələrdə, hətta Bakıda daha yüksək vəzifələr təklif edilir. Lakin o, Zəngilan deyib durur. Ağdamda yeni qurulacaq tank taboruna komandir vəzifəsi təklif olunur. Yenə də razılaşmır. Halbuki bu onun üçün daha perspektivli bir təyinat olardı. Yurdsevərlik onu çəkib Zəngilana gətirir.

1994-cü ilin fevralınadək "Tərtər batalyonu", "Bərdə batalyonu", bir neçə "Mingəçevir batalyonu", filan saylı tabor, "Qurtuluş batalyonu", "20 Yanvar batalyonu", adını unutduğum başqa bölgə batalyonlarının çox vaxt koordinasiya olunmayan fəaliyyəti böyük çətinliklər yaradırdı. Amma bu hərb sahəsindəki yeganə müşkülümüz deyildi. Təəssüf ki, bugünün özündə də problemlərimiz kifayət qədərdir. Yenicə müstəqilliyini elan etmiş kiçik bir respublika üçün belə hallar bəlkə də təbii idi. Ancaq indiki dövrdə, müasir təhdidlərin fonunda onlar yolverilməzdir.

Sözsüz ki, təhsildə, səhiyyədə, orduda, idarəetmədə mövcud olan problemlərin əksəriyyətinin kökündə cılızlıq, heyvani nəfs, cəhalət və özgə maraqlar dayanır.

## ƏSƏRİN ƏHƏMİYYƏTİ

Əli bəy Azəri "Hərbi Zəngilan" adını verdiyi bu romanı sanki o dövr Zəngilanını tarixdə yaşatmaq istəyi ilə qələmə almışdır. Uşaqlıqdan yadında qalan sözləri, unudulmuş ifadələri, az qala hər kolu, hər daşı xatırlatmaqla Zəngilanın bədii portretini böyük

ustalıqla yaratmışdır: Zəngilan təbii sərvətləri və spesifik resursları ilə fərqlənən qəribə coğrafi məkanda yerləşir. Naxçıvan yolunun üstündəki körpünün bir sütunu Ordubaddırsa, digəri Zəngilandır. Ölkədə iki qızıl yatağından biri Zəngilandadır. Dünyadakı iki Çinar meşəsindən biri – təbii artımına görə birincisi Zəngilandadır. Bu meşənin bazasında Bəsitçay Qoruğu yaradılıb. İran İslam Respublikası ilə sonuncu sərhəd zastavaları Zəngilandadır və həmin vaxt hələ də rus sərhədçilərinin bölgədə mövcudluğu əhalidə qəribə ikrah hissi oyadırdı. Ermənistanının iki – Naxçıvanla aramıza süngü kimi sancılan Megri və böyük sənaye rayonu sayılan Qafan rayonu ilə sərhəd zolağı 157 km idi ki, bu da o vaxt ən böyük təmas xətti sayılırdı. Zəngilan üzərində cəmlənmiş maraqlar ucbatından ölkənin ictimai-siyasi-hərbi mənzərəsi buradan daha aydın müşahidə olunurdu ki, bütün bu vacib məlumatları siyasətdən uzaq, Vətəninin sonsuz məhəbbətlə sevən, yurduna bağlı, adət-ənənəsinə sadiq, zəngin söz ehtiyatına malik hərbçi-yazar sözün əsl mənasında xüsusi bir məharətlə bugünkü oxucusuna çatdıra, gələcək nəsillərə ötürə bilmişdir.

Əli bəy Azəri qarşısına qoyduğu məqsədə nail olmuşdur. Onun “Hərbi Zəngilan”, “Könüllülər” və “Alay dövrü” adlı romanlardan ibarət trilogiyası Azərbaycanın “Hərb və Sülh”üdür!

Biz bu gün Makulunun “Səttarxan”ından, Məhəmməd Əsəd bəyin “Əli və Nino”sundan, Bayram Bayramovun “Karvan yolu”ndan necə faydalanırıqsa, gələcək nəsillər də Aqil Abbasın “Dolu”sundan, Fazil Güneyin “Qara qan”ından, Əli bəy Azərinin “Hərbi Zəngilan”ından, Qələndər Xaçınçaylının “Güllə işığında”n belə faydalanacaqlar. Gəlin bu siyahını zənginləşdirək. Gəlin Babək olaq, Azərbaycanımızı sevək… Nəsimi olaq, sözümüz yaşasın… Gəlin Şəhriyar olaq, səsimiz Arazın şırıltısında itib batmasın… Gəlin Vurğun olaq, gəlin Bəxtiyar olaq… Hacıbəylini, Zərdabini, Haqverdiyevi yaşadaq… Şah İsmayıldan, Nadir şahdan güc alaq… İlham kimi qətiyyətli olaq… Ziyaların, Ülvilərin əməyi

boşa çıxmasın…

And olsun, Qələmə ki, ondan güclü silah yoxdur!

04.04.2021 – Bakı.

QEYD: Sonda bir ricanı nəzərinizə çatdırım. Xahiş edirəm, yeni yazılmış hərb mövzulu əsərlər barədə məlumatları Votsap: (+994) 70-390-39-93 və ya *E-mail: zauryazar@mail.ru* vasitəsi ilə mənə bildirin. “Hərb mövzulu yazılar və ya dünyanın bir rəngi var” yazısından xəbərdar olan qələm adamlarına bildirmək istəyirəm ki, xeyli vaxtdır “Xaki üzərindəki qırmızı və ya qara qar” adlı hərb mövzulu yazılardan bəhs edən ikinci yazı üzərində işləyirəm. Əvvəllər az-çox təqdimatlarda yeni kitablardan xəbər tutmaq olurdu. Son illərdəki məlum məhdudiyyətlər səbəbindən bu imkan da aradan qalxıb. Bunu nəzərə almağınızı xahiş edirəm. Məhdud sayda nəşr olunub rəflərdə yatan hər kitabdan vaxtında xəbər tutmaq olmur. Bəlkə də o həqiqətən də çox dəyərli bir kitabdır.

*QEYD:*

*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı “TƏƏSSÜRATLAR” və “QƏLƏMDAR – 2” kitablarında OTUZ İKİNCİ yazı kimi müstəqil məqalə şəklində yer almışdır.*

Məqalə eyni zamanda Əli bəy Azəri haqqında olan “Mən və Siz” adlı kitaba daxil edilib.

**PDF>>>ZAUR USTAC – “BB” HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

**Belə bir kitab var–ARAZ ŞƏHRİLİNİN KİTABI…**

***OTUZ ÜÇÜNCÜ YAZI***

*(Sizin stolüstü kitabınız – vacib kitab)*

Salam olsun, çox dəyərli oxucum!

*Şükürlər olsun böyük Allahın ədalət və mərhəmətinə ki, gözəl bir səbəb, xeyirli bir məqsəd üçün yenidən görüşmək imkanını bizə tanıdı.*

Allahın salamı olsun Peyğəmbərə və onun pak Əhli-Beytinə. Bu şükrü-sənadan sonra ustad Bəhmənyara və Mahmud Kaşğariyə uca Allahdan rəhmət diləməyi özümə borc bilirəm. Ruhları şad olsun. İndi isə, istədiyi bəndəsinin üzünə bağlı qapıları taybatay açan rəhmli Allahın könüllərimizi aydınladan doxsan doqquz adı ilə keçək mətləbə.

Yurdumuzun dahi oğlu ustad Bəhmənyarı söhbətimizin girişində rəhmətlə anmağım səbəbsiz deyil. Bu adı hələ orta məktəb şagirdi olarkən eşitmişdim. Onun ömür yolu məndə heyrət, fəlsəfəsi isə valehlik hissləri doğururdu. Həyata baxışımın formalaşmasında Bəhmənyarın fikirlərinin çox böyük təsiri oldu. Anladım ki, dünya və onun kiçik bir zərrrəsi olan insan həyatı, əslində, müəyyən qanunauyğunluqlar əsasında baş verən daimi təkrarlardan ibarətdir. Onu da dərk etdim ki, bu dairəvi hərəkətə necə daxil oluruqsa, hansı istiqaməti əsas götürürüksə, sonrakı nəsillərə də elə bu tərzi, bu yönü miras qoyuruq. Beləliklə, əcdadlarımız bizim, biz isə övladlarımızın taleyində bəzən müsbət, bəzən isə mənfi rol oynayırıq. Bu hərəkətə müdaxilə edib onun xarakterini və səmtini dəyişmək də bəzən çox çətin, bəzən isə ümumiyyətlə qeyri-mümkün olur. “Divanu Luğət-it-Türk” (*ديوان لغات الترك* – ”Türk dilləri lüğəti” – türk dünyasının ilk ensiklopedik əsəri – XI əsrdə yaşamış böyük türk alimi Mahmud Kaşğari tərəfindən Bağdad şəhərində 1072–1074-cü illərdə yazılmış türkcə-ərəbcə

lüğətdir) əsərinin müəllifi Mahmud Kaşğarini anmağımızın səbəbinə gəlincə, bu barədə bir qədər sonra…




Yuxarıda təkrarlar məsələsinə əbəs yerə toxunmadım. Araz

Şəhrilinin “Səfəvilər: paralellər, ehtimallar, həqiqətlər…” əsəri haqqında məlumata ilk dəfə bax elə bu “TARİX TƏKRARLANIR” ifadəsinin sayəsində“Fədai” qəzetində rast gəldim. Sonralar yenə ara-sıra müəyyən suallar yarandıqda düzgün və ya həqiqətə daha yaxın hesab etdiyim cavabları tapdığım məqalələrdə adətən mənbə kimi Araz Şəhrilinin “Səfəvilər: paralellər, ehtimallar, həqiqətlər…” əsərindən ” qeydi nəzər-diqqətimi cəlb edirdi…

Əski əlifbanı orta məktəbin son siniflərində, o vaxtlar Elçin müəllimin sədrlik etdiyi “*Vətən*” *Cəmiyyətinin* orqanı olan “Odlar yurdu” qəzetindən müstəqil şəkildə öyrənmişəm. Buna görə də Elçin müəllimi müxtəlif təhsil müəssisələrində mənə dərs demiş müəllimlərimdən ayırmıram. Onlardan biri, bəlkə də birincisi hesab edirəm. Gözümü açıb dünyanı dərk edəndən ana babam Molla Mürşüdün namaz qıldığını, “Quran” oxuduğunu görmüşəm. Həftənin Cümə axşamı günlərində (bu günə “Adına günü”dədeyirdilər) aramsız olaraq, təkrar-təkrar “Yasin” surəsini qiraət edərdi. “Yaasiiiin” kəlməsindən sonra “Vəl Quranil – həkim…” ayəsinin gəlməsinə rəğmən babam və sonralar diqqət etdikdə gördüm ki, digər mollalar da arada “səlləllahu əleyhi və alihi və səlləm” deyirlər. Halbuki, kitabda bu cümlə yoxdur. Nə qədər ki, kəndimizin hüdudlarından kənara çıxmamışdım, sanırdım ki, dünyada bütün müsəlmanlar eyni qaydalara riayət edirlər. Axı dinimiz bir, kitabımız bir, imanımız birdirsə, fərqli nə isə ola bilər? Sonralar rastlaşdığım mübahisəli və eyni zamanda maraqlı məsələlərdən biri məhz “Yasin” surəsinin ilk ayəsinin oxunuşu zamanı yaranan məqam idi. Düşünürəm ki, onun ən yaxşı izahını Türküyə telekanallarının birində çıxış edən ilahiyyatçıdan eşitmişəm. Alim bildirdi ki, Həzrəti Peyğəmbərin adı çəkiləndə “*səlləllahu* əleyhi və alihi və səlləm” söylədiyimiz kimi, “Yasin” kəlməsini də deyəndə və ya onu eşidəndə “*səlləllahu* əleyhi və alihi və səlləm” duasını oxumalıyıq. Çünki “Yasin” Peyğəmbərin ləqəblərindən, ayamalarından biridir. İzah məni qane etsə də, bu

suala ən dolğun cavabı verən yazılı mənbə ilə çox-çox sonralar rastlaşdım. Necə düşünürsünüz? Bu, hansı kitabdır? Beləliklə, bir çox qaranlıq mətləblərin üzərinə işıq salan "Səfəvilər: paralellər, ehtimallar, həqiqətlər…" əsərindəki məlumata nəzər salaq: "Müqəddəs "Qurani-Kərim"in 36-cı surəsinin adı "Yasin"dir. 83 ayədən ibarət olan bu surəyə "Quran"ın qəlbi də deyilir. "Yasin" sözünün dəqiq mənası bəlli deyil. Bəzi təfsirçilər onun sadəcə ərəb dilindəki "ya" və "sin" hərflərindən ibarət olduğunu deyir, digərləri həmin surədəki "ya" və "sin" hərflərinin sayında müəyyən qanunauyğunluq axtarır, başqaları "ey insan" anlamı verdiyini ehtimal edirlər. Bir təfsirə görə, "Yasin" adı altında Muhəmməd Peyğəmbər nəzərdə tutulmuşdur. Qeyd etmək lazımdır ki, "Yasin" surəsinin 2–4-cü ayələrinin məzmunu da faktiki olaraq sonuncu fikri təsdiq edir." Bu cümlələri oxuduqdan sonra müxtəlif sahələri əhatə edən belə zəngin bir ensiklopedik kitabın daim yazı masamın üstündə, əlimin altında olmasını istədim. "Google" axtarış sisteminin köməyi ilə kiçik bir araşdırma apardıqdan sonra öyrəndim ki, şəhərimizin əsas kitab dükanlarında ("Libraff", "Azərkitab", "Kitabevim.az", "Baku book enter", "Akademkitab", "Akademiya kitab mərkəzi", "Book zone", "Kitabıstan" və s.) "Səfəvilər: paralellər, ehtimallar, həqiqətlər…" əsəri vardır. Mənə ən yaxın olan mağazanı seçdim və bu kitabdan iki ədəd aldım. Birini özümə, birini isə ad gününü təbrik edəcəyim dostuma. Əsl dosta layiq hədiyyədir bu kitab. Xüsusi kitabdır.

QISA ARAYIŞ. Araz Şəhrili (Abbasov) 1974–cü ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub. Əslən Zəngilan rayonunun Xurama kəndindəndir. Atası Əməkdar jurnalist, tanınmış ziyalı Ələkbər Şəhrilidir. Araz müəllim hazırda pedoqoji fəaliyyətlə və paralel olaraq yaradıcılıqla – araşdırmalarla məşğuldur. Dövri mətbuatda, ölkəmizin elmi-mədəni, ictimai-siyasi həyatında müəyyən bir fikrin formalaşmasında əhəmiyyətli rol oynayan müxtəlif kütləvi informasiya vasitələrində müntəzəm olaraq

çıxışlar edir. “Monqol yürüşlərinin əsl səbəbləri və Mövlanə Cəlaləddin Ruminin sirri”, “Qacarlar sülaləsinin süqutu hansı ölkənin xüsusi xidmət orqanının işi idi”, “Geosiyasət: ziddiyyətlər və xəyanətlər (vikinqlərin Azərbaycan üzərinə yürüşlərinin əsl səbəbləri)”, “Gürcüstan və Hindistan: düşündürücü faktlar”, “Nadir şah Əfşarın nəvələrinin izi ilə”, “Şeyx Heydərin son döyüşü”, “Şah İsmayılı göytürklərin xaqan nəsli və Çingiz xanla nələr birləşdirir”, “Makedoniyalı İsgəndər və Nadir şah Əfşar: tale oxşarlıqları”, “Qərblə Şərqin müqayisəsi və ya bugünkü problemlərin tarixi kökləri”, “Ermənilərin əsl vətəni haradır: Hindistan, yoxsa Efiopiya”, “Tarix təkrarlanır”, “Babil qülləsi: dillərin hamısının kökü eynidir”, “Babil qülləsi: Çingiz xan və seyidlər”, “Babil qülləsi: Çingiz xan hansı dildə danışırdı”, “Babil qülləsi: təkrarlanan şəxs adları”, “Novruz sirləri: Novruz sözünün əsl mənası”, “Novruz sirləri: qədim romalılar Novruz bayramından niyə imtina etdilər”, “Amerika hindularının mənşəyi: türk izi barəsində düşüncələr”, «Кем был Будда, спустя века обретший бессмертие» və onlarla digər maraqlı elmi məqalənin müəllifidir.  “Səfəvilər: paralellər, ehtimallar, həqiqətlər…” əsərinə görə Araz Şəhrili “Yazarlar” jurnalı tərəfindən yeni kitabların nəşri münasibətilə təqdim olunan “Ziyadar” Mükafatına layiq görülmüşdür.

Kitabdan çoxlu misal gətirib yazını uzatmaq istəmirəm. Bu işi sizin özünüzə həvalə edirəm. Kitabla tanışlığıma vəsilə olmuş, yuxarıda qeyd etdiyim misalla kifayətlənirəm. Siz sadəcə internetin müxtəlif axtarış sistemlərində, məsələn “Google”də  Araz Şəhrili və ya “Səfəvilər: paralellər, ehtimallar, həqiqətlər…” yazıb axtarışa verin. Əmin olun ki, nəticədən məmnun qalacaqsınız.

Sonda bir daha onu qeyd etmək istəyirəm ki, bu kitabı hər dəfə açanda Bəhmənyara, bağlayanda isə Mahmud Kaşğariyə rəhmət oxuyuram.

Araz Şəhrilinin "Səfəvilər: paralellər, ehtimallar, həqiqətlər…"adlı 352 səhifəlik kitabı bir neçə cilddən ibarət qalın-qalın ensiklopediyaları əvəz etmək iqtidarında olan, geniş oxucu kütləsi üçün nəzərdə tutulsa da, müxtəlif elm sahələrinin mütəxəssisləri, tələbələr, aspirantlar, doktorantlar, araşdırmaçı yazarlar tərəfindən istifadə edilə biləcək sözün əsl mənasında etibarlı və mötəbər mənbədir.

Araz Şəhrilinin "Səfəvilər: paralellər, ehtimallar, həqiqətlər…" kitabı müasirimiz tərəfindən dövrümüzdə yazılmış və Mahmud Kaşğarinin "Divanü Lüğat-it-Türk"ünə bərabər olan bir əsərdir.

Əziz dostlar, əminəm ki, necə mən yuxarıda adlarını qeyd etdiyim şəxsləri rəhmətlə anıram, eyni ilə siz də Araz Şəhrilinin "Səfəvilər: paralellər, ehtimallar, həqiqətlər…" kitabından hər dəfə maraqlı və qiymətli bir məlumat öyrənəndə məni xatırlayacaqsınız.

*Araz Şəhrili necə xoşbəxt müəllifdir ki, bu qədər xeyirli işlərə vəsilə olur.*

Öz adımdan və digər çoxsaylı oxucular adından Araz müəllimə təşəkkürlərimizi bildirir, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq!

*Uğurlarınız bol olsun, Araz müəllim!*

*10.04.2021 – Bakı.*

*QEYD:*

*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı "TƏƏSSÜRATLAR" və "QƏLƏMDAR – 2" kitablarında OTUZ ÜÇÜCÜ yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:*

1. *"Yazarlar" jurnalı, May 2021, say: 05 (05).*

**QRABAĞ AZƏRBAYCANDIR, AZƏRBAYCAN İSƏ, DÜNYAMIZ! OTUZ DÖRDÜNCÜ YAZI**

*DƏYƏRLİ ALİM QURBAN BAYRAMOVUN 75 İLLİYİNƏ*

Salam olsun, çox dəyərli oxucum! Bu kiçik yazımı dünyanı dərk eləməyə başladığım məkanı vəsf etməklə başlamaq istəyirəm ki, bu məsələnin söhbətimizə birbaşa dəxli var. 39°58″23″ şm. e. 47°03″08″ ş. u. nöqtəsi mənim üçün dünyanın mərkəzi olmaqla yanaşı, həm də dünyaya açılan bir pəncərə olub.

Elə bir pəncərə ki, elm deyiləndə ağlıma gələn iki şəxsdən biri evimdən üzü günbatana baxanda sağ qonşum Rafiq Əliyev (bu şəxsi hələ məktəbə getməzdən əvvəl anamdan eşitdiyim "dünyanın ən gənc alimi" kəlməsi ilə tanımışam), ikincisi isə sol qonşum Xudu Məmmədov (bu şəxsi isə özüm artıq məktəbə gedəndən sonra ötən əsrin səksəninci illərində buraxılmış "Azərbaycan" adlı kitabdan şəklini görüb tanımışam) olub. Ədəbiyyat kəlməsi eşidəndə "Marallarım"la dünyaya meydan oxuyan Əbdürrəhim bəy Haqverdiyevi, "Karvan yolu" ilə qəlbimə yol tapıb, "Cıdır düzü" ilə ruhuma hakim olmuş Bayram Bayramovu xatırlamamaq mümkün deyil. Musiqi, mədəniyyət və incəsənt sahəsində isə ad çəkməyə ehtiyac duymuram. Ağayana, bir az dikbaş və inadkar mərd oğullar vətəni Qarabağdadır bu məkan… Qarabağ Azərbaycandır, Azərbaycan isə bizim dünyamız. Bizlərə "Azərbaycan" adlı dünya bəxş etmiş, onu öz qələmi və şirin dili ilə dünyada tanıtmış bir dahi şəxs də var Səməd Vurğun… Azərbaycanı bizə və dünyaya tanıdan bu şəxsi bizlərə və cümlə-cahana tanıdan daha bir görkəmli şəxsiyyət, elm, ədəbiyyat fədaisi də var… O böyük insan dəyərli alimimiz, el ağsaqqalı Qurban Bayramovdur.

May ayının 30-u Qurban müəllimin ad günüdür! Bu il həm də onun 75 illik yubiley ilidir. Tam səmimi olaraq etiraf edirəm ki, 75 illiyi münasibəti ilə onun haqqında yazı yazmaq fikrim əvvəldən olmayıb. Özünə də demişdim ki, Allah qoysa, "hazırlaşım, 80-

də belə bir məzmunlu yazı yazacam, Allah hər ikimizə ömür versin…” Bu məqsədlə də “Yazarlar” jurnalının may-2021 sayında (“YAZARLAR” – MAY 2021 SAYI) rəhmətlik Qələndər Xaçınçaylının düz bir il əvvəldən yazıb hazır qoyduğu yazı ilə təbrik etmişdim Qurban müəllimi.




Ancaq iş elə gətirdi ki, yubiley tədbirləri çərçivəsində əvvəlcə onun nəşrə hazırladığımız “Vurğun poeziyası”, sonra isə “Lirik qəhrəman və zaman” kitablarını hərf-hərf diqqətlə oxumalı oldum. İşin gedişi ilə bağlı iki məqama diqqətinizi çəkmək istəyirəm. Əvvəllər də çox yerdə qeyd etmişəm, demişəm. İş-yazı masamın arxasına adətən sizlərin gecə dediyi, mənim isə yeni günün ilk anları kimi qəbul etdiyim vaxtda əyləşir və gün doğana qədər işləyirəm. Kitabların biri 100 səhifə, ikincisi isə 200 səhifə həcmində olmasına rəğmən, işləməyə də eyni vaxtlarda bağlamağıma baxmayaraq, hər ikisinin son sətirlərini sübh azanının sədaları altında oxuyub yekunlaşdırdım. Birinci gün birinci kitabda bunu təsadüf kimi qəbul etməyə çalışsam da, ikinci

gün həcmcə iki dəfə birinci ktabdan çox olan kitab da eyni vəziyyətdə bitəndə bunun təsadüf olmadığını qəbul etdim. Söz əhli, sadiq qələm adamları bu fikrimi yəqin ki, qəbul edərlər… Bir yandan Səməd Vurğun fəğanı, bir yanda onu bizlərə anlatmağa çalışan Qurban Bayramovun diktəsi, digər yandan olduqca yaxından canlı eşidilən azan, quşların səsi, qəribə oyanış, sübh abu-havası… Bütün bunların təsirindən, bir az da soyuq sübh mehinin rolu olmuş olacaq ki, adam özü-özündən üşənir, qolunda tükləri elektriklənir, başında “vız duran” təkəm-seyrək saçlarında Lev Tolstoyun sığalını hiss edirsən… Özü şəxsən canlı-canlı deyir, yaz bala, yaz, bu adam Allah adamıdır… Allahın sevimli bəndəsidir… Yaz… Oxu…

Onu qeyd edim ki, Qurban Bayramovun hələ ötən əsrin 70-80-ci illərində kiril əlifbası ilə nəşr olunmuş, dahi Azərbaycan şairi Səməd Vurğunun yaradıcılığından bəhs edən “Vurğun poeziyası” (1976),

kitabları yubiley tədbirləri çərçivəsində latın qrafikalı müasir Azərbaycan əlifbası ilə çap edilib. Bu kitabların elektron variantı bütün oxucular üçün əlçatandır. Bunun üçün müxtəlif axtarış sistemlərində (məsələn, bu, “Google” ola bilər) kitabların və müəllifin adını yazaraq axtarış vermək kifayətdir.

Ədəbiyyatşünas alim, tənqidçi Qurban Bayramov “Vurğun poeziyası” adlı kitabının işıq üzü görməsi münasibəti ilə “Yazarlar” jurnalı tərəfindən “Ziyadar” Mükafatına layiq görülüb.

Sonda bu yazının ilk sözündən bura qədər yazdığım kəlmələri bir-bir yenə ruhumun süzgəcindən keçirərək bu qənatə gəlirəm ki, vallah, dost-doğru həqiqət elə bundan ibarətdir; Qarabağ Azərbaycandır, Azərbaycansa bizim dünyamız… Bu dünyanı bizlərə hərf-hərf, söz-söz anlatmağa çalışan, anlada bilmədiklərini gördükdə isə bəlkə gələcəkdə kimsə anlayar düşüncəsi ilə adını ədəbiyyat qoyub tarix yazan kişilərə Allah qəni-qəni rəhmət

eləsin… Cabir Novruza rəhmət oxumadan bu yazını sonlandırmaq böyük qəbahət olardı:

Sağlığında qiymət verin insanlara,
Yaxşılara sağ olanda yaxşı deyin,
Sağlığında yaman deyin yamanlara…

Ruhu şad olsun böyük şairimizin…

Bütün bu sadaladıqlarımı bizə xatırladan, ilmə-ilmə ruhumuza hopduran Qurban müəllim, ad gününüz mübarək olsun! Bu yazını, başda Rəşad Məcid olmaqla, qələmli və qələmsiz yazan bütün yazarlarımızın adından yazmağı özümə borc bildim. Bilirəm ki, hamısı Sizi çox sevir… Bu şad gününüzə sevinir… 80 illikdə də yazmağı söz vermişəm, o, öz yerində…

Allah Sizə uzun və sağlıqlı bir ömür nəsib etsin, Qurban müəllim! Yazın, yaradın, biz də oxuyub öyrənək…

QEYD:
Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı "TƏƏSSÜRATLAR" və "QƏLƏMDAR – 2" kitablarında OTUZ DÖRDÜNCÜ yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunub:

1. "Qarabağ Azərbaycandır, Azərbaycan isə dünyamız! DƏYƏRLİ ALİM QURBAN BAYRAMOVUN 75 İLLİYİNƏ" Yubiley təbriki, "525-ci qəzet", 27.05.2021, say: 92 (5658), s.13.
**PDF>>>ZAUR USTAC – "BB" HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

## “MƏN EŞQ ATƏŞİYƏM” - VAHİD ÇƏMƏNLİ OTUZ BEŞİNCİ YAZI

*(Vahid Çəmənlinin 65 yaşına)*

Salam olsun! İlk öncə onu xatırladım ki, bu mənim artıq Vahid Çəmənlinin söz dünyasına ikinci belə səyahətimdir. Eyni zamanda demək olar ki, artıq uzun illərdir hər gün olmasa da ən azı həftədə bir-birimizin yeni bir şeirini, yazısını oxuyuruq. Hacı Vahidin “Bu yay da belə keçdi” kitabı haqqında yazdığım yazını (02.08.2018. Ön söz.) əbəs yerə xatırlatmadım. Həmən yazını “... Sənin bu söz ağacının ən hündür budağının lap ucunda bir zəfər nəğməsinin tumurcuğu tutsun, İnşəAllah...” belə bir arzu, istək, Böyük Allahdan təvəqqe ilə yekunlaşdırmışdım. Biz gec-tez bu arzuların reallaşacağına inanırdıq. Bizi yaşadan elə bu ümid dolu həyata, dünyaya baxış idi. Bütün bu hiss-həyacanın təsirləri də qələmimizə yansıyır, bizi gah kövrəldir, gah da sevindirirdi...

QISA ARAYIŞ

Hacı Vahid Çəmənli – Vahid Valeh oğlu Qasımov 27 iyun 1965 – ci ildə Azərbaycan Respublikası, Ağdam rayonunun Çəmənli kəndində anadan olmuşdur. “Dəli Çəmənli”, “Nə ömürdü yaşadım”, “Hər şey yaxşıya doğru”, “Bu yay da belə keçdi” ... kitablarının müəllifidir. “Mən eşq atəşiyəm” adlı haqqında söhbət açdığımız bu kitab şairin özündən əvvəlki kitablarından hər cəhətdən fərqlənir.

Qeyd etdiyim kimi şairin “Bu yay da belə keçdi” kitabı haqqında 2018-ci ildə yazmışdım. Artıq üstündən zaman baxımından üç ilə yaxın vaxt keçib. Bu 3 il tarix səhnəsində qısa zaman kəsiyi olsa da, ötən vaxt ərzində çox böyük dəyişikliklər baş verdi. Ozan dili yüyürək olar deyirlər. Arzularımız çin, niyyətlərimiz hasil oldu... Şairin söz ağacının ən hündür budağının lap ucunda bir zəfər nəğməsinin tumurcuğu tutdu. Çiçək açdı. Bar verdi... Uzun illər Vətən, doğma yurd həsrəti ilə qovrulan, nisgilini, arzusunu ağ kağızlara köçürüb kitab edərək “Bu yaz da gələ bilmədik”, “Bu yaya da belə keçdi” deyən, yazan Hacı Vahid Çəmənli nəhayət

“Biz gəlirik” barədə düşünməyə başladı... Onun söz bağçasına nəhayət Bahar gəldi. Bu baharın gəlişi Miladi ilə qanlı-qadalı 2020 (2+2=4, ölüm + ölüm = zəfər) – dən sonra, 2021-ci ilə təsadüf etdi. Hansı ki, hal-hazırda bu keşməkeşli mövsümü yaşayırıq...




Belə bir dövrdə Hacı Vahid yeni bir kitabla oxucuların görüşünə tələsir. Əvvəlki kitablarda zəmanədən şikayətçi olan şair bu dəfə yeni kitabını şövqlə “Mən eşq atəşiyəm” deyə adlandırıb. Elə oxucu ilə ilk qarşılaşmasındaca inamla;

Bu, eşq atəşidir, sönən yeri yox,
Ayrılan yolların dönən yeri yox.
Elə öyrənmişəm mavi göylərə,
Ruhumun torpağa enən yeri yox...

deyən şair şanlı zəfərdən ruhlandığını, bihuş olub mavi səmanın ənginliklərinə daldığını, nə olur-olsun bir daha enməyəcəyini vurğulayır.

Və ya

Gəldin, yenə gördük gülər üzünü,

Əlləri xonçalı, gözü nəm Bahar.
Qocaman yurdumun övladlarını
Tonqalın başında etdin cəm Bahar.

həmən ardınca, demək olar ki, büllür çil-çıraqlı göz qamaşdıran söz sarayının elə dəhlizindəcə şəhidlərimizin qanı bahasına əldə olunmuş qələbəni xatırladır... Bu bahardakı birliyi, vəhdəti tərənnüm edir.

Həqiqətən həddindən artıq sevincək görünən şair elə dəhlizdəcə ürəyini boşaltmaq, dilində nə var demək acələsi ilə;

Gəlişin çox ağır zamana düşdü,
Ömrümüz naqafil dumana düşdü.
Vahidin ürəyi gümana düşdü,
Sevinci bir azca oldu kəm, Bahar!..

sanki, “Bu yay da belə keçdi” kitabı haqqında 2018-ci ildə bəndəniz tərəfindən qeyd olunmuş “...bu xəmir hələ çox su aparacaq...” fikrini xatırlayır və bu fikri oxucusu ilə bölüşməyə tələsir. Təəssüf hissi keçirir.

Ancaq,

Vahid, sözlərini nizama düz çək,
Tikanın üstündə bitsin gül-çiçək...
Ayıq ol, deməsin hər ağzıgöyçək,
Şirini qatırsan şora yazırsan.

qeydi ilə söhbətinə çəki-düzən verən şair, ağır təbəddülatlı günləri, qapalı karantin günlərini, dost-tanışı bir-bir yada salıb xatırlayır. Gələcəyin ümidverici olduğuna, ən azından bu ilin bu gününün ötən ilin bu gönündən çox fərqləndiyini inamla, qürurla, fəxrlə oxucu ilə bölüşür. Hardasa qəlbin bir küncündə azacıq kədər gizlənsə də şairin gələcəyə ümidi böyükdür. Burada onu da qeyd etmək istəyirəm ki, Hacı Vahid Çəmənli sözünü bu imid işartısı, gələcəyə inam heç vaxt tərk etməyib. Məsələn hələ onunillər əvvəl işıq üzü görmüş kitablarından biri yuxarıda qeyd etdiyim kimi “Hər şey yaxşıya doğru” adlanır. Vahid Çəımənli yaradıcılığı

həmişə (ən azı mən tanış olandan) haqqa söykənib, gələcəyə ümidlə baxıb. İndi isə demək olar ki, şair sevincinin pik nöqtəsindədir;

Mən bir od parçası,
Sən bir ovuc su,
Töküldün üstümə, cızdağım çıxdı.
Olanım, qalanım bir can qorxusu,
O da sönüb getdi, gözdağım çıxdı.

İçi boş olanda güyüm səs edər,
Ürək güyüm deyil səs sala, gülüm.
Odu söndürməyə suyun bəs edər,
Qorxmursan, ürəyin boşala, gülüm?

Soyuq ilan kimi sarılar sənə,
Qalan təpərin də candan tez çıxar...
Mən eşq atəşiyəm,-
Sönsəm də, yenə
Külümün altından təzə köz çıxar.

deyən şair, artıq bütün çətinliklərin, ağrı-acının arxada qaldığına inanır və bunu oxucusuna çatdırmağa, onu da inandırmağa çalışır.

Bu kitabda toplanmış şeirlər də Hacı Vahid Çəmənli yaradıcılığına xas olan hər yerdən, hər şeydən söhbət açmaq xüsusiyyəti ilə yükümlü olsa da, artıq hiss olunr ki, söhbətin mövzusunun nə olmasından asılı olmayaraq şair hər dəfə keçənə şükür edir, gələcəyə isə ümidlə baxır. Ürəyində sönməyən eşq atəşi olan şair yazıb-yaratmaq eşqi ilə yanıb, tutuşur. Dilinə gətirmək istəmədiyi kiçicik bir incikliyi, narazılığı qəlbinin dərinliklərinə gömərək, sanki belə bir şey yoxmuş tək davranır. Uğurdan, xoş gələcəkdən söhbət açır.

Söhbətimin əvvəlində qeyd etdiyim kimi, Hacı Vahid Çəmənli özü də, sözü də mənə yaxın, doğma olan bir şəxsdir. Yəni sözün əsl mənasında bu kişini filan vaxtdan tanıyıram demək mümmkün

deyil. Biz elə bir-birimizi söz yaranandan tanımışq ki, bunu da hər hansı bir zaman, məkan çərçivəsində məhdudlaşdırmaq mümkün deyil.

Qələm dostum, söz sirdaşım Hacı Vahid Çəmənliyə özünün arzuladığı, şeirlərində vəsf edib oxucusuna təlqin etdiyi o xoş günləri görməyi arzu edirəm. Hacı, yuxarıda qeyd etdiyim məlum yazının sonunda “... Sənin bu söz ağacının ən hündür budağının lap ucunda bir zəfər nəğməsinin tumurcuğu tutsun, İnşəAllah...” deyə arzu etdik, niyyət tutduq çin çıxdı. İnşəAllah bu çiçəklər bar tutar, barın dərərsən, bizlərlə bölüşərsən! İnşəAllah. Uğurlarınız bol olsun!!!

Sona qədər həmsöhbət olduğunuza görə təşəkkür edir və sizləri əsl söz ziyafətinə dəvət edirəm. Hacı Vahid Çəmənlinin “Mən eşq atəşiyəm” deyə adlandırığı ziyafətə.

06.06.2021. – Bakı.

QEYD:
Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı Vahid Çəmənlinin özünün şeirlərdən ibarət müəllif kitabında ön söz olaraq, “TƏƏSSÜRATLAR ”və “QƏLƏMDAR – 2” kitablarında OTUZ BEŞİNCİ yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:

1. Zaur Ustac – “Mən eşq atəşiyəm”(Vahid Çəmənlinin 65 yaşına), “Xəzan” jurnalı N 3 (34) İyun-İyul 2021-ci il s.48-49.

**PDF>>>ZAUR USTAC – “BB” HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**



# TƏƏSSÜRATLAR

## (ikinci kitab)



## NURANƏ RAFAİLQIZI SÖZÜNÜN NURU

## OTUZ ALTINCI YAZI

*(Fazilova (Rəhimova) Nuranə Rafail qızı yaradıcılığı haqqında)*

Salam olsun, çox dəyərli oxucum. Şükürlər olsun Böyük Allaha ki, sizlərlə daha bir görüş payı qismətimiz oldu. Söhbətimizin əsas qayəsi, məqsəd-məramı ədəbiyyat üfiqlərində yenicə parlamağa başlayan, ziyasından həm danın sökülməsini, həm də qürubun bitməsini gözləyənlərin eyni dərəcədə nur alıb, hənirtisinə isinə biləcəkləri ziyadarı sizlərə təqdim etməkdir. Lakin söhbətə başlamazdan əvvəl bir məsələyə toxunmağı özümə borc bildim. Əslində bu yeni məsələ deyil. “Yazarlar və yazılar”, “Təranə Məmmədin Toru”, “Çağdaş örnək yazarlar” və digər yazılarımda, ümumiyyətlə ədəbiyyatdan, müasir yazarlardan söhbət düşən məclislərin çoxunda bu barədə söhbət etməyi daim özümə borc bilmişəm. İndi də əsas məsələyə, yəni Nuranə Rafailqızının təqdimatına keçməzdən əvvəl bu məsələyə qısa münasibət bildirmək istəyirəm. Hal-hazırda tanıdığımız söz adamlarını iki müxtəlif baxış bucağından qısa dəyərləndirsək, belə bir mənzərə ilə rasatlaşırıq. Müasirimiz olan, artıq kifayət qədər ölkə və hətta onun hüdudlarından kənarda kifayət qədər tanınmış yaşlı nəslin nümayəndələri. Müstəqillik dövrümüzün ilk illərindən tanınmağa başlayanlar və artıq tanınmışlar. Hələ sovet dövründən yazmağa başlayanlar və müstəqillik dövründə onlara qoşulmuş gənclər də daxil olmaqla bir qrup yazarlar da var ki, onların yazdıqlarının keyfiyyətindən asılı olmayaraq tanınmayanlar və ya olduqca məhdud çərçivədə tanınanlar. Bu məsələnin bir tərəfi. Məsələnin ikinci maraqlı tərəfi məhz bu təbəqələşmənin formalaşmasında mühüm rol oynayır. Yuxarıda üç qrupda təsnifatlaşdırdığımız yazarları indi ümumilikdə iki əsas qrupa bölə bilərik. Birinci ədəbiyyatçılar, yazarlar, ən azı mətbuatla az-çox əlaqəsi olan şəxslər arasında, yetkin ədəbi mühitdə formalaşan qələm adamları, ikinci isə ədəbiyyatla heç bir əlaqəsi, heç filoloji təhsili

də olmayan, heç bir ədəbi əhatəsi olmayan, olduqca müxtəlif peşə sahiblərindən ibarət yazarlar qrupu. Onların nə, hansı keyfiyyətdə yazmağından asılı olmayaraq bu iki mühüm amil yazarlarımızın yaradıcılığına əhəmiyyətli dərəcədə öz təsirini göstərir. Bu yazının üzdə görünməyib, özülündə dayanan əsas məqsədi məhz bu təsiri azaltmağa xidmət etməkdən ibarətdir. Çünki, sizlərə təqdim edəcəyim çox istedadlı qələm adamı, söz mucidi, sözlərlə zərgər dəqiqliyi, cərrah həssaslığı ilə davranan Nuranə Rafailqızı da ixtisasca həkim olmasaına baxmayaraq, artıq müəyyən bir auditoriyaya sahib şair kimi tanınmağa başlayıb. Onun yaradıcılığına keçməzdən əvvəl istərdim ki, həyat yoluna qısa bir nəzər salaq.

QISA ARAYIŞ:

Fazilova (Rəhimova) Nuranə Rafail qızı 1981-ci ildə Göyçay rayonunda dünyaya göz açmışdır. Orta məktəbi burda bitirdikdən sonra , Odlar Yurdu Universitetinin “müalicə işi” fakültəsinə qəbul olmuşdur.2007-ci ildən ixtisası üzrə Göyçay Rayon Mərkəzi Xəstəxanasında həkim vəzifəsində çalışır.

Ədəbi fəaliyyətə hələ uşaq yaşlarından başlayaraq, tez-tez rayon və məktəb tədbirlərində öz şeirləri ilə çıxış etmişdir. Şeirləri mütəmadi olaraq Nuranə Rafailqızı təxəllüslüyə “Milliyyət” qəzeti, “Herba-flora”, “Yazarlar” jurnallarında işıq üzü görmüşdür. 2016-cı ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkil etdiyi “Kiçik yaşlı uşaqlar üçün nəsr, nəzm və dram əsərləri” müsabiqəsində 4-cü yerə layiq görülmüş, qalib əsərlərin yer aldığı kitabda 18 şeiri çap olunmuş, məktəb kitabxanalarına paylanmışdır. 2018-ci ildə Göyçay rayonunda təşkil olunmuş “Beynəlxalq Nar Festivalında” nara həsr olunmuş şeir müsbiqəsində “Göyçayın narı” şeiri ilə iştirak etmiş, 3-cü yerlə mükafatlandırılmışdır. 2021 -ci ildə çapa hazırlanmış ”Həkimlərin söz dünyası” kitabında 10 şeiri ilə həmkarları arasında yer almışdır.




2021-ci ildə “Gəlirik Qarabağ” poeziya antologiyası kitabında 13 şeir və “Kimlərə qaldı dünya”, “Nizami Gəncəvi – 880” antologiyasında 15 şeiri dərc olunmuşdur. “Həyat bizi

səsləıyir"  anologiyasında yer almışdır. 15.04.2021 tarixində Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı tərəfindən "Qızıl qələm" media mükafatı laureatı olmuşdur. Nuranə Rafailqızı eyni zamanda KİV  tərəfindən "Fəxri şair" diplomuna layiq görülüb.

Yuxarıda sadaladığım obyektiv və subyektiv səbəblərdən qaynaqlanaraq yaranan təqəqələşmə və qruplaşmaların aradan qaldırılmasında, bu mümkün olmasa belə ən azından nəticələrin xəfifləşdirilməsinə öz töhfəsini verə biləcək yeganə vasitə təmənnasız, heç bir əlavə məqsəd güdməyən, ilham mənbəyi, qaynağı söz olan ədəbi tənqid ola bilər…

Keçək əsas məsələyə. Kimdir?  Nədən yazır, Nuranə Rafailqızı? Şair haqqında qısa arayışdan da görürük ki, Cəmiyyətdə formalaşmış və ya bilərəkdən bu cür təqdim olunan  "əlində bir peşəsi olmayan şairlikdən yapışır" fikrinin əksinə olaraq görürük ki, Nuranə xanım ən vacib və belə demək mümkünsə prestijli peşələrdən birinin sahibi – həkimdir. Günümüzün reallıqlarına baxsaq "başını qaşımağa vaxtı yoxdur…", ancaq şeir yazmağa zaman ayıra bilir. Yəni əslində şeir özünü yazdıraraq, həkimin vaxtını alır. Onu yorğun iş saatlarından sonra gecələri də yatmağa qoymur, qəlbini sızladır, ruhunu titrədir, misra-misra doğulur, böyüyür, qayğı-diqqət tələb edir. Onu incidir, yorur… Səhifə-səhifə, kitab-kitab həkim olmuş adamı söz-söz, misra-misra şair edir. Bu taledən qaçmaq mümkündürmü?! Böyük qətiyyətlə və tam əminliklə bu suala belə cavab verirəm ki, xeyr, bu əsla mümkün deyil. Ruha hopmuş kəlmə-kəlmə şeir, bətnə damla olaraq düşmüş döl, kürəyə damcı-damcı dolmuş su kimidir. O, öz məqamında mütləq zühur etməlidir. Deməli, belə nəticəyə gəlirik ki, şeir yazmağın, şair olmağın bu həkim xanıma gətirdiyi bütün məhdudiyyətlər və məhrumiyyətlər müqabilində bəxş etdiyi yeganə mənfəət könül rahatlığı, ruh sakitliyidir. Sizcə bu əzab-əziyyətə dəyərmi? Əgər bu qədər müxtəlif peşə sahibləri özlərinin, ailələrinin ruzisini qazanaraq,       gündəlik keçimlərini

sağladıqları sənətləri ilə yanaşı ikinci ağır və məsuliyyətli bir işin altına girib əlavə öhdəliklər götürürlərsə,deməl,i burada bir hikmət var.

Nurənə Rafailqızının yazdıqlarına qısa bir nəzər yetirək. Məsələn, “Mənəm!” şeiri bax elə başlayır:

Bir ev var ki, uzaqlarda

hasarı yox, çəpəri yox.

Nə gələni, nə gedəni,

nə qalan bir nəfəri yox.

Bu günəşdən, bu səmadan,

bu həyatdan xəbəri yox

toz basmış, kifə bürünmüş

Bax,

həmən o otaq mənəm…

Bu misraları əbəs yerə seçmədim. Nuranə Rafailqızının özünü oxucusuna təqdim etdiyi “mən” bu nümunəyə qədər danışdığımız bütün məsələlərlə müəyyən dərəcədə bağlıdır. Bu misralarda müəllifin təqdim etdiyi “mən” ilk baxşda bir şəxslə bağlı görünsə də, əslində bu belə deyil. Bu “mən” diqqətsiz misra, dərc olunmamış şeir, tənha fərd, ucqar kənd, oxunmamış kitab, tikilməmiş ev, uzun illərdir yanmayan soba və s. və i.a. uzanaraq, sicilləmə bir siyahı yarada bilər.

Və ya digər bir misala nəzər salaq. “Bir az səssizlik, bir az sənsizlik” adlandırdığı şeirində Nuranə Rafailqızı yenə yuxarıda toxunduğumuz bütün məsələlərdən söhbət açır. Şairin ifadələrində

bu qədər dəqiq olması onun dəqiqlik və həssaslıq tələb edən peşəsindən qaynaqlandığını düşünmək olar. Ancaq yenə və yenə arzu, istəkləri nə qədər fərdiləşdirmək istəsək də onlar hamısı ümumidir. Yəni şair Nuranə Rafailqızının yazdıqlarını yalnız həkim Fazilova (Rəhimova) Nuranə Rafail qızını narahat edib, onun şəxsinə aid məsələlər kimi xarakterizə etmək böyük yalnışlıq olardı. Aşağıdakı arzu və istəklərin xalqın içərisindən çıxmış, hər gün onlarla ayrı-ayrı şəxslərlə ünsiyyətdə olub, istər-istəməz onların da dərdləri ilə yüklənən bir loğmanın, təbibin uca Yaradandan ümumi təvəqqesi kimi səslənir:

Bir stəkan çay istəyirəm,

yanında da limonu.

Bir qırıq qənd parçası,

bir kağız, bir qələm

cızmaqara edim onu…

Vəssalam,

mənə bu da yetər hələlik!

Gün batar, ay doğar,

bir az səssizlik, bir az sənsizlik…

Əgər şairin ” Bircə sən yoxsan dünyamda” adlı şeirinə diqqət yetirsək, “Bir az səssizlik, bir az sənsizlik” adlandırdığı şeirdəki fikirlərin davam etdiyini, sonsuz mənəvi ehtiacların ödənməsində bütün maddi aləmin gücsüz qaldığını görürük:

Hər şeyim var..

Başımı salmağa evim-ocağım,

Qısılıb yatmağa küncüm-bucağım.

Halal zəhmət ilə rahat çörəyim,

Bir kitab yazacaq odlu ürəyim.

Bircə sən yoxsan dünyamda,

Yalnız arzumdasan, yalnız xülyamda…

Hər şeyim var…

Qızılım, mirvarim, incim-sədəfim,

Əqidəm, imanım, yönüm, hədəfim.

Başımın üstündə duran Allahım,

Xoşbəxt gələcəyə gedən sabahım.

Bircə sən yoxsan dünyamda,

Elə ona görə də

            heç nə görünmür gözümə,

Bəzən, özüm də yad gəlirəm özümə…

Bircə sən yoxsan dünyamda,

Bircə sən yoxsan deyə

                        dağılır dünyam da…

Şair Nuranə Rafailqızının kim olub, nədən necə yazdığı aşağıdakı nümunələrə nəzər saldıqda daha aydın görnr. Dünyanı bürüyən pandemiya şəraitində həkimlərin fiziki, zehni və həmçinin də duyğu yükünun nə qədər artdığının şahidi oluruq. Bu yerdə qeyd edim ki, Nuranə xanım xəstəliyin aşkarlandığı ilk günlərdən

Ağdaş Pandemiya Mərkəzinə ezam olunaraq Covid -19 virusuna yoluxmuş xəstələrə stasionar həkim kimi yorulmadan xidmət edir.

Kimi cavan, kimi qoca,

kimi körpə qucağında.

Bir havanın həsrətində,

bir nəfəsin sorağında.

Gecələri sakit-səssiz

xəstəxana otağında

Sübhə kimi cırıldayan

bax həmən o,

yataq mənəm!

Bəli, məhz vəzifə borcunu yerinə yetirməkdən əlavə, sübhə kimi uyumayan, narahat xəstələrin yerinə özünü qoymaq, əsl vicdanlı həkim, duyarlı şair ürəyinin bariz nümünəsidi!…

Nuranə xanımın yaradıcılığina geniş nəzər salsaq onların arasında zaman-zaman, torpağına, yurduna bağlı vətəndaş:

Elə ki, mən boy atdım,

yeridim addım-addım,

Anam tutub əlimdən,

bu daşı, bu torpağı,

bu otu, bu yarpağı,

yaşadığım küçəni,

qızındığım ocağı

Göstərib Vətən deyib!

Övladına bağlı, qayğıkeş, Ana:

Böyü, boy at, adın-sanın

qoy yayılsın eldən-elə!

Sən doğmusan həyatıma,

dərdim yoxdu günü bu gün

ölsəm belə, ölsəm belə!

Bəzən  səs-küydən qaçıb tənhalığına sığınan qələm sahibi:

Bir stəkan çay istəyirəm,

yanında da limonu.

Bir qırıq qənd parçası,

bir kağız, bir qələm

cızmaqara  edim onu!

Vəssalam,

mənə bu da yetər hələlik!

Gün batar, ay doğar…

bir az səssizlik, bir az sənsizlik…

Hərdən həkim, hərdən  xəstə:

Ağzımızın ləzzəti yox,
dadı qaçıb, tamı qaçıb.
Dünyada adam qalmıyıb,
sonuncu adamı qaçıb!
Gecələr yuxum da qaçaq,
yorğan-döşək gəlir cana,
Elə hey dönüb, dururam
gözüm dikilir tavana.
Gündüzləri çalmaz qapım,
nə qonşum var, nə qonağım
Öz evimdə dəfn olmuşam,
daş məzarım, daş otağım…
Qurda-quşa ehtiyac yox,
öz içim özümü yeyir!
Mən deyirəm, kefim yoxdu!
Həkimlər, depresiya deyir…

Atasının itkisi ilə barışmayan övlad:

Bu ayrılıq uzun oldu, bitmədi…
Əzrayıla xəbər saldım, yetmədi!
Nə sən gəldin…Nə də qızın getmədi.

Səndən sonra…

Dost yolunda can qoyan, etibarlı dost:

Sədaqət örpəyi, etibar əyni,

Deyim, pozulmasın dostun eyni.

Baş qoyub gülməyə yarımınçiyni,

Ölməyə dostumun qucağı gözəl!

Dünyadan üz çevirib, Tanrıya üz tutan filosof:

Əzab çəkir içimdəki dəli ruh,

Biləmmirəm nə savabdı, nə günah?!

Aç göylərin qaş-qabağın biryolluq,

Bulud qoymur səni görüm, ay Allah!

Hərdən təbiət aşiqi:

Baxıb sərv boyuna, şux duruşuna,

Lap heyran olmuşam adi daşına.

Dumandan örpəyin atıb başına.

Mat qaldım dağların ismətinə mən!.

Hərdən də uşaq kimi saf, zərif bir qadın:

Mənə bir az nağıl danış,

bədheybətin sarayından.

Bəxtimə yaman az düşüb,

nənəmin noğul payından.

Yaxşıları xoşbəxt elə,

pisləri çək sonda dara!

Mən hələ də, uşaq kimi

inanıram nağıllara…

Duyğularım, istəklərim

darma-duman, qarma-qarış.

Başımı qoyum dizinə,

mənə bir az nağıl danış!..

obrazlarına rast gəlmək olar.

Biz işinin ustası peşəkar həkim, hər kəlməni bir-bir ruhunun süzgəcindən keçirən sevimli şair Nuranə Rafailqızının uzun və şərəfli bir yaradıcılıq yolunun başlanğıcında olduğuna, onun bir-birindən dəyərli sənət əsərləri ortaya qoyacağına inanırıq. Yəni onun bütün gələcəyi, həyatı, yaradıcılığı hələ qarşıdadır. Şübhəsiz ki, bu belədir.

Onu da qeyd edim ki, mən bu yazını "Kredo" qəzetinin növbəti sayı üçün yazarkən Nuranə Rafailqızının "Həkimlər depresiya deyir…" adlı ilk şeirlər kitabı artıq nəşr üçün hazırlanır. Kitab çap olunana qədər qəzetimizin növbəti saylarında Nuranə Rafailqızının qəlbləri riqqətə gətirən şeirlərindən bir neçəsini diqqətinizə təqdim edəcəyik. Nuranə xanıma yaradıcılığında və bütün digər fəaliyyətlərində uğurlar arzu edirik. Uğurlarınız bol olsun, Nuranə xanım! Sona qədər həmsöhbət olduğunuza görə təşəkkürlər! Sağ olun!

24.07.2021. – Bakı.

QEYD:
Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı “TƏƏSSÜRATLAR” və “QƏLƏMDAR – 2” kitablarında OTUZ ALTINCI yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:

1. Zaur Ustac – “Nuranə Rafailqızı sözünün nuru”, “Kredo” qəzeti, 28.07.2021, say: 27 (1057), s.13-16.
2. Zaur Ustac – “Nuranə Rafailqızının sözünün nuru”, “Xəzan” jurnalı N 5 (36) Oktyabr-Noyabr 2021-ci il s.102-105.

**PDF>>>ZAUR USTAC – “BB” HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

**SÖZ MÜLKÜMÜZÜN CƏNUB QÜTBÜ**
**OTUZ YEDDİNCİ YAZI**

*(Əsəd Cahangirin 55 illiynə)*

Bu məsələni Əsəd müəllimin özünə də, onun olmadığı məclislərdə də dəfələrlə demişəm. O mənim kitabdan, yəni yazılı mənbədən deyil, ekran-efirdən tanıdığım, söhbətindən nələrisə öyrəndiyim, zövq aldığım dörd şəxsdən biridir. Mənim maraq dairəmdə olan söz dünyasının dörd qütbü, cəhəti və ya dayağı varsa, onun biri Əsəd Cahangirin düşüncəsinin məhsulu, onun ruhunun süzgəcindən keçmiş söhbət – Əsəd Cahangir sözüdür.

Oxucunu maraqda qoymamaq üçün və eyni zamanda, Əsəd müəllimin özünə də bu barədə dəfələrlə dediyimə görə, digər qütblərdə daynan şəxsləri də burda qeyd etməyi özümə vacib bilirəm. Mənim özüm üçün qurduğum söz-söhbət dünyasının şimal qütbündə Akif Əli, şərqində Sayman Aruz, qərbində Hamlet İsaxanlı və cənubunda Əsəd Cahangir dayanır. Yəqin sizdə də belə sual yarandı ki, niyə məhz cənub? Əsəd müəllim özü də yarızarafat, yarıciddi bu sualı dəfələrlə verib: "Niyə məhz cənub"?

Qiyabi olaraq, ekrandakı söhbətlərindən tanımağa başladığım, sonra əyani olaraq canlı nitqini dinlədiyim, daha sonra yeri gəldikcə sosial şəbəkələr üzərindən, telefonla, müxtəlif tədbirlərdə, görüşlərdə canlı söhbətlərdə dostlaşdığım, nəhayətdə, söz-söhbət dünyamın bir qütbünü etibar etdiyim söz mülkünün cahangir əsədi Əsəd Cahangiri özüm tanıdığım kimi sizlərə təqdim etməyə, tanıtmağa, daha doğrusu, anlatmağa məhz bu sual üzərindən başalayacam.

Əsəd Cahangir öz qayğısız uşaqlığnı kənddə, qayğılı gənclik illərini isə şəhərdə keçirmiş, özü-özünün içində bişib, formalaşmış şəxsiyyətdir. Onun kənddə keçən uşaqlığı dünyanı lap təməlindən anlamağa, söz ehtiyatını ən aşağı məişət dili səviyyəsindən, uşaqların, qocaların dilindən toplamğa vəsilə

olmuşdur. O sanki silahı söz olan ordunun Generalı rütbəsinə bu orduya sıravi əsgər kimi qatılaraq savaşa-savaşa, qələbələr qazana-qazana müzəffər bir sərkərdə kimi gəlib çıxmışdır. Xahiş edirəm, şişirtməyə, əsassız tərifə yol verir deyə, şeytan sizi burda yanıltmasın. Həm indi, həm bütün söhbət boyu Əsəd Cahangirin dörd cəbhədən yalnız birinin komutanı olduğunu unutmayaq. Uşaqlığını onun gələcək fəaliyyəti üçün faydalı ola biləcək bir mühitdə keçirən Əsəd Cahangir, həyatın ikinci mühüm mərhələsini tamı-tamına napaleonsayağı keçirib desək, yanılmarıq. Gündəlik həyatdan baş çıxarmaq məcburiyyətində qalan, kitabların içində itib-batan gənclik…




Sizcə, bütün bunlar faydasız ola bilərdimi? Əlbəttə, xeyr! Əsəd Cahangir özü də bunu yaxşı bilirdi. Çünki istər fizika kimi dəqiq elmlərin qanunları, istər nənə-babaların nəsihətləri, istərsə də daim onu öz cazibəsində saxlayan – predmeti insan beyni, düşüncəsi

olan – real fəlsəfə bunu ona daim diktə edirdi. Gənc Əsəd hələ 18-21 yaşlarında dünyanı tam dərk edib, onun minimum, ən az sayda neçə bucaq ola biləcəyini anlamış və Herakl kimi çiyinlərini onun altına verə biləcək cəsarəti, gücü-qüvvəti özündə tapa bilmişdir ki, bu hər bir şəxsin həyatında mühüm, bəlkə də, ən vacib məqamlardan biridir.

İnsan zamanında həyatı anlamalı, onun mahiyyətini ən azı ilkin təəssüratlar şəklində olsa da, qəbul etməyi bacarmalıdır. Dünyanı, həyatı tam olaraq qəbul edə bilməyi sayəsində Əsəd Cahangir özünü cəmiyyətə tam, bütöv şəxsiyyət kimi təqdim etməyi bacarıb. Bu fikri burada kiməsə xoş olsun deyə deyil, məhz belə olduğu üçün, altını cızaraq qeyd edirəm. Məsələn, Əsəd Cahangir başqa birisi kimi, "…əşşi, beşgünlük dünyadır, öldün getdin, dünya bitdi…" düşüncəsinə sahib olsaydı, onun nə yaradıcılığı, nə də bir fərd olaraq şəxsiyyəti bu cür formalaşmazdı. Və bu gün biz başqa biriylə – Əsəd Cahangirlə deyil, sadəcə, Əsədov Əsəd Cahangir oğluyla müasir olardıq.

Mənim söz dünyamın cənub qütbünün himayəsini üstlənmiş Əsəd Cahangir bütün bunlardan, dünyanın gərdişindən halidir. Və o bunu hər kəlməbaşı oxucusuna, dinləyicisinə andırır, xatırladır…

Əsəd Cahangir mənim tanıdığım, qəbul etdiyim söz dünyasının cənubunda hər gün cilalanan, gündən-günə parlaqlığını artıran bir mayakdır. O bu söz dünyasında yolunu azanları, səmtini itirənləri sanki qiblənamə rolu oynayaraq doğru yola, düz istqamətə böyük ustalıqla yönəldir.

Bu yazını Əsəd Cahangirin 55 illik yubileyi münasibəti ilə qələmə alıram. 55-in özündə də bir hikmət var. Bu yaş tamlığın, vahidin, bütövlüyün, bərabərliyin simgəsidir. Əsəd Cahangir bu zirvəni fəth edərkən həm cəmiyyətin bir fərdi – insan, həm də ziyalısı, düşüncə adamı kimi tam formada olan şəxsiyyətdir. O şifahi, söz, ruh aləmində nə qədər idealistdirsə, yazılı, mətn, real həyatda o

qədər materialistdir. O çılğın olduğu qədər sakit və dərin düşünəndir.Mənim tanıdığım, sizlərə də tanıtmaq istədiyim 55 yaşlı Əsəd Cahangir budur.

Yeni yaşınız qutlu olsun, Əsəd müəllim. Böyük Allahdan sizə uzun və sağlıqlı ömür, bütün fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edirəm. Sözünüzə Nəsimi ucalığı, fikirlərinizə Bəhmənyar mütəhərrikliyi yoldaşlıq etsin İnşəAllah!

*QEYD:*
*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı “TƏƏSSÜRATLAR” və “QƏLƏMDAR – 2” kitablarında OTUZ YEDDİNCİ yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:*

1. Zaur Ustac – “Söz mülkümüzün Cənub qütbü”, “Bütöv Azərbaycan” qəzeti, 06.08.2021, say: 17 (408), s.8.

**PDF>>>ZAUR USTAC – “BB” HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

## SƏMA MUĞANNA – YENİ GÜNƏŞ
## OTUZ SƏKKİZİNCİ YAZI

*(Ağazadə Səma Elbrus qızı haqqında)*

Salam olsun, dəyərli oxucum! Bu görüşü bizə ərməğan etdiyinə görə Böyük Alaha şükürlər olsun! Sizlərlə yenidən həmsöhbət olmaq çox xoşdur! Bu dəfə söhbətimizin mövzusu əlinə yenicə qələm almasına baxmayaraq, artıq kifayət qədər uğura imza atmış gənc qələmdar barəsində olacaq. Haqqında söhbət açacağımız gənc yazar qısa müddət ərzində öz imzasını tanıtmağı bacarmış, ədəbi cameədə sözünü deməyə başlamışdır. Söhbətə başlamazdan əvvəl onu qeyd etmək istəyirəm ki, bu dəfə sizinlə bir az hüznlü, gərgin, amma bir o qədər də romantika dolu dünyaya səyahət edəcəyik. Bu dünyanın balaca fidanı xəzan olan yarpaqların arasında öz qələmini tapmış və ondan bərk-bərk yapışıb dikələrək, bu qələmin gücünə bələd olduğundan ona söykənib var gücü ilə, səsi gəldikcə, sözü yetdikcə; "…ey kor olmuş dünya, mən də varam" – deyə hayqırmaqdadır. O qələm onu çox fırtınalarla qarşılaşdırmış, o kiçik, məsum ürəyində od qalamışdı. Bu odun qor götürdüyü ocaq bəşəriyyətin söz məbədinin müqədəsliyinə müqədəslik qatan piraninin piridir. Bu od hərdən sönsə də, hər dəfəsində yenidən daha güclü alovlanmışdır. Alovlanmış və daha da gurlanaraq sönməmiş, əksinə parlaqlığını artırmışdır. Bu od o ocaqdan rişələnib ki, çoxlarımız qiyabi də olsa bu barədə məlumatlıyıq. Bu od o ocaqda, o məbəddə alovlanır ki, onun nə vaxtsa sönməsini heç birimiz istəmərik. Əksinə bu yazını oxuyandan sonra çoxunuz mənimlə razılaşacaqsınız ki, hamımız bu ocağın qorunu, alovunu mühafizə etməli, onu qorumalı daha da gur alovlanmasına, zülmət dünyamızı işıqlandırmasına, soyuq dünyamızı isitməsinə kömək olmalıyıq. İndi sizi bu müqəddəs məbədin ocaqdarı ilə tanış etməyin vaxtı çatmışdır. Bu müqəddəs məbədin indi-indi alovlanmağa başlayan qoru, bu qoca çinarın yeni pöhrəsi, fidan balamız, gənc yazar, dahi söz ustadı İsa

Muğanna ocağının, irsinin varisi, qoruyucusu, daşıyıcısı Səma Muğannadır.




*Qısa Arayış:*

*Səma Muğannna (Ağazadə Səma Elbrus qızı) 2006-cı il martın 2-də Bakıda ziyalı ailəsində dünyaya gəlib. Babası “İstiqlal” ordenli Xalq yazıçısı İsa Muğanna kiçik yaşlarından Səmanın tərbiyəsi ilə məşğul olmuş, onda ədəbiyyata maraq oyatmışdır. Hal-hazırda*

*Səma 189-190 saylı orta məktəbin 10-cu sinfində təhsil alır, 3 kitab müəllifidir, "Yazarlar" jurnalının redaksiya heyətinin üzvüdür, "Ulduz" jurnalında, "Ədəbiyyat və "Kırımın səsi" qəzetlərində, eyni zamanda müxtəlif saytlarda əsərləri işıq üzü görmüşdür. "Ziyadar" Mükafatı laureatıdır.*

Səma Muğanna ilə mənim tanışlığım "Adam və Papatyanın Tanrıyla görüşdüyü gün" kitabı ilə olub. Kitab adı ilə diqqətimi çəksə də oxuduqdan sonra bu gənc müəllifin söz dünyası, düşüncələri fikrimi məşğul etməyə başladı. Daha sonra "Göyərçinin qəribə sevgi hekayəsi", "Lal şəhərim" və digər kiçik həcimli yazıları ilə tanış olduqca hər şey mənə məlum oldu. Söz dünyası, bədii ədəbiyyat öz yeni tacidarını qarşılamağa hazır olmalıdır. Söz səltənətinin yeni sultanının tacının parıltısı artıq ədəbiyyat üfiqlərində görünməkdə, atının ayaq səsləri isə eşidilməkdədir.

Əgər bir az da dərinə gedib, Səmanı daha yaxından tanımağa çalışsaq, bu körpə fidan bala qələminin varlığına sarılaraq ayaqda qalmağı bacarıb. Kiçik dünyasında rəngarəng göy qurşağını kiçik ev edib, o evin də, küçənin də ən şirin nəğməsi olub. Bu nəğmə böyüdükcə səsi ətrafı da ovsunlamış və ovsunlamaqdadır.

Səsdən söz düşmüşkən, sözün əsl mənasında Səma həmdə məlahətli səsə və özünəməxsus ifa tərzinə malik qiraətçi kimi də özünü uğurla sınayır.

Bütün bu sadaladıqlarımızın hamısı Səmada ilkin mərhələdə, işartı formasındadır. Ancaq, ondakı əzim və bir də söykəndiyi soy-kök onu deməyə əsas verir ki, biz çox parlaq bir gələcəyi olan söz adamı, yazarla müasirik.

Səmanın yaradıcılıq dünyasına səyahət etdikcə qəlbləri riqqətə gətirən səhnələrlə tanış oluruq. Qələm sahibinə rəğbətimiz artır.

Səma həyat eşqini, duyğularını, yaşadıqlarını sadəcə qələmə

almır. O bəlkə də şəxsən onun özünə aid olanları böyük ustalıqla ümumiləşdirməyi bacarır. Öz yaşıdlarının, bəzən (çox vaxt) isə hətta yaş və digər stereotipik baryerləri aşaraq bütün insanlığın, cəmiyyətin problemlərini uğurla qabarıq şəkildə təqdim edir. O bütün varlığıyla sarıldığı qələmini barmaq uclarıyla izləyərək yazır. O qələminin sözünü dinləyir. Səmanın qələmindən çıxmış bir az mistik, sevgi dolu hekayətlər oxucunu ovsunlayır. Qələminin sehrini izləyən oxucusu bu yalan, fani dünyadan ayrılıb, onun sevgi dolu dünyasına səyahət edir. Səmanın qeyri-adi, sehirli söz dünyasına düşmüş oxucu həyata tamam başqa gözlə baxmağa başlayır. O dünyadan bu dünyaya yeni əhval-ruhiyyədə qayıdır.

Səmanın söz aləmində uğurlar qazanmasında rol oynayan ilk olaraq babası İsa Muğanna və ailəsi olub. Bu körpə fidan bala dünyaya göz açdığı ocaqda ədəbiyyat qoxusunu duymuş və qələmi əlinə almışdır. Təbii ki, onun yanında dəstəkçiləri də olmuşdur və bu gün də var. Günəş olmadığı zaman Ay Yeri işıqsız qoymadığı kimi, İsa Muğanna yoxluğunda Səma Muğannanın da muğannasevərləri sözsüz qoymayacağına əminik.

Son olaraq Səmaya onu demək istəyirəm ki, əzizim Səma başlanğıc mükəmməldir! “Sükanı belə saxla!” Bax, beləcə davam et! Daim öz üzərində işlə! Biz ədəbiyyat üfiqlərində sənin timsalında yeni bir günəşin doğduğuna inanırıq. Sənin boynuna düşən bizim yanılmadığımızı sübut etməkdir. Bu keşməkeşli, çətin ancaq, şərəfli yolda uğurların bol olsun!

Sona qədər həmsöhbət oduğunuz üçün təşəkkür edirəm. Böyük Allahın yardımı və izni ilə yenidən görüşənədək! Allah amanında.

*QEYD:*
*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı “TƏƏSSÜRATLAR” və “QƏLƏMDAR – 2” kitablarında OTUZ SƏKKİZİNCİ yazı kimi müstəqil məqalə şəklində yer*

*almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:*

1. Zaur Ustac – "Səma Muğanna – Yeni Günəş", "Həftə içi" qəzeti, 9-15.09.2021, say: 76 (3400), s.7.

**Müəllif: Zaur USTAC,**
***"Yazarlar" jurnalının baş redaktoru,***
***şair-publisist.***

**ZAUR USTACIN YAZILARI**

**"YAZARLAR" JURNALI PDF**

**PDF>>>ZAUR USTAC – "BB" HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**Əbdürrəhim bəy Haqverdiyev – 150**

**"Tərəfsiz ədəbiyyat tarixdir" layihəsi**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

**RUHUMUZUN AŞISI "NƏSİHƏTLƏR" – ZAUR USTAC OTUZ DOQQUZUNCU YAZI**

*(Abbasquluağa Bakıxanov Qüdsinin "Nəsihətlər"i haqqında)*

Salam olsun, çox dəyərli oxucum!
Bu görüşə görə Böyük Allaha minnətdarlığım sonsuzdur! Sizlərlə bu dəfə vacib bir məsələ barədə söhbət edəcəyik inşəAllah. Haqqında söhbət açacağım məsələ son illər onsuzda aktual olsa da, pandemiya səbəbindən təhsilin məlum məhdudiyyətli formada aparılması, ilkin dövrlərdə qəti evə qapanma tələbləri nəticəsində telefon, planşet, kompüter və s. internetə (olduqca müxtəlif saytlara) çıxışı olan vasitələrə aludəçiliyi olan uşaq, yeniyetmə və gəncləri limitsiz məlumatlar bazası olan bu sirli dünyaya daha da bağladı. Xoş o uşaq, yeniyetmə və gənclərin halına ki, bu fürsətdən müsbət tərəfə faydalana bilirlər. Ancaq həmişə belə olmur. Elə uşaq, yeniyetmə və gənclərimiz var ki, bu sirli dünyada doğru yol tapmaqda çətinlik çəkir və bəzən hətta milli maraqlarımıza zidd olan istiqamət götürürlər. Bu hal çox vaxt gənc dostlarımızın təcrübəsizliyindən, əsl dünyadan, real həyatdan xəbərsizliyindən qaynaqlanır.

Xüsusi ilə son günlərdə hər çıxışda, hər görüşdə cənab Ali Baş Komandan, möhtərəm Prezidentimiz İlham Əliyevin "Gənclər milli ruhda tərbiyə almalıdır!", "Vətənpərvərlik hissləri ön planda olmalıdır!" kimi çağırışların fonunda ziyalılarımız, bu gün silahı əldə qələm olan yazarlar əllərindən gələni əsirgəməməlidirlər. Bu həqiqətən ciddi məsələdir. Vəziyyət o həddə çatıb ki, hətta rəzil düşmənin təəssübkeşliyini çəkən gənclərimiz peyda olub. "Qloballaşma", "kosmopolitizm" kimi bəzək-düzəkli ibarələrlə beyinləri yuyulmuş hələlik kiçik qruplar şəkilində yeniyetmə-gənclər dəstələri formalaşmaqdadır. Bu hansı tərəfdən baxırsan, bax mənfi haldır. Belə gənclər virtual dünyada hərəsi bir cəngavər olsalar da, real həyatda tam əks keyfiyyətləri

sərgiləyirlər. Belə kiçik qrupların gələcəkdə böyük manqurtlar ordusuna çevrilməməsi üçün cənab Ali Baş Komandan, möhtərəm Prezidentimiz İlham Əliyevin "Gənclər ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır!" çağrışına hər bir qələm adamı qoşulmalı, öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməlidir.

Bu yöndə faydallı olmaq üçün söhbətimizi dahi Azərbaycan mütəfəkkiri Abbasqulağa Bakıxanov Qüdsinin "Nəsihətlər" kitabı üzərində quracağıq. İlk öncə onu qeyd edim ki, böyük bir dünya olan bu kiçik həcmli kitabla mənim ilk tanışlığım ötən əsrin 80-ci illərinə təsadüf edir. 8-9 yaşım olanda uşaq kimi kiril əlifbası ilə nəsihətlərlə tanış olmuşam. Sonra təxminən 15-16 yaşlı yeniyetmə olanda əski əlifba ilə olan material kimi istifadə etdikdə hər nəsihəti həm kiril, həm də əski əlifba ilə dəfələrlə oxumuşam (kitabın formatı elədir ki, nəsihətlər paralel olaraq həm kiril, həm əski əlifba ilə verilib). Son 1-2 ay ərzində isə Tuncayla (Tuncay Şəhrili) əski əlifba ilə olan material kimi istifadə etdiyimiz üçün yenə hər nəsihəti həm kiril, həm də əski əlifba ilə dəfələrlə oxumuşuq. Müəllifin öz sözlərinə keçməzdən əvvəl bir daha onu xatırlatmaq istəyirəm ki, məsələ olduqca aktual, material, yəni Abbasquluağa Bakıxanov Qüdsinin "Nəsihətlər" kitabı olduqca qiymətli vasitədir. Bu kitab möhtərəm Prezidentimiz cənab İlham Əliyevin "Gənclər ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır!" çağrışına tam cavab verir. Müəllifin öz qələmindən kitab haqqında qısa arayışa diqqət edək.

QISA ARAYIŞ

… Qüdsi təxəllüslü Abbasqulu ibn mərhum Mirzə Məhəmməd xan Bakui belə deyir:

-Elmlərdən xəbərdar olduğum zaman, mənə məlum oldu ki, uşaqlar bəzi kitabları öyrənmək istərkən, elə dolaşıq ibarələrə rast gəlirlər ki, hətta müəllimlərin özləri onları dərk elə bilmirlər.

Bəzi kitablar isə o qədər uzun və pərakəndədir ki, onları anlamaq və mənimsəmək çox çətindir. Buna görə də “Uşaqlıqda öyrənilən elm daşda qazılmış şəkil kimdir” zərbül-məsəlin məzmunundan qəflət olunur. Əxlaq gözəlliyini  hər zamandan  artıq uşaq yaşlarında onlara öyrətmək lazımdır. Gözəl əxlaq təkrar olunduğu zaman adətə çevrilib insan təbiətinə daxil olaraq çətin anlaşılan elm və ədəb qaydaları onlara vərdiş olar. Beləliklə,  hicrətdən min iki yüz əlli iki il keçən bir zamanda nəsihətlər adı ilə aydın və sadə anlaşılan müxtərəs bir kitab yazdım…  Ümid edirəm ki, bu əsər uşaqlara faydalı olub onların tərbiyəsində getdikcə daha artıq təsir etsin.




Uşaqlara üz tutub belə nəsihət verirəm:

Ey mənim əzizim, sən insansan. Allah insanı dünyada hər şeydən yaxşı yaratmışıdır. Bu isə işi yaxşı bacarmaq səbəbindəndir .İnsanlar arasında da hər kəs çox biliki və işbilən olsa həmişə hörmətli olar. Deməli, gərək iş bilmək və yaxşılıq etmək o adamlardan öyrənmək lazımdır ki, onlar həyatda təcrübəli

və qabiliyyətli olmuşlar.

**Belə adamların sözləri bizə nəsihətdir:**

1. ***Öz ata-ananı hamıdan artıq əziz tut və hər nə buyursalar əməl elə, onları heç vaxt incitmə … Sonra böyük qardaşına, bacı, əmi və dayına da itaət elə!***
2. ***Hər kəs vəzifədə elmdə və yaşda səndən böyükdürsə ona hörmət elə, ta ki, səndən kiçiklər də sənə hörmət etsinlər.***
3. ***Dövlət başçılarına itaət eləməyi özünə vacb bil, əgər onlar olmasa, ölkədə nizam-intizam olmaz və adamlar biri birinin malına canına və namusuna qəsd edərlər.***
4. ***Hər ölkədə olsan o vilayətin qanununa zidd iş görmə ki, cəzaya düçar olmayasan.***
5. ***Xalqın xeyrinə olmayan bir işi eləmə və ya bir söz demə ki , sənə ondan zərər yetişər.***
6. ***Hər kəsə rast gələndə ona salam ver. Əgər o sənə bir söz söyləsə ədəblə dinlə və cavab ver ki, hamı səni sevsin.***
7. ***O adamlarla otur-dur ki, böyüklər onları yaxşı adam hesab edirlər, əclaf və hərzə danışanadamlardan kənar gəz ki, sən də onlar kimi olmayasan.***

Və bu ardıcıllıqla nəsihətlər davam edir. Cəmi 84 nəsihətdən ibarət olan bu kiçik həcmli kitab müasir uşaq, yeniyetmə, gəncin həyat kodeksinə çevrilərsə, onu ancaq uğur gözləyər! Gələcək şəxsiyyət kimi həyatda demək olar ki, heç bir çətinliyi olmaz! Bu nəsihətlər dahi söz adamı Abbasquluağa Bakıxanov Qüdsinin "Nəsihətlər"inin həmişə müasir və aktual olduğunu göstərməklə yanaşı, əsrlərin dəyişməsinə, vasitələrin yenilənməsinə rəğmən tərbiyədə olan problemlərin olduğu kimi qalması diqqət çəkən məqamlardan biridir. Övladının gələcəyini firavan görmək istəyən, vətənini, dövlətini sevən hər bir valideyn və gələcəkdə övlad sahibi olacaq hər bir gənc bu kitabla mütləq tanış olmalıdır. Bu qəti tələbin öz səbəbləri var. Səbəblər aşağıdakılardan ibarət ola bilər:

1. *Birinci əsas səbəb Abbasquluağa Bakıxanov Qüdsi sıradan bir adam deyildi. O əsl dünyagörmüş ziyalı, ağayana əslzadə idi.*
2. *O, bu nəsihətləri sadədən mürəkkəbə elə sıralayıb ki, ən müasir psixoloji və pedaqoji bütün tələblərə cavab verir.*
3. *Dahi mütəfəkkir bu nəsihətləri tərtib edərkən özünün sahib olduğu bütün dini və dünyəvi bilklərin maksimum realizə imkanlarını nəzərə alaraq, tam praktik tövsiyələr hazırlayıb.*
4. *Ən əsası yaşadığımız dövlətin başçısının, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin “Gənclər ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır!” çağrışına tam cavab verir.*

Bu məqamda cəmi 84 nəsihətdən ibarət olan bu kitabdan “Dövlət başçılarına itaət eləməyi özünə vacib bil, əgər onlar olmasa, ölkədə nizam-intizam olmaz və adamlar biri birinin malına canına və namusuna qəsd edərlər.” üçüncü və “Hər ölkədə olsan o vilayətin qanununa zidd iş görmə ki, cəzaya düçar olmayasan.” dördüncü nəsihətləri xatırlatmaqla bu mövzuda olan birinci yazımı yekunlaşdırmaq istəyirəm. Dəyərli oxucum, bizim parlaq gələciyimiz, aydın sabahımız olan gənclər, bir məsələni unutmayaq ki, cənab Ali Baş Komandan, möhtərəm Prezidentimiz İlham Əliyevin mövzu ilə əlaqəli bütün görüş və çıxışlarında dəfələrlə vurğuladığı kimi “Düşmənə nifrət hissi bizi qələbəyə apardı!”. Bu qələbəni biz şəhidlərimizin (sizin yaşıdlarınızın) qanı, canı, yarımçıq qalmış həyatları hesabına əldə etmişik. Onlar bu dünyadan, öz arzularından ona görə vaz keçdilər ki, biz, siz daha firavan yaşayaq. Düşmən əsarətindən onların qurtardığı torpağı qoruyaq, inkişaf etdirək, çiçəkləndirək. Burada “Dədə Qorqud” filmindən məşhur fraza – Dədə Qorqudun “Torpağı qorumasan, əkib-becərməyə dəyməz, əkib-becərməyəcəksən – qorumağa dəyməz.” tövsiyəsi yada düşür. Bu torpağı qorumaq, əkib becərmək, onu qanı-canı bahasını yağı düşməndən alıb bizə ərmağan edən şəhidlərimizin ruhuna, qazi və döyüşçilərimizə hörmət etmək, ehtiram bəsləmək bizim başımızın borcudur. Bu belədir və nə qədər Azərbaycan var, belə də

olacaqdır! Əksini düşünənlərin fikrinə hörmət edirəm, ancaq, belələrinə aramızda yer yoxdur və heç vaxt olmayacaqdır!!!

Sona qədər həmsöhbət olduğunuz üçün təşəkkür edir, həyatda uğurlarınız bol olsun deyirəm. Hələlik. İnşəAllah bu mövzu davam edəcək. Yenidən görüşmək ümidi ilə sizlərdən ayrılıram. Allah amanında.

*QEYD:*
*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı "TƏƏSSÜRATLAR" və "QƏLƏMDAR – 2" kitablarında OTUZ DOQQUZUNCU yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:*

1. "Ruhumuzun aşısı "Nəsihətlər" – Zaur Ustac", "Bütöv Azərbaycan" qəzeti, 24.09.2021, say: 24 (415), s.13.
2. "Ruhumuzun aşısı "Nəsihətlər" – Zaur Ustac", "Təzadlar" qəzeti, 28.09.2021, say: 33 (2318), s.14.
3. "Ruhumuzun aşısı "Nəsihətlər" – Zaur Ustac", "Həftə içi" qəzeti, 30.09.2021, say: 79 (3403), s.7.

**Müəllif: Zaur Ustac**
**PDF>>>ZAUR USTAC – "BB" HEKAYƏLƏR**
**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**
**Əbdürrəhim bəy Haqverdiyev – 150**
**"Tərəfsiz ədəbiyyat tarixdir" layihəsi**
**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

**"O ŞEİRİ BİR DƏ SÖYLƏ ƏRDOĞAN!" – Aqşin Hacızadə QIRXINCI YAZI**

*(...bir şeirin sorağıyla...)*

*Salam olsun, çox dəyərli oxucum! Şükürlər olsun Böyük Allaha!*

*"Zaman-zaman Şair Məmmədhüseyn, Aşıq Nəcəf, Həsən Xəyallı, Qəmgin Fəzi, Aşıq Hacı Göyçəli, Sərraf Şiruyə, Alqayıt kimi aşıq və şairlərə ünvan verən qədim oğuz yurdu Göyçə mahalının Daşkənd kəndi müasir poeziyamıza da yeni-yeni imzaları bu gün yeni ünvanda – Bərdə rayonunun Yeni Daşkənd kəndində gətirməkdədir.*

*Tanrı hər bir bəndəsinə bir istedad bəxş edir. Kiminə dərin hafizə, kiminə gözəl əl qabiliyyəti, kiminə təşkilatçılıq bacarığı, kiminə isə fitri istedad. Ulu tanrının fitri istedad verdiyi insanlardan biri də Aqşin Hacızadədir. O gözəl, iti qələmi olan bir şairdir.*

*Onun göz açdığı ailənin, ocağın bir çox yazarları kifayət qədər Azərbaycan ədəbi mühitində tanınmış simalardandır. Aqşin Hacızadə dünyaya gəldiyi gündən qulaqları şeirə, sözə, ədəbi fikirlərə hakim kəsilib. Şeirlərini oxuyanda bənzərsiz bədii təsvirlərin şahidi olursan və şeirlərdə yeni dəsti-xətt duyulur..."*

Yuxarıda sitat gətirdiyim sətrlər bu elin-obanın sözünə-söhbətinə dərindən bələd olan tanınmış tədqiqatçı, şair Araz Yaquboğlunun – "Aqşin Hacızadə poeziyası" adlı Aqşin Hacızadənin yaradıcılığı haqqında qələmə aldığı əhatəli yazıdan bir parçadır.

*"Bərdə rayonunun "Yeni Daşkənd" adlandırılan yaşayış məskəni Göyçə mahalının məşhur qədim Daşkəndinin adı ilə adlanmışdır. Bu kəndə hələ Sovet dövründə Göyçə mahalından, əsasən Daşkənddən ailələr köçüb daimi yaşamaq üçün məskunlaşmışlar və Göyçə mahalında yaşayan qohum-əqraba ilə müntəzəm olaraq*

*gedt-gəl, xeyir-şərdə iştirak formalarında əlaqələr saxlamışlar.*




*Yeni Daşkənd camaatı Göyşə mahalının qədim Daşkənd yurdunu ata-baba ocağı kimi indi də ürəklərində yaşadırlar. El şairi, şeirləri hələ 1965-ci illərdən aşıqların saz-sözündə səslənən, müğənnilərin repertuarında oxunan, Türk dünyasının ünlü-sədalı şairi Sərraf Şiruyə Yeni Daşkənddə yaşayıb-yaradır.*

*Allah bu ocağa –Daşkəndli Həsən Xəyallı ocağına şeiriyyət-mənəviyyat bəxş etmişdir: Sərraf Şiruyyə, Aqil İmam, Eldar Həsənli, Aqşin Hacızadə, istedadlı və dərin ədəbi-nəzəri biliyə malaik gənc şair Qılman İman kimi şeir-hikmət təbli ziyalılar bu ocağın yetirmələridir. Qeyd etdiyimiz kimi, Aqşin Hacızadə də bu şeriyyət ocağındandır…”*

Bu sətrlər isə Azərbaycanın söz-sənət ocağı sayılan, Dədə Ələsgər məbədgahı Göyçə mahalının digər bilici ustadlarından biri olan Niftalı Göyçəlinin “Aqşin Hacızadə- şeiriyyət aləmi” adlı maraqlı, müəllifi tanımaq baxımından olduqca əhəmiyyətli yazısındandır.

Bu iki tanınmış söz adamnın yuxarıda təqdim etdiyim fikirlərindən sonra mənim Aqşin Hacızadə haqqında burada əlavə nəsə qeyd etməyimə ehtiyac duyulmur. Hətta mənim əlavələrim şit, yersiz kəsədən desək yamaq kimi görünər və aşağıda sizlərə təqdim edəcəyim məsələnin şəfaflığına, obyektivliyinə kölgə salmış olardı. Bugünkü söhbətimizin mövzusu son günlər “O ŞEİRİ BİR DƏ SÖYLƏ ƏRDOĞAN!” adlı şeiri ilə gündəm olan Aqşin Hacızadə ilə, onun adı qeyd olunan şeiri ilə bağlı olacaq.

Məsələ ondan ibarətdir ki, Aqşin Hacızadənin məlum şeiri müxtəlif saytlarda, sosial şəbəkələrdəki səhifə və qruplarda müəllifin qələmindən çıxdığı kimi, heç bir dəyişikliyə uğramadan yayımlansa da bəzən onun öz adı qeyd olunmur. Oxucunun marağını cəlb etmək məqsədi ilə müəllifi “Təbrizli Tələbə” adı ilə yayımlayırlar. Bəlkə də buna səbəbiyyət verən şeirin sanki bir təbrizli gəncin dilindən qələmə alınmasıdır. Bu amil öz-özlüyündə o məşhur frazada deyildiyi kimi, “Vətənin o başı, bu başı olmur…” həqiqətinin bariz nümunəsi kimi ortaya çıxır. Burda bir əlavə etmək istəyirəm: – *“…Üstündən yüz Araz axsın, Totpaq, bizim torpağımız!!! Güney, Quzey fəqr eləməz, Oylaq, bizim oylağımız!!!” (Zaur Ustac)* Bütün bunlara rəğmən istənilən müəllifin adını qeyd etmədən ( bilərəkdən və ya bilməyərəkdən)

əsərini yayımlamaq müəllifə, müəllif hüquqlarına hörmətsizlik olmaqla bərabər həm də, ən adi etik normalardan kənar bir hərəkət kimi qiymətləndirilməlidir. Aqşin Hacızadənin müəllifi olduğu, altını cızaraq qeyd edirəm dəyərli şairimiz, el ozanı Aqşin Hacızadənin qələminin məhsulu olan "O ŞEİRİ BİR DƏ SÖYLƏ ƏRDOĞAN!" adlı şeirini sizlərə təqdim edirəm:

O ŞEİRİ BİR DƏ SÖYLƏ ƏRDOĞAN!

*("...Zor ilə ayırdılar...." Ərdoğan)*
Quzu kəsim şeir deyən dilinə,
O şeiri bir də söylə Ərdoğan!
Səs verəcək harayına qırx milyon,
Hədəfinə yaman dəyib, bax, yaman,
O şeiri bir də söylə Ərdoğan,
Qoy partlasın, qoy çatlasın bu İran!
* * *
Bircə bəndlik şeir ilə oyanıb,
Təbriz indi əyaq üstə dayanıb.
Əsrlərlə əsarətdən usanıb,
Çalxalanır, silkələnir bax bu an,
O şeiri bir də söylə Ərdoğan,
Qoy partlasın, qoy çatlasın bu İran!
* * *
Haqdan deyir, sevmir haqqı, düzü də,
Bir şeytandı astarı da, üzü də.
Zamanıdı, dağılacaq özü də,
Bizi bizdən ayrı salan, ayıran,
O şeiri bir də söylə Ərdoğan,
Qoy partlasın, qoy çatlasın bu İran!
* * *
Dilindəki şər-böhtandı, yalandı,
Ermənıyə mehri-ülfət salandı.
İran ki var, İran deyil, ilandı,
Bu "ilana" qənim olsun o Quran, *

O şeiri bir də söylə Ərdoğan,
Qoy partlasın, qoy çatlasın bu İran!
* * *
Yox, dolmasın Araz daha lil ilə,
Axsın Araz o tay-bu tay gül ilə.
Biz ki, birik millət ilə, dil ilə,
Niyə axı ayrı qalsın bu məkan,
O şeiri bir də söylə Ərdoğan,
Qoy partlasın, qoy çatlasın bu İran!
* * *
O tay bu tay Araz üstə yol salaq,
Bu birliyə alqış deyək, əl çalaq.
Bəsdir daha əsarətdə alçalaq,
Alçalmışıq düz iki yüz il, zaman,
O şeiri bir də söylə Ərdoğan,
Qoy partlasın, qoy çatlasın bu İran!
* * *
Bu ayrılıq əbədilik yad olsun,
Pişəvəri ruhu daim şad olsun, *
Ünvanımız bircə ünvan, ad olsun,
Hey bir olsun Azərbaycan sonacan,
O şeiri bir də söylə Ərdoğan,
Qoy partlasın, qoy çatlasın bu İran!

*Qeydlər:*
*1. Müqəddəs Quran kitabı.*
*2. Seyid Cəfər Pişəvəri. 1945-1946-cı illərdə Milli Hökumətin rəhbəri.*
*12.12.2020.- Bərdə ş.*

Bu şeirin Aqişin Hacızadə ruhunun süzgəcindən keçib həyat qazanmasını sübut etməkdən ötrü dəlilər gətirməyə ehtiyac olmasa da, maraq üçün şairin digər eyni ruhlu, eyni kəlmə yüklü müxtəlif vaxtlarda qələmə aldığı başqa şeirlərdən nümunələr

gətirməyi özümə borc bildim:

*Füzuli virandı, izi qalmayıb,*
*Ağdamın adı var, özü qalmayıb.*
*Yaram var sinəmdə, yox, sağalmayıb,*
*Xocalım inləyir, Şuşam can verir,*
*Vətən oğullara silahlan deyir.*

Və ya

*Söyləyə bilmirəm dildə arzumu,*
*Ağzımdan alırlar halal ruzumu.*
*Özüm öz əlimlə tutub ağzımı,*
*Boğula-boğula yaşayıram mən.*
* * *
*Narahat çırpınır rahatlıq tapmır,*
*Hər əlim yetənə ürəyim yatmır,*
*Ürəyim deyənə əllərim çatmır,*
*Yaxıla-yaxıla yaşayıram mən.*

Digər bir nümunə

*Bu dil mənim dünyada Türklüyümü bildirir,*
*Cürətimi, əzmimi, sərtliyimi bildirir.*
*Neçə ağır döyüşdə mərdliyimi bildirir,*
*İstəmirəm ötüşsün sənsiz ayım, bir ilim.*
*Ay mənim doğma dilim, ay mənim ana dilim.*

Və bu iki bəndlə bu məsələni yekunlaşdırmaq istəyirəm. Necə deyərlər, "arifə bir işarə bəs eylər":

*Gen gün üçün qoçumuz çox,*
*Şirinindən acımız çox.*
*Günahımız, suçumuz çox,*
*Tanrı bizi bağışlamaz.*
* * *

*Nə qədər ki, qalxmamışıq,*
*Ələ silah almamışıq,*
*Yurda övlad olmamışıq,*
*Tanrı bizi bağışlamaz.*

Nümunələrə ötəri bir nəzər saldıqda belə, bütün şeirlərin eyni müəllifə məxsus olduğu aydın sezilir. Bu barədə bu qədər. Aqşin Hacızadəyə yaradıcılıq uğurları arzu edirəm. Bu işdə müsbət hal odur ki, hələlik şeirə müəlliflik iddiası ilə heç kim çıxış etmir. Müəllif şəriksiz və şəksiz olaraq Aqşin Hacızadədir. Ancaq, yaxşı olar ki, gələcəkdə daha böyük problemlərlə qarşılaşmamaq üçünAzərbaycan Respublikası *Müəllif Hüquqları Agentliyindən əsərləri üçün müəlliflik haqqında şəhadətnamə alsın.*

*Hələlik bu qədər. Sona qədər həmsöhbət olduğunuz üçün təşəkkür edirəm.*

*QEYD:*
*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı “TƏƏSSÜRATLAR” və “QƏLƏMDAR – 2” kitablarında QIRXINCI yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:*

1. “O şeiri bir də söylə Ərdoğan” – Zaur Ustac”, “Bütöv Azərbaycan” qəzeti, 15.10.2021, say: 27 (418), s.14.
2. “O şeiri bir də söylə Ərdoğan” – Zaur Ustac”, “Təzadlar” qəzeti, 19.10.2021, say: 36 (2321), s.15.
3. “Zaur Ustac – O şeiri bir də söylə, Ərdoğan”, “Yazarlar” jurnalı, 11 (11), s.9 - 18.

## "TİKDİM Kİ, İZİM QALA"
## QIRX BİRİNCİ YAZI

*(Aqşin Hacızadənin eyni adlı kitabı haqqında)*
Salam olsun, dəyərli oxucum! Şükürlər olsun böyük Allaha! Bu dəfə sizinlə görüşə yeni kitabla gəlmişəm. Söhbət tanınmış söz adamı Aqşin Hacızadənin yenicə işıq üzü görmüş "Tikdim ki, izim qala" kitabından gedir.

"Tikdim ki, izim qala" kitabı Aqşin Hacızadənin öz oxucuları ilə üçüncü görşüdür. O, "Tanrı bizi bağışlamaz" və "Sənsizliyi duyacağam" adlı iki kitabı ilə artıq oxuculara yaxşı tanışdır.

Tədqiqatçı-jurnalist Araz Yaquboğlu ("Dünya" qəzeti, №30-31. 25 dekabr 2009-cu il.) "Aqşin Hacızadə poeziyası" adlı yazısında A.Hacızadəni oxuculara belə təqdim edir: "Zaman-zaman şair Məmmədhüseyn, Aşıq Nəcəf, Həsən Xəyallı, Qəmgin Fəzi, Aşıq Hacı Göyçəli, Sərraf Şiruyə, Alqayıt kimi aşıq və şairlərə ünvan verən qədim oğuz yurdu Göyçə mahalının Daşkənd kəndi müasir poeziyamıza da yeni-yeni imzaları bu gün yeni ünvanda - Bərdə rayonunun Yeni Daşkənd kəndində gətirməkdədir.

Tanrı hər bir bəndəsinə bir istedad bəxş edir. Kiminə dərin hafizə, kiminə gözəl əl qabiliyyəti, kiminə təşkilatçılıq bacarığı, kiminə isə fitri istedad. Ulu Tanrının fitri istedad verdiyi insanlardan biri də Aqşin Hacızadədir. O, gözəl, iti qələmi olan bir şairdir.

Onun göz açdığı ailənin, ocağın bir çox yazarları kifayət qədər Azərbaycan ədəbi mühitində tanınmış simalardandır. Aqşin Hacızadə dünyaya gəldiyi gündən qulaqları şeirə, sözə, ədəbi fikirlərə hakim kəsilib. Şeirlərini oxuyanda bənzərsiz bədii təsvirlərin şahidi olursan və şeirlərdə yeni dəst-xətt duyulur".

"Tikdim ki, izim qala" kitabı "Elm və təhsil" nəşriyyatında çap olunub. Kitabın ərsəyə gəlməsində

redaktor şair, jurnalist Arif Məmmədli və məsləhətçi tədqiqatçı-jurnalist Araz Yaquboğlunun xidmətləri olmuşdur.

Kitab haqqında söhbətə başlamazdan əvvəl Aqşin Hacızadə ilə bir daha yaxından tanış olaq.

QISA ARAYIŞ

Aqşin Hacızadə Şiruyə oğlu (şair Sərraf Şiruyənin oğludur) 1969-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olub. Əslən Qərbi Azərbaycanın Göyçə mahalındandır. 1993-1996-cı illərdə Qarabağ müharibəsində Ağdam cəbhəsində könüllü döyüşlərə qatılmışdır. 1990-cı ildən Bərdə rayonunun Yeni Daşkənd kəndində mədəniyyət sahəsində işləyir. Eyni zamanda, Qərbi Azərbaycan İctimai Birliyinin Mədəniyyət şöbəsinin rəhbəridir. 3 kitab müəllifidir.

Aqşin Hacızadənin “Tikdim ki, izim qala” kitabına onun son zamanlar qələmə aldığı poemalar, şeirlər və publisistik yazılar daxildir. Kitab “Ön söz əvəzi” özünü təqdimatla, yerini-yurdunu tanıtmaqla “Ünvanımı” şeiri ilə başlayır. Kitabı formal olaraq üç hissəyə bölmək olar: Poemalar, şeirlər, publisistika.

Poemalar bölməsində “Tikdim ki, izim qala”, “Qucaq açdı Bərdə bizə”, “On altı şəhidin altısı yaşıd” poemaları, şeirlər bölməsində isə məşhur “O şeiri bir də söylə, Ərdoğan” şeiri də daxil olmaqla son zamanlar yazdığı şeirlər və publisistika bölməsində “İki qardaş - iki igid, biri qazi, biri şəhid”, “Vətəni canından əziz bilən oğul”, “Pirnazarlı ocağının ikinci şəhid oğlu” adlı yazıları yer almışdır. Qeyd etdiyim əsərlərin adlarından da aydın görünür ki, Birinci Qarabağ müharibəsinin könüllü iştirakçılarından olan Aqşin Hacızadə məlum səbəblərdən İkinci Qarabağ müharibəsində əlində silah iştirak edə bilməsə də, qələmi ilə söz cəbhəsində şanlı Zəfərimizə öz töhfəsini verməyə çalışmış və qarşısına qoyduğu bu vəzifənin öhdəsindən layiqincə gəlməyə müvəffəq olmuşdur.

"Tikdim ki, izim qala" poemasının sonluğunda belə bir beyt var:

"Mən yazdım ki, gələcəkdə qoy çıxmasın yaddan onlar,

Mən yazdım ki, onlar kimi, bir iz qoysun bu insanlar."

Məncə, bu iki misra şairin bütünlükdə məqsədi, məramı haqqında bizə tam və dolğun məlumat ötürmək iqtidarındadır.

Şeirlər bölməsində yer almış müəllifin məşhur "O şeiri bir də söylə, Ərdoğan" şeirindən bu bəndə diqqət edək:

"Bircə bəndlik şeir ilə oyanıb,

Təbriz indi ayaq üstə dayanıb.

Əsrlərlə əsarətdən usanıb,

Çalxalanır, silkələnir bax bu an,

O şeiri bir də söylə, Ərdoğan,

Qoy partlasın, qoy çatlasın bu İran!"

Bu misraları oxuyanda qeyri-iradi şair Süleyman Rüstəmin "Təbrizim" şeirini xatırladım. S.Rüstəm bu dərddən, bu nisgildən, bu əsarətdən nə qədər üstüörtülü, xüsusi eyhamla, yana-yana, qovrula-qovrula söhbət açırsa, müasirimiz, dahi söz ustadlarının layiqli davamçısı olan şair Aqşin Hacızadə bir o qədər açıq şəkildə, ədəbi etikanın yol verdiyi ən son həddə - əndazə çərçivəsində hayqıraraq öz səsini ucaldır, vətəndaş, soydaş, ziyalı, qələmdar münasibətini bildirir. Digər şeirlərində və həmçinin publisistik yazılarında döyüş meydanlarında şücaət göstərmiş vətən övladlarının qəhrəmanlıqlarını böyük ustalıqla qələmə alır. Bu gün gözlərimiz önündə baş verənləri özünün yuxarıda təqdim etdiyim beyitində qeyd etdiyi kimi, gələcək nəsillərə ötürmək, çatdırmaq məqsədilə məharətlə salnamələşdirir. Bu müqəddəs amal uğrunda söz cəbhəsində xüsusi şücaət, qəhrəmanlıqlar göstərən qələm adamı, şair Aqşin Hacızadəyə şəxsən öz adımdan,

vətənpərvər ziyalılarımız, vətəndaşlarımız adından təşəkürümü bildirir, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

QEYD:
Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı "TƏƏSSÜRATLAR" və "QƏLƏMDAR – 2" kitablarında QIRX BİRİNCİ yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:

1. "Tikdim ki, izim qala" – Zaur Ustac", "Təzadlar" qəzeti, 16.11.2021, say: 39 (2324), s.14.
2. Zaur Ustac – "Tikdim ki, izim qala", "Kredo" qəzeti, 18.11.2021, say: 47 (1077), s.6.
3. "Tikdim ki, izim qala" – Zaur Ustac", "Bütöv Azərbaycan" qəzeti, 19.11.2021, say: 31 (422),s.12.

**PDF>>>ZAUR USTAC – "BB" HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

## “ÖMRÜM-BİR YAŞIL YARPAQ” QIRX İKİNCİ YAZI

*(Ayətxan Ziyadın 70 yaşına)*

Qələmə sarılı 52 il... Bu göstərici Ayətxan Ziyadın peşəkar jurnalistikada ilk qələm nümunəsinin mətbuat səhifələrində göründüyü 1969-cu ilin avqust ayı deməkdir. Həmin il orta məktəbi bitirən 18 yaşlı Ayətxan, Əli Bayramlı (indi Şirvan) şəhər Partiya Komitəsinin orqanı olan "İşıq" qəzetində dərc etdirdiyi iki məqalə ilə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) jurnalistika fakültəsinə sənəd vermək hüququ əldə etmiş və həmin fakültənin tələbəsi olmuşdu.

Əslində isə Ayətxan Ziyadı jurnalistikaya istiqamətləndirən yolun yaşı daha əvvəlki illərdən - orta məktəbdən bünövrə götürüb. Əvvəlcə oxuduğu sinfin, sonra isə şagirdi olduğu Hacıqabul 9 saylı Dəmiryol orta məktəbin "Ədəbiyyat" divar qəzetinin redaktoru olub.

***

Ayətxan Ziyadın peşəkar yazıçı-jurnalist, tədqiqatçı ömrünü üç mərhələdə təsnifatlandırmaq olar:

- 1969-2001-ci illər. Bu illərin əhatəsində öncə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində (indi QSC), sonra müxtəlif respublika qəzet və jurnallarda çalışıb, yaxud çap olunub;
- 2001-ci ildən yaradıcılığına kitab nəşri də daxil olub. "Sənsiz, yaxud Arifsizlikdə ötən ömür" kitabı ilə açılan bu səhifə bu gün 16 kitabla uğurla davam etdirilməkdədir. Daha 9 kitabı nəşr üçün hazırdır;
- 2015-ci ildən bu ömrə elmi tədqiqatla məşğul olmaq kimi bir missiya da əlavə olunub.

Bu da xüsusi qeyd olunmalıdır ki, Azərbaycan ədəbiyyatında və jurnalistikasında "dissident ədəbiyyatı" və "Azərbaycan səlcuqları" mövzuları ilk dəfə A.Ziyad tərəfindən tədqiqata cəlb edilib. "Heydər Əliyev - azad düşüncənin və milli təfəkkürün təəssübkeşi" məqaləsində Ümummilli liderin dissident ədəbiyyatı

ilə bağlı düşüncələri və mövqeyi önə çıxarılıb. Məqalə "Paritet" qəzetinin, "İpək yolu" elmi jurnalının və "Azərbaycan" jurnalının 2008-ci il saylarında dərc olunandan sonra ilk dəfə "Space" TV (daha sonra digər TV-lər də) bu mövzunu səsləndirməyə başlamışlar.

"Kimdir Ayətxan Ziyad İsgəndərov?" - bu sualı daha təfərrüatı ilə "Bu mənəm - Ayətxan Ziyad" kitabında yazıçı-jurnalist, tədqiqatçının özü cavablandırıb.



İsgəndərov Ayətxan Ziyatxan oğlu 1951-ci il oktyabrın 15-də Hacıqabul şəhərində anadan olub, orta təhsilini 1969-cu ildə başa çatdırıb. ADU-nun (indiki BDU-nun) jurnalistika fakültəsinin 1975-ci il məzunlarındandır. Tələbəlik illərində Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin (indi QSC) fəal ştatdankənar müxbiri (1970-1976), təhsilini başa çatdırandan sonra isə ona doğmalaşan həmin ocaqda kiçik redaktor, redaktor, böyük redaktor-şöbə müdiri vəzifələrində (1976-1994-cü illərdə) çalışıb. 1994-cü ilin yayından sonrakı zaman kəsiyində "Ədalət" qəzetində, "Azərbaycan məktəbi" jurnalında, "Respublika", "Naxçıvan" və "Yeni Naxçıvan", "Həftə içi", "Hakimiyyət və

Xalq" qəze-tlərində, 2004-2006-cı illərdə AMEA-nın İnsan Hüquqları İnstitutunda elmi işçi və paralel olaraq institutun nəşri olan "Dirçəliş-XXI əsr" elmi jurnalında (analitik-İnformasiya Mərkəzinin rəhbəri) işləyib.

A.Ziyad İsgəndərovun 2007-ci ildən sonrakı fəaliyyəti ADPU ilə bağlıdır. Yanvar 2007 - fevral 2015-ci illərdə universitetin "Gənc müəllim" qəzetinin redaktoru olub, 2015-ci ilin martından isə ADPU Elmi-Tədqiqat Mərkəzinin elmi işçisidir.

1979-cu ildə Moskvada Gənc Jurnalistlərin II Ümumittifaq Qurultayının nümayəndəsi olub, Ümumittifaq Teleradio Verilişləri Komitəsində yaradıcılıq təcrübəsi keçib. I Qarabağ müharibəsinin ilk günlərindən 6 il sərasər hər ayın 7-10 gününü cəbhə bölgələrində olub, Azərbaycan Ordusunun döyüş yolunu tarixiləşdirən efir materialları ilə çıxış edib. AzTV-də Hərbi Proqramlar və Salnamə baş redaksiyası yaradılmasının təşəbbüskarı olub.

1980-ci ildən SSRİ Jurnalistlər İtti-faqının, 2010-cu ildən Azərbaycan Jurnalistlər Birliyinin, 2015-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Onu fəaliyyəti bir sıra mükafatlarla qiymətləndirilib. Azərbaycanlı əsgər Rahib Məmmədova həsr etdiyi "Əfsanəyə dönən ömür" adlı radio verilişi pul mükafatı və əmək kitabçasına yazılmaqla dəyərləndirilib, radio verilişinin məqalə variantı "Ölməzlik" toplusunda nəşr edilib (Bakı-Azərnəşr-1989. Səh: 60-67). Hərbi-vətənpərvərlik mövzusunda yazan jurnalistlərin yaradıcılıq müsabiqəsində "Ədalət" qəzetinin xüsusi mükafatını, 2012-ci ildə "Əsrin ziyalıları" Xeyriyyə İctimai Birliyinin "İlin alimi - İlin ziyalısı" diplomunu alıb, 2021-ci ilin 15 oktyabrında 70 yaşı və jurnalist fəaliyyətinin 52 illiyi münasibətilə ADPU ETM tərəfindən mükafatlandırılıb. "Ziyadar" Mükafatı laureatıdır.

Nəşr olunmuş 15 kitabdan 6-sı monoqrafiya, 1-i dərs vəsaitidir (Türkiyənin 2 nəşriyyatı tərəfindən nəşr edilib). Daha 2 monoqrafiya nəşr üçün hazırdır.

ETM-də işlədiyi 6 il ərzində təqribən 50 beynəlxalq və respublika

elmi konfransında, həmçinin, 4 seminarda çıxış edib, çıxışları müvafiq sertifikatlara layiq görülüb, elmi məqalələri konfrans materiallarında dərc edilib.
Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) Jurnalistika fakültəsini bitirəndən (1975-ci ildən bugünə qədər) redaktor işi əmək fəaliyyətinin tərkib hissəsi olub Ayətxan Ziyadın. Deyir, yazdığını əgər pozmağa "gücün" çatmırsa, səndən qələm sahibi çıxmaz. Öz yazılarına isə ən azı üç dəfə "qənim" kəsilir. Həm də yazdıqlarının üzərində o qədər də "şəkil çəkir" ki, redəktəsini özündən savayı kim isə çətinliklə baş açıb islah edə, nizama sala bilir. Redaktə işi barədə həmişə bu məşhur cümləni nümunə çəkir: "Vaxtım olmadığı üçün uzun alındı".
Ayətxan Ziyad (İsgəndərov) bu gün də sutkanın 16-18 saatını yorulub-usanmaq bilməyən enerji ilə qələmə sarılıdır. Bu, şablon, söz xatirinə deyilən söz deyil, söylənilənləri fakt olaraq Ayətxan Ziyadı tanıyıb-bilənlərin hamısı görür, bilir. Bu yolda Ayətxan müəllimə yeni-yeni nailiyyətlər, ən əsası uzun və sağlıqlı ömür arzu edirəm! Var olun, uğurlarınız bol olsun!

*QEYD:*
*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı Ayətxan Ziyad haqqında olan "Mən kiməm?" kitabında dost yazısı, , "TƏƏSSÜRATLAR" və "QƏLƏMDAR – 2" kitablarında QIRX İKİNCİ yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:*

1. Zaur Ustac – "Ömrüm-bir yaşıl yarpaq" (Ayətxan Ziyadın 70 yaşına), "525-ci qəzet", 14.12.2021, say: 228. (5794), s.14.

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

**LƏTİFƏ ORUCUN "SİRLİ GEDİŞLƏR"İNİN SEHRİ**
**QIRX ÜÇÜNCÜ YAZI**

Salam olsun, çox dəyərli oxucum! Şükürlər olsun Böyük Allaha! Hər dəfə sizlərlə bölüşməyə sözüm olanda sevincimin həddi-hüdudu olmur. Bu dəfə məni belə sevindirən, ruhumu ovsunlayıb öz sehrinə qərq edən çox dəyərli bir kitabdır. Böyük əminliklə qeyd edirəm ki, əgər siz bu yazını oxuyursunuzsa, mütləq mənim "Su dünyaya açılan bir pəncərədir" adlı yazımı da oxumusunuz. Bu məqamı xatırlatmaqda məqsədim kitabla necə tanış olduğumu sizlərə çatdırmaqdan ibarətdir. Belə bir kitabın varlığından tam xəbərsiz olaraq, sadəcə "sirli aləm", "sirli dünya", "dünyanın sirli işdəkləri" kimi ifadələr yazıb "Google" dostumuzun əvəzsiz xidmətlərindən faydalanırdım. Axtarş nəticəsi olaraq çıxmış "Sirli gedişlər" ifadəsi diqqətimi cəlb etdi. Lingdən keçid edib qısa araşdırma aparanda məlum oldu ki, "Vahid Mərkəzləşdirilmiş Kitabxana Portalı"nın "Göygöl rayon Mərkəzi Kitabxana"sının qonağıyam və həmsöhbətim Lətifə Orucun (Lətifə Əliyeva) "Sirli gedişlər" kitabıdır. Bizim tanışlığımız bax beləcə, iki bir-birini tanımayan qonağın onların hər ikisini yaxşı tanıyan dost evində görüşü kimi qəfil, gözlənilməz şəraitdə baş tutdu. "Sirli gedişlər" ifadəsi diqqətimi cəlb etdi. PDF kitabı pulsuz və təhlükəsiz şəkildə endirib oxumağa başladım. Axşam saat 20:00 – a az qalırdı. Axşam xəbərlərini gözlədiyimə görə vaxt dəqiq yadımda qalıb. "Xəbərlər"in başlamasına qalan 5-6 dəqiqə vaxt ərzində mən "Sirli gedişlər" adlı kitabın müəllifinin Lətifə Oruc olduğunu, hörmətli professorumuz Nadir Məmmədli tərəfindən 2021-ci ildə "Elm və təhsil" nəşriyyatında çap edildiyini öyrəndim və hətta çox hörmətli şairimiz Sabir Rüstəmxanlı tərəfindən kitaba yazılmış ön sözə də göz ata bildim. AzTv-də "Xəbərlər" proqramının başladığını bildirən video çarxın getdiyi (səsindən məlum olur) anda mən artıq "I FƏSİL" də "Suyun kənarında Quran oxunuşu, musiqi, qarğış…" (üçüncü abzas) ilə başlayan maraqlı məqamla rastlaşmışdım. Mövzu mənə tanış gəldiyinə və çox maraqlı oduğuna görə, – "Tunu qaqa,

(Tuncay Şəhriliyə adətən belə müraciət edirəm) televizorun səsini azalt”,- deyə bildim və “Sirli gedişlər” məni öz sehirli ağuşuna aldı. Bu günə qədər oxuduğum kitabların içərisində yalnız və yalnız 5-ci sinfdə oxuyan zaman kənd kitabxanasından götürüb oxuduğum (Ağdam rayonu, Yusifcanlı kəndi) “*Kapitan Qrantın uşaqları*” (fransız yazıçısı Jül Vern tərəfindən 1867-1868-ci illərdə yazılmış roman) kitabını belə, ilk cümləsindən sonuna qədər ayrılmadan, birnəfəsə oxumuşdum. Kitab ötən əsrin ortalarından başlayaraq sonlarına doğru, iki əsrin kəsişməsindəki keşməkeşli dövrü, əsrimizin təlatümlü çağlarını (keçmiş ittifaq və müstəqillik dövürlərində) tipik orta statistik kasıb ailənin və belə ailədə böyüyüb, boya-başa çatmış övladların həyatı, yaşam tərzi fonunda şahidi olduğumuz həyat reallıqlarını gözlər önünə səririr. Bu məqamda, təfsilata keçməzdən əvvəl ən azı gələcəkdə istinad etmək üçün sizi müəlliflə tanış etmək vacibdir.

QISA ARAYIŞ

*Lətifə Oruc (Əliyeva Lətifə Oruc) 9 yanvar 1960-cı ildə Naxçıvan Muxtar Respublikasında (Şərur rayonu, Düdəngə kəndi) anadan olub. 1976-cı ildə Şərur rayon, Cəlil Məmmədquluzadə adına Cəlilkənd kənd orta məktəbini, 1986-cı ildə isə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.*
*Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvüdür.*

*Müəllifi olduğu “Sirli gedişlər” (kitab Azərbaycan, Rus və İngilis dillərinə tərcümə olunub) adlı kitabına görə Rusiya Yazıçılar Birliyinə üzv qəbul olunub.*

*Ailəlidir. Biri qız, biri (tanınmış şahmatçı Rauf Məmmədov) oğlan olmaqla iki övladı var.*

Əsərdə şərti adlarla təqdim olunan ailə; sürücü ata, evdar qadın və onların yeddi qız övladı real həyatdan götürülüb (Lətifə xanımın

öz ailəsi). Lətifə xanımın yanvar ayında doğulmağından tutmuş, bütün təhsil pillələrində və iş karyerasında əzmlə irəliləməsi, eyni zamanda bacılarının həyatı, zəhmətkeş atanın, qayğıkeş ananın fəaliyyəti belə bir faydalı kitabın yaranıb, ortaya çıxmasında mühüm rol oynamışdır.

Kitab "Tərəfsiz ədəbiyyat tarixdir" prizmasından baxdıqda da bütün tələbləri ödəyir.

Lətifə xanım istər keçmiş ittifaqda yaşadığımız çağlarda, istərsə də müstəqillik dövrümüzdə adi ailə-məişət zəminində baş vermiş hadisələri elə böyük ustalıqla təqdim edir ki, hadisələr fonları ilə birlikdə tarixi, mədəni, mənəvi əhəmiyyət kəsb edir.

Əsərdə təqdim olunan olduqca müxtəlif vəziyyətlər onun real həyat hadisələrindən qaynaqlandığının göstəricisidir. Çünki, situasiyalar və onların təsvirləri o qədər təbii və inandırıcıdır ki, bu kimi halların sadəcə yazıçı təxəyülünün, fantaziyasının məhsulu olmaq ehtimalını heçə endirir.

Əsərdə baş verən hadisələr, onların kompanentləri təbii olduğu kimi, dili də olduqca sadə və axıcıdır. Məhz dilin sadəliyi onu birnəfəsə oxunan kitablar sırasına qoşur. Yuxarıda qeyd etdiyim kimi kitabın Azərbaycan, Rus və İngilis dillərində olan variantları var. Hər üç dildə olan variantlarla artıq tanış olmuş bir oxucu kimi deyə bilərəm ki, dilindən asılı olmayaraq oxunaqlı əsərdir. Qəti olaraq oxucu yorulmur. Burada dilin sadəliyi ilə yanaşı müəllifin hadisələri oxucunu intizarda saxlayacaq tərzdə inkişaf etdirmək bacarığı da mühüm rol oynayır.

Ümumilikdə son olaraq, onu qeyd etmək istəyirəm ki, bəlkə də nadir, hər halda ibrətamiz əhvalatlarla dolu unikal bir ailənin həyat hekayəsini gözlər önünə sərən Lətifə Orucun "Sirli Gedişlər" kitabı əhatə etdiyi dövrün zəruri mədəni, sosioloji, tarixi məlumatlarını özündə daşıdığına görə olduqca əhəmiyyətli

ədəbiyyat hadisəısidir. Hamınızı bu hadisə ilə yaxından maraqlanmağa və faydalanmağa dəvət edirəm. Sona qədər həmsöhbət olub, Uca Yaradanın bizlərə ən böyük hədiyyəsi olan çox dəyərli zamanınızı bu sətirləri oxumağa həsr etdiyinizə görə qarşınızda təzim edir və intəhasız təşəkkürlərimi sunuram.

*27.01.2022. Bakı.*

*QEYD:*
*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı Ayətxan Ziyad haqqında olan "Mən kiməm?" kitabında dost yazısı, , “TƏƏSSÜRATLAR” və “QƏLƏMDAR – 2” kitablarında QIRX ÜÇÜNCÜ yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:*

1. Zaur Ustac – Lətifə Orucun “Sirli gedişlər”inin sehri (kitab haqqında düşüncələr), “Bütöv Azərbaycan” qəzeti, 11 fevral 2022-ci il, say: 06 (433), s.13.

**PDF>>>ZAUR USTAC – “BB” HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

**GÖYÇƏ GÖLÜNÜN SONASI**
**QIRX DÖRDÜNCÜ YAZI**

Sona Abbasəliqızı xoşbəxt qələm adamıdır. Bəli, mən onu tam əminliklə məhz belə adlandırardım. Və söhbətimə də salamsız, kalamsız bax elə belə, xoşbəxtlik haqqında, daha doğrusu qələm damının xoşbəxtliyi barədə böyük Allahın adı ilə birbaşa mətləbdən başlamaq istəyirəm. Adətən bu qəbildən olan yazıları yazmağa başlayanda ilk olaraq adam fikirləşir ki, İlahi, mən bu adamı haradan tanıyıram? İlk dəfə biz harada görüşmüşük və ya birinci dəfə bu adamın hansı yazısını oxumuşam? Mən axı, haradan tanıyıram bu adamı, kimdir bu şəxs? Əslinə qalanda haqlı suallardı...

Elə ilk cavabla qələm adamının xoşbəxtliyi haqqında birinci tezis öz-özündən ortaya çıxır: - *Mən bu adamı min illərdir tanıyıram.*

*MİN İLLƏRİN DOSTU*

Nə qədər dərin düşünsəm də Sona xanımla ilk tanışlığımızı istər sözü ilə, istər özü ilə bir türlü xatırlaya bilmədim. Yəni bu tanışlığı hansısa şeirin bir bəndi və ya hansısa tədbirdə ilk dəfə utana-utana salamlaşmaqla bağlamaq düzgün olmazdı. Çünki, ruhmun ruhu ilə, sözümün sözü ilə min illərdir dost olan silahdaşımı hansısa bir zaman və ya məkan çərçivəsinə salmaq ədalətsizlik olardı. Bu barədə sadəcə onu qeyd edə bilərəm ki, nə vaxtsa, hardasa oxuduğum elə ilk misrasındaca ruhuma yaxınlıq, bir iç-içəlik hiss etmişdim. Necə deyərlər, bir söz var, sanki bir çeşmədən su içiblər, bizim halımız mənim aləmimdə bax bu misala uyğun gəlir. Və inanıram ki, əsl söz adamları, qələmdaşlar da onu bax belə, ruh simsarı kimi qəbul edirlər. Məncə qələm adamının birinci xoşbəxtliyi bax elə budur. Və bütün bunların üzərinə təbəssümü üzündən əskik olmayan səmimi həmsöhbət, qayğıkeş yol yoldaşı, sadiq dost kimi zəmanəmizdə qıtlığı açıq-aşkar hiss olunan ali insani keyfiyyətləri gəldikdə bu nemət tamamlanır.

*GÖYÇƏ GÖLÜNÜN SONASI*

İkinci məsələ bu gözəl insan harada dünyaya gəlib? Bu adamın beşiyi, yurdu haradır? Dünyaya göz açdığı məkan haradır?

Ruhunun qıdası hardan, kimlərdəndir? Bütün bu suallırın tək bircə cavabı var: - *Bu söz adamı elə sözün beşiyində doğulub, böyüyüb boya-başa çatıb.* – Bu da söz, qələm adamının xoşbəxtliyi haqqında ikinci tezis olsun.



Sona Abbasəliqızı Aşıq Ələsgəri kimi dühanı dünyaya bəxş edən söz-sənət ocağı Göyçə mahalındandır. *“Göyçə mahalındandır”* kəlməsindən sonra nə yazsam, yamaq və artıq olacaq düşüncəsi ilə bu barədə fikrimi burada tamamlamaq istəyirəm.

*PEŞƏKAR QƏLƏM ADAMI*

Atalar üçdən dediyənə görə xoşbəxtliyin üçüncü tezisini də sizlərə çatdırmağı özümə borc bilirəm. Məncə Sona xanım üçün bir

qələm adamı olaraq aldığı təhsil də onun həyatında önəmli rol oynamışdır. O ADU (indiki BDU)-nun Jurnalistika fakültəsinin məzunudur. Necə deyərlər, “çörəyi ver çörəkçiyə, birini də üstəlik” : - *O sözün içində yetişib, püxtələşib.*

Bütün bu yuxarıda sadaladıqlarım keyfiyyətlərdən sonra sən gəl Sona olma. Mənim düşüncəmə görə bu sadəcə mümkün deyil.

Sona xanımın qələmi nəzmə müraciət etdikdə incə ruhundan, nəsrə üz tutduqda isə həssas qəlbindən qidalanır.

O bir qələm adamı olmaqla yanaşı, eyni zamanda işinə sonsuz dərəcədə məsuliyyətlə yanaşan, gördüyü işə canını qoyan təşkilatçıdır.

Sona xanım sadiq dost, incə ruhlu qələm adamı, vətənpərvər ziyalı, əsl Azərbaycan xanımıdır! Sonda dəyərli qələm dostuma uzun və sağlıqlı ömür, bütün işlərində müvəffəqiyyətlər arzulayıram!

İnşəaAllah tezliklə Göyçəni ziyarət etmək, yurd həsrətinə son qoymaq nəsib olar. Biz buna inanırıq, bizi yaşadan bu ümiddir.

Söz mülkünün piri, ocağı – Dədə Ələsgərin yurdu bir gün yenə əbədi olmaq üzrə öz ziyarətçilərinin üzünə açılacaq! O gün elə də uzaqda deyil!

*QEYD:*

*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı, “TƏƏSSÜRATLAR” və “QƏLƏMDAR – 2” kitablarında QIRX DÖRDÜNCÜ yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:*

1. Zaur Ustac, “Göyçə gölünün sonası”- təqdimat, “Yazarlar” jurnalı, mart - 2022, say: 03 (15), s.131-135.
2. Zaur Ustac – “Göyçə gölünün sonası”, “Bütöv Azərbaycan” qəzeti, 4 mart 2022-ci il, say: 09 (436), s.9.

**"XƏYALLARIM BORÇALIDA, YUXULARIM GÖYÇƏDƏDİ"**
**QIRX BEŞİNCİ YAZI**
*(Rahilə Qaralovanın özü və sözü)*
Dəyərli oxucum! Daha bir sazlı, sözlü söhbətlə görüşünüzə gəlmişəm. Söz deyəndə Göyçəni, saz eşidəndə Borçalını xatırlamamaq, anmamaq mümkün deyil. Xoş baharın yurdumuza qədəm qoyduğu günlərdə ustadları rəhmətlə anır, sizi saz-söz ziyafətinə dəvət edirəm.
Bu dəfə söhbətimiz , "Xəyallarım Borçalıda, Yuxularım Göyçədədi." - deyərək, sinəsini eyni zamanda həm saza, həm də sözə yuva, yurd yeri etmək kimi müqəddəs bir işin öhdəsindən ləyaqətlə, bacarıqla gəlmiş Rahilə Qaralova haqqında olacaq.
Kimdir Rahilə Qaralova?



QISA ARAYIŞ
Rahilə Seyfəddin qızı Qaralova - 1967-ci il noyabrın 28-də Ulu Borçalımızın Başkeçid (indiki Gürcüstanın Dmanisi) rayonundakı Şahmarlı kəndində anadan olub. İlk təhsilini Şahmarlı 8 illik

məktəbində alıb. 1985-ci ildə Başkeçid (Dmanisi) 2 saylı Azərbaycan orta məktəbini, sonra Tbilisi şəhərində Maliyyə Texnikumunu bitirib. Bir müddət Başkeçiddəki 147 nömrəli texniki peşə məktəbində kadrlar şöbəsində çalışıb.
Orta məktəb illərindən poeziyaya xüsusi maraq göstərən Rahilə xanımın ilk şeirləri
o zamanlar Bakıda nəşr olunan "Azərbaycan Pioneri" qəzetində və Başkeçiddə nəşr olunan yerli "Trialeti" qəzetində işıq üzü görüb.Son dövrdə Azərbaycanda və Gürcüstanda nəşr olunan mətbuat orqanlarında müntəzəm olaraq dərc olunur. Şeirləri "Bütöv Azərbaycan", "Elm və Təhsil" qəzetlərində, "Xəzan jurnalı"nda və müxtəlif qurumlar tərəfindən tərtib olunaraq yayımlanmış çoxsaylı poeziya antologiyalarında, almanaxlarda dərc olunmuşdur.
Rahilə Qaralova "Qərib Həsrəti", "Məndən Nağıl Umma, Dünya", "Yaşamadım özüm üçün", "Ana laylası" və digər kitabların müəllifidir."Sazlı-sözlü Borçalı" Ədəbi Məclisinin yaradıcılarından olan Rahilə xanım həm də "Dirili Qurbani" Ədəbi Məclisinin üzvüdür.
Ailəlidir, iki övladı və iki nəvəsi var.
Sazla söz Rahilə xanımın simasında necə ayrılmaz tellərlə bağlanıbsa, hətta onun haqqında təqdim etdiyim qısa bioqrafik məlumatda da ruhumuzun qidasını təşkil edən bu iki məfhum yanaşı dayanaraq, hər ikisinin məbədgahı olan ulu Borçalıya söykəniblər. Rahilə xanımın bütün fəaliyyətində yurda bağlılıq, soya-kökə ehtiram açıq-aydın hiss olunur. Saz səsi gələn, şipşirin ana dilimdə mirvari kəlmələrin muncuq olub bulaq başında ipə düzüldüyü sərin kölgələri, qartalların qıy vurduğu uca zirvələri, gah haylı-küylü, gah da həzin nəğmələr oxuyan yamyaşıl çay vadilərini özünün doğma yurdu bilən Rahilə xanımın Vətən sevgisi sərhəd tanımır:

Bütün kainatın bəzəyi sənsən,
Sən mənim uğurlu anımsan, Vətən!
Ömrümün təməli, özəyi sənsən,

Parlayan üfüqüm, danımsan, Vətən!
Yuxarıda təqdim etdiyim misralar onun “Vətən” şeirindəndir. Sazının eşidildiyi, sözünün dinlənildiyi bütün kainatı Yurdu hesab edən Rahilə xanım “Borçalı” adlandırdığı digər bir şeirində hisslərini daha da cilalayaraq, fikrini aşağıdakı kimi ifadə etmişdir:
Nə qədər söz desəm yenə də azdı,
Sevənlər köksündə çaldığı sazdı,
Qışda da, yayda da havası yazdı,
Ozanlar, aşıqlar sözü Borçalı.
İndi tanış olduğunuz misralar həm bu qısa yazım üçün ana xətt kimi götürdüyüm “saz-söz” məfhumu ilə çuğlaşmaq baxımından, həm də Rahilə xanımın özünü ruhani və cismani tərəfdən təqdim etmək baxımından çox qiymətli nümunədir. O, qələmə aldığı nəzm nümunələrində özünü doğru olaraq “Rahilə” kimi təqdim edir. Biz bu nümunələrdə həm mənəvi, həm də fiziki olaraq onun bizi götürdüyü yolçuluqdan yorulmuruq, bezmirik. Onun saza eşlik edən söz aləmində səyahət etmək bizi darıxdırmır. Əksinə sarbanı Rahilə xanım olan söz karvanının keçdiyi hər çöl, hər çəmən, hər dağ, hər dərə, hər çay qırağı, hər bulaq başı, hər bağ, hər bağça öz xoş rayihəsi ilə bizi məst edir, ovsunlayır. Bu sazlı-sözlü səfərdən zövq alırıq.
Rahilə xanım öz sözünün yayıldığı ucsuz-bucaqsız geniş Yurdunun nə qədər intəhasız olduğunu anlayır, bunun üçün məbədgahı Borçalıya minnətdarlığını, sadiqliyini bildirir. Ancaq bütün bunlarla kifayətlənmir. Dünyaya göz açdığı, sözünün qorlandığı, niyətinin tumurcuq tutduğu “Şahmarlı”nı unutmur, bəzən dünyaya hakim hami kimi, bəzən isti yuvaya möhtac körpə bala kimi ona sığınır. Hər iki halda Rahilə sözü özəl, gözəl və səmimidir:
Təbiət veribdir bu əzəlliyi,
Əzəldən Rahilə, var özəlliyi.
Kaş hamı görəydi bu gözəlliyi -
Elimin adıdı gözəl Şahmarlı,
Ağzımın dadıdı gözəl Şahmarlı!

Rahilə xanımı sazla sözün vəhdət tapdığı “Sazım” şeirindən bir neçə bəndi sizə təqdim edirəm:

Dağı yerindən oynadıb,
Sinəm üstə duran sazım,
Meydanlarda at oynadıb,
Toy məclislər quran sazım.

Yandırıbdı“Kərəmiylə”
Qəm veribdi “Dilqəmiylə”,
“Koroğlunun cəngi”siylə,
Qılınc-qalxan vuran sazım.
Və ya,
Dədə Oorqud yadigarı,
Qoruyubsan düz ilqarı,
Yol alıbsan bizə sarı,
Əsrləri yoran sazım!

Saza, sözə sonsuz ehtiram göstərən, bunu hər kəlməsində, hər misrasında oxucusuna xüsusi hiss-həyəcanla anladan Rahilə xanım, tam səmimi olaraq sonda bir məsələni qeyd etmək istəyirəm;

***“Xəyallarım Borçalıda, Yuxularım Göyçədədi.”***

misraları o qədər yaxın və doğmadır ki, sanki mənim öz ruhumun süzgəcindən keçərək həyat qazanıb. Təbrik edirəm. Uğurlarınız bol, yolunuz açıq olsun!

QEYD:

Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı, “TƏƏSSÜRATLAR” və “QƏLƏMDAR – 2” kitablarında QIRX BEŞİNCİ  yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:

1. Zaur Ustac – “Xəyallarım Borçalıda, Yuxularım Göyçədədi.” (Rahilə Qaralovanın özü və sözü), “Bütöv Azərbaycan” qəzeti, 11 mart 2022-ci il, say: 10 (437), s.8.

RUHU DURU, SÖZÜ BÜTÖV ƏSGƏR ORDUBADLI

QIRX ALTINCİ YAZI

Azərbaycanın ən qədim yurd yerlərindən biri olan Ordubad qədimliyi qədər də təbiəti və insanı ilə olduqca unikaldır. Ərazicə elə də böyük olmayan Ordubad əslində sözün tam mənası ilə sanki elə bütöv Azərbaycandır. O Azərbaycan ki, onu Araz ikiyə bölməyib. Əksinə birləşdirib. Ordubad bütün təbiəti, tarixi, insanı, dili ilə vahid, bütöv Azərbaycanın kiçik modelidir mənim üçün. Ordubad insanı bir başqadır. Tamdır. Bütövdür! Sizi bu ecaskar yurdun qəlbi təmiz, ruhu duru, sözü bütöv şair oğlu Əsgər Ordubadlı ilə tanış etmək istəyirəm.

Əsgər Ordubadlı – Əliyev Əsgər Ramazan oğlu 1995 – ci ildə Naxçıvan MR-nin Ordubad rayonunun Dəstə kəndində anadan olub. Təxəllüsü Əsgər Ordubadlıdır. 2001-ci ildə Ordubad rayon Dəstə kənd 1 nömrəli tam orta məktəbinə daxil olub və 2012 – ci ildə oranı bitirib. 2012-ci ildə hərbi xidmətə gedib. Uşaq yaşlarından ədabiyyata maraq göstərib, elə həmin vaxtlardan da bədii yaradıcılığa başlayıb. "Bizim məhəlləmiz" adlı ilk şeirini 2006 cı ildə yazıb. Mətbuatda ilk çap olunan şeiri "Xocalı soyqırımı " ("El Həyatı" qəzeti. 2010) . Bundan sonra dövrü mətbuatda şeir və məqalələri, eləcə də onun haqqında yazılar dərc olunub. Məktəb illərində dəfələrlə Ordubad və Naxçıvan müəllif şeir müsabiqələrində uğurla iştirak edib. Naxçıvan dövlət televiziyasının verlişlərində qonaq olub.

"Qələm nə danışır"(2009) ,"Axırda peşman sən olacaqsan"(2010) kitabçalarının, "Zülmətdən doğan işıq" (2021) şeirlər kitabının müəllifidir. Bir sıra qəzetlərdə və "Telli Sənəm", "Yazarlar", "Xəzan" jurnallarında şeir, məqalə və hekayələri çap olunub. Telli Sənəm jurnalının "Bölgə müxbiri" (2021) olub. "Yazarlar" jurnalının Ordubad bölgə

təmsilçisi, YİNŞ – nın Ordubad rayon üzrə sədridir.



AKİVİ-nin “Qızıl Qələm “, “Yazarlar”-ın “Ziyadar” və bir çox digar mükafatlara layiq görülüb. Müəllifin kitablarından əlavə “Gözüm yolda könlüm səsdə”, “Qələbəyə gedən yol”, “Gəlirik Qarabağ “, “Kimlərə qaldı dünya, Nizami Gəncəvi

880", "Həyat bizi səsləyir", "Sevgilim, yuxunu dənizə danış" Poeziya Antologiyalarında şeirləri çap olunub. Hazırda Ordubad rayonunun Dəstə kəndində yaşayır. Subaydır. Özü haqqında belə qısa arayışdan sonra sözü ilə tanış olaq:

KEÇDİ ÖMRÜN İLLƏRİ

Keçdi ömrün illəri
Ən xoş bir xatirətək.
Xatirəyə aldanıb
Ömrü verməzdik gərək.

Yel qanadlı illəri
Buraxmazdıq boş keçə.
Dünyamız seyrələcək
İnsanlar köçə-köçə?

Yox onların yerinə
Yeni nəsil gələcək.
Qış gedəndə nə olar
Başqa fəsil gələcək.

… Mən bir bahar fəsliyəm
Doğulmuşam baharda
Baharda çiçək açıb
Boğulmuşam baharda.

Əsgər çəkmə bu qəmi
Vaxtsız gələn dərd keçər.
baxma mənə ey gözəl,
yoxsa ala gözlərdən
Mənə məhəbbət keçər.

Bu ən ağır xəstəlik.

Dərmanı yox üstəlik.
Dərmansız dərd mən bilən
Tez keçsə də sərt keçər…

## GEDİR

Yox, mən bu dünyaya bel bağlamaram.
Görürsən həyası, arı da gedir.
Payızın yağışı əbədi deyil
Yaz gəlir dağların qarı da gedir.

Zərrəcə qalmayıb düzlük, etibar,
Bəzən sənin olmur səni sevən yar.
Bu gün əllərindən bərk-bərk tutanlar
Sabah səni qoyur yarıda gedir.

Əsgər var-dövlətə aldanma, qəti,
Gördüm sahibi yox neçə şirkəti.
Sonunda ağ kəfən olur qisməti
Dövləti də gedir, varı da gedir.

## BƏXTİM GƏTİRMƏDİ SEVGİDƏ

Əzab imiş bu həyatın hər yanı,
Məcnun olub hey axtardım Leylanı.
Min yol oldum o gözlərin qurbanı,
Mənim bəxtim gətirmədi sevgidə.

Sevgi verdim, əvəzində nə gördüm?
Öz dərdimi misralara keçirdim.
Şeir oldu, vərəqlərə köçürdüm
Mənim bəxtim gətirmədi sevgidə.

Hey əl açdım əllərinə çatmadı,
Əl açdığım əllərimdən tutmadı.
Sevən könlüm xoşbəxtliyi dadmadı,
Mənim bəxtim gətirmədi sevgidə.

Doğma idi, özgələşdi yad oldu,
Yad ürəkdən ona sevgi doğuldu.
Arzularım gözlərimdə boğuldu,
Mənim bəxtim gətirmədi sevgidə.

Əsgər bəlkə sevdi deyə suç etdi?
“Ömrüm” deyən həyatımı puç etdi.
Özgəsinin əlin tutdu, quc etdi,
Mənim bəxtim gətirmədi sevgidə.

TARİX YAZAN QƏHRƏMANIM
(İntiqam Abdullayevin əziz xatirəsinə)

Tarix yazan qəhrəmanım
Tarixini yazıb gəlir.
“Köçkün” adın, “qaçqın” adın
Alnımızdan pozub gəlir.

Milyonların sevgisindən,
inamından güc alıb o.
Ucalardan uca olan
Pak məqama ucalıb o.

O, can verib, O, qan verib,
Qoy yaşasın ana torpaq.
Ana torpaq yaşadıqca
Öz oğlun da yaşadacaq!

Yox, İntiqam ölməmisən

Ürəklərdə adın sağdır.
Şəhidliyə ucalanlar
Daima sağ qalacaqdır!

QÜRURLA OXU
(Ölməz qəhrəman şəhidimiz Xudayar Yusifzadənin ifasından təsirlənərək)

Oxu, mərd döyüşçüm, qürurla oxu!
Ana vətən gur səsini eşitsin.
Vətənin yol çəkən aranı, dağı
Qoy Xudayar nəğməsini eşitsin.

Bitsin bu gün həsrət adlı dünənin,
Yadın deyil, bu mənimdir, bu sənin.
Xəbər yayın hər yanına vətənin
Öz oğlunun gəlməsini eşitsin.

Yağı düşmən qaça bilməz əlindən,
Hamımıza əziz olan bu vətən
Sizin kimi oğulların dilindən
“Sən azadsan! ” kəlməsini eşitsin.

QƏHRƏMAN OĞLUM
(Vətənin adından Qənbərli Vüsal İlkin oğlunun əziz xatirəsinə)

Uyu məzarında nurlar içində
Ey vətən sevdalı qəhrəman oğlum.
Xalqın ürəyində, xalqın dilində
Adın yaşayacaq hər zaman, oğlum.

Tarix oxumadın, yazdın bir başa.
Yeni həyat verdin torpağa, daşa.
Dedin:- Azərbaycan müstəqil yaşa!
Ey vətən eşqindən yaranan oğlum.

Düşmənin başına odlar ələdin,
Məhv etdin yağını, qana bələdin.
Yalandan vətənə canım demədin,
Sən onun yolunda verdin can, oğlum.
EŞQ OLSUN!
(Yenilməz ordumuzun şanlı Zəfərinə)
Ön cəbhədə tarix yazır durmadan
Ordumuzun zəfərinə eşq olsun!
Düşmənini hər addımda qorxudan
Azərbaycan əsgərinə eşq olsun!

Ver komandir daim müjdə xəbəri,
Səndə qalıb milyonların nəzəri.
Hər gün yeni kənddə açır səhəri
Ordumuzun zəfərinə eşq olsun!

Keç Arazın sahilindən sırayla,
Zəngilandan qardaşları harayla.
Dəstək verir bax Arazdan o tayda
Qardaş deyən dillərinə eşq olsun!

İrəli get, səninlədir qayıdış.
Ata-baba torpağıdır hər qarış.
Bu millətin ordusuna min alqış,
Yenilməyən rəhbərinə eşq olsun!

Ümidvaram ki, ünün bütün Azərbaycana yayılacaq, Əsgər.
Bütöv Azərbaycanın tanınmış söz adamı, sözü bütöv şairi

olacaqsan. Yolun açıq, uğurların bol olsun!

QEYD:
Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı, "TƏƏSSÜRATLAR" və "QƏLƏMDAR – 2" kitablarında QIRX ALTINCI yazı kimi müstəqil məqalə şəklində yer almışdır. Eyni zamanda ənənəvi qaydada aşağıdakı mətbu orqanlarda dərc olunmuşdur:

1.Zaur Ustac – "Ruhu duru, sözü bütöv Əsgər Ordubadlı", "Bütöv Azərbaycan" qəzeti, 18 mart 2022-ci il, say: 11 (438), s.13.

**PDF>>>ZAUR USTAC – "BB" HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

## “MƏNƏ BİRCƏ GİLƏ GÖZ YAŞI BƏSDİ”
## QIRX YEDDİNCİ YAZI

*(İbrahim Yusifoğlunun eyni adlı kitabı haqqında)*

Salam olsun, çox dəyərli oxucum! Şükürlər olsun Böyük Allaha ki, daha yeni bir vəsilə ilə görüşümüzə zaman tanıdı. Min şükür. Bu dəfə söhbətimizin mövzusu adı ilə diqqətimi çəkmiş kitabla bağlıdır. Haqqında söhbət açacağım kitab İbrahim Yusifoğlunun “Mənə bircə gilə göz yaşı bəsdi” adlı 2021-ci ildə işıq üzü görmüş, 208 səhifədən ibarət şeirlər kitabıdır. Kitabla ilk tanış olduğum gündən adı diqqətimi çox çəkmişdi. Şeirləri oxuduqca kitabın içərisində eyni adlı şeirin də olduğunu gördüm. “Mənə bircə gilə göz yaşı bəsdi” şeiri kitabın 142-ci səhifəsindədir. Hərflərə, sözlərə, rəqəmlərə onların yaratdığı kombinasiyalara, ötürdüyü mesajlara bir başqa aludəçiliyim var. Ancaq bütün bunlar haqqında söhbətə başlamazdan əvvəl İbrahim Yusifoğlunu yaxından tanıyaq.

QISA ARAYIŞ

İbrahim Yusifoğlu Yusifov 30 sentyabr 1954-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Axura kəndində anadan olub. 1981-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun (indiki Naxçıvan Dövlət Universiteti) filologiya fakültəsini bitirib. 70-ci illərin əvvəllərindən pedaqoji fəaliyyətlə məşğuldur."Şərur qönçələri" ədəbi birliyinin rəhbəridir. 1994-cü ildə haqqında Naxçıvan Muxtar Respublikasının televiziyasında "Dağların şair oğlu" adlı film çəkilib.

Bədii yaradıcılığa 1968-ci ildə başlamış, ilk mətbuat əsəri olan “Qələbə atəşi” şeri 1971-ci ildə Şərur rayonunda dərc olunan "İşıqlı yollar" qəzetində çap edilmişdir. Əsərləri türk, rus və fransız dillərinə tərcümə olunmuşdur. Çoxsaylı nəzm və nəsr nümunələrinin müəllifidir. 1992-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin, 1998-ci ildən isə Azərbaycan Yazıçlar Birliyinin üzvüdür.

İbrahim Yusifoğlu “Araz bayatıları” (1991), “Bu həyat mənimlə yola getmədi” (1997), “Futbolçu, topçu, gopçu” (1998), “Mənim

inamımı gülləlѳdilər" (1999), "Arxamca boylanan baxışların var" (1999), "Sulara danışdım yuxularımı" (2000), "Safdır,müqəddəsdir müəllim ömrü (oçerk)" (1997-1998), "Ölüm tanrıdan gələndə" (oçerk) (1999) kitablarının və ümumilikdə 30 – a yaxın kitabın müəllifidir. Bundan əlavə redaktə etdiyi kitablar da çoxdur.

Pedaqoq və yaradıcı şəxs kimi uzun illərin gərgin əməyinin nəticəsini "Azərbaycanın xalq maarif əlaçısı" (1987), "Qızıl Qələm" media mükafatı, Prezident mükafatı (2016), "Ziyadar" mükafatı (2021) olaraq görmüşdür.

Hal-hazırda da fəaliyyətini davam etdirir.

Keçək mətləbə. 142(7)-ci səhifədə yerləşmiş (ya təsadüfən, ya da hesablanmış şəkildə bunun heç bir fərqi yoxdur) "Mənə bircə gilə göz yaşı bəsdi" şeiri və bu şeirin adının kitabın üzünə çıxarılması, kitaba ad seçilməsi artıq özlüyündə diqqətli oxucuya müəyyən mətləblərdən xəbər verir. Məsələn, şəxsən mən hələ eyni adlı şeirlə və ümumilikdə şeirlərlə tanış olmazdan əvvəl düşünürdüm ki, görəsən şair bu ifadəni hansı anlamda işlədib? Dünyanın faniliyinə işarə edir, yoxsa insanların naxələfliyinə? Söhbət aclıqdan gedir, yoxsa toxluqdan? Müəllifi dünya narahat edir, yoxsa axirət? və s. Və il. Bu vəziyyətdə sualları sıralamaq olardı. Ancaq buna ehtiyac yoxdur. Yaxşısı budur necə deyərlər kitabın tən ortasından, elə həmin bu şeirdən iki bəndə diqqət yetirək:

Bəxtimə düşənlər Tanrıdan gəlir,
Sevincim, kədərim yarıdan gəlir,
Bütün istəklərim "barı"dan gəlir,
Həyat nə verdisə bir üzü tərsdi.
Mənə bircə gilə göz yaşı bəsdi.

* * *

Bir gün göz yaşıyla yuyulacağam,
Üç qarış torpaqda uyuyacağam,
Bir parça sal daşda duyulacağam,
Tanrımın verdiyi öz yaşı bəsdi,

Mənə bircə gilə göz yaşı bəsdi. (s. 142)
Bu misraları oxuya-oxuya rəhmətliklər; Hacı və axund arasında keçən məşhur məsələ, ta qədimdən üzü bəri şahların, sultanların ibratamiz məsəlləri, son illər gözümüzün qabağanda baş verən yüzlərcə ibrətlik hadisələr kino lenti kimi adamın gözünün önündən keçib gedir.
Ümumiyyətlə, bu və digər şeirlərdə (indi bu şeirə nisbətən kitabın əvvəlindən də bəzi nümunələrdən misal gətirəcəyəm) İbrahim Yusifoğlunun insan oğluna, bəşəriyyətə ötürmək istədiyi, xüsusi ilə hal-hazırda baş verən hadisələrlə səsləşən aktual mesajlar çoxdur.
Kitabdan bir neçə nümunə də misal gətirib sonra fikrimi yekunlaşdırmaq istəyirəm.
Məsələn,
Yağışlar yağdı, qutardı,
Daha qar yağır, qar yağır.
Kimin evinə qəm-kədər.
Kimin çölünə var yağır.
* * *
Kövrək olur, güllər nədən,
Boylananda pəncərədən,
Qəmli-qəmli tül pərdədən,
Baxan gözlərə qar yağır. (s. 69)
Və ya “Nimdaş pencəyə oxunan şeir” :
Nimdaş görkəminlə sən asılmısan,
Asılqan adlanan dar ağacından.
Lazımsız əşya tək yalqız qalmısan,
Düşmüsən ömrünün şahlıq taxtından.
* * *
Bir vaxt geyilərdin ziyafətlərə,
Gözlər min heyrətlə sənə baxardı.
Yaman xoş gəlirdin şux afətlərə,
Duruşun, biçimin ürək yaxardı. (s. 74)




Bu misala da nəzər salıb sonra söhbətimizi yekunlaşdıraq.
Nümunə:
Nə eni görünür, nə də uzunu,
Dərini duyulur sərt bənizində.
Boğaza çatdırıb duzlu suyunu,
Batırıq, ay Allah, borc dənizində.
* * *

Bu yurdun sərvəti, varı talanır,
Yerində yosunlu dəniz yaranır,
Dərddən sinələrdə tonqal qalanır,
Yanırıq, ay Allah, borc dənizində. (s. 80)

Yuxarıda İbrahim Yusifoğlunun “Mənə bircə gilə göz yaşı bəsdi” adlı kitabından təqdim etdiyim nümunələr və gələcəkdə sizin özünüzün bu kitabda tanış olacağınız digər çoxsaylı şeirlər söz-söz, misra-misra yalnız və yalnız bir vəzifə ilə mükəlləfdir: “Oyan, insan oğlu, oyan! Ətrafında baş verənlərdən dərs al, ibrət götür!” Axı heç kim, heç nə bu həyatda (dünyada) tək deyil... Bütün mövcudiyyat bir-biri ilə əlaqəlidir. Əgər hər hansı bir iş kiminsə başına gəlirsə, demək sənin də başına gələ bilər. Müdrik bir misalı xatırlatmaq istəyirəm, məzmunu belədir ki, təcrübə yaxşı dərsdir, ancaq keçələ daraq lazım olmur...

Ümumiyyətlə, İbrahim Yusifoğlu uzun illərin təcrübə və müşahidəsinə, zəngin söz ehtiyatına, folklorumuza dayanaraq, cəmiyyət, insanlar üçün faydalı olmağa çalışmışdır. Mən deyərdim ki, söz adamı kimi, dünya görmüş pedaqoq kimi bu işin öhdəsindən layiqincə gəlmişdir. Yerdə qalır yazılanları oxuyub nəticə çıxarmaq. Belə bir misal da var. Deyir ki, ağıllı insanlar başqasının səhvlərindən nəticə çıxardaraq öyrənənlərdir. Xüsusən də indiki vaxtda ətrafımızda bu qədər ibrətamiz misallar olduğu halda heç birimizin səhv etməyə ixtiyarı yoxdur!

Sona qədər həmsöhbət olduğunuza görə təşəkkür edirəm. İbrahim müəllimə yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Qələminiz iti, yolunuz açıq olsun!

*QEYD:*

*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı, “TƏƏSSÜRATLAR” və “QƏLƏMDAR – 2” kitablarında QIRX YEDDİNCİ yazı kimi müstəqil məqalə şəklində yer almışdır.*

**PDF>>>ZAUR USTAC – “BB” HEKAYƏLƏR**

## ÇAĞDAŞ ÖRNƏK YAZARLAR
## QIRX SƏKKİZİNCİ YAZI

***("Nə məsləhət verirsiniz?" sualının cavabı)***

Salam olsun, dəyərli qələmdaşlar və çox dəyərli oxucular! Həmd olsun Uca Yaradana! Bugünkü söhbətimiz ***"Nə məsləhət verirsiniz?"*** sualına cavab olaraq qələmə alınmışdır. Söhbətə başlamazdan əvvəl onu qeyd etmək istəyirəm ki, bu suala əsasən gənc yazarlar və ya canında yazmaq həvəsi olub, bir türlü başlaya bilməyənlər, bir də hər şeyə maraqlı oxucular müxtəlif görüşlərdə, oxucu məktublarında cavab axtarırlar. Yazı, kitab aləmi haqqında bu cür şikayətlərlə dolu bir fonda ilk addımlarını atmağa tərəddüd edən gənc yazarlar kimi, eyni zamanda diqqətli oxucular da eyni suala cavab axtarışındadır. Qələm adamları "nədən yazım", "necə yazım", "necə başlayım", "kimdən örnək alım" kimi suallara cavab axtararkən, oxucular da həmən-həmən ekvivalent "nə oxuyum", "kimi oxuyum" kimi sualların cavabını arayırlar. İstənilən cavabı diqqətlə dinləyir və ya oxuyurlar. İnanıram ki, hamımız nə vaxtsa bu suallarla üzləşmişik. Şəxsən mənə gəlincə bu sual ətrafında şifahi olaraq dəfələrlə danışıb fikir bildirmişəm (bu mövzuda internetdə bir neçə variantda video material da var). Hətta o qədər təkrar-təkrar danışmışam ki, artıq danışdıqlarımı özüm də əzbərləmişəm. Sual aktual olduğuna görə və həm də bu günün, bu yaşımın fikirlərini qeyd etmək məqsədi ilə məlum sual ətrafında olan, dəfələrlə təkrarladığım fikirlərimi yazı şəklinə salmaq istədim. Keçək mətləbə.

Tarixə söykənməyən gələcək yoxdur və ya qol-budaqlı ağaca sağlam kök lazımdır düşüncəsi ilə adətən bu mövzuda olan söhbətlərimə ötən əsrdə qələmə alınmış Makulunun "Səttarxan" və müəllifinin kimliyinə belə ehtiyacı olmayan "Əli və Nino" kitablarını misal çəkməklə başlayıram. Müasir dövrümüzdən Aqil Abbasın "Dolu" sunu nümunə kimi təqdim edir və hələ elə də böyük auditoriyanın tanımadığı rəhmətlik Qələndər Xaçınçaylının "Güllə işığında" povesti, Əli bəy Azərinin "Hərbi Zəngilan"ı haqqında məlumat verirəm. Aydın məsələdir ki, danışanda

müxtəlif sualları yazar üçün ayrı, oxucu üçün daha uyğun formada cavablandırmaq imkanı geniş olur. Çalışacağam ki, ***“Nə məsləhət verirsiniz?”*** sualına ümumi fikirlərimdə dəyişikliyə yol vermədən hər iki tərəf üçün yığcam və əhatəli şəkildə 22 mart 2022-ci il üçün olan qeydlərimi sizlərlə bölüşüm. Birinci onu bildirmək istəyirəm ki, fikirlər subyektivdir, əksini düşünənlərin fikrinə hörmətlə yanaşıram. İkinci yazıya “ondan xəbəri yoxdur”, “bundan xəbəri yoxdur” düşüncəsi ilə yanaşanlara xatırlatmaq istəyirəm ki, istər elektron, istərsə də ənənəvi qaydada ortalığa çıxmış nümunələrlə tanışam. Üçüncü hər hansı bir suala cavab verəndə istənilən şəxs elə örnəklərdən istifadə etməlidir ki, ən azından bu nümunə müsahibinə tanış olsun. Məsələn, Azərbaycan reallığında ağaclardan söhbət gedirsə, “palıd”, “qoz”, “nar” ağacları daha çox hamı tərəfindən tanınır, nəinki, “evkalipt” və ya “baobab”. Belə bir əhatəli girişdən sonra yazının əhatə edəcəyi dövrlər və meyar kimi götürülmüş kriteriyalar barədə də qısaca məlumat vermək istəyirəm. Çünki bu vacib məsələlərin mətləbə birbaşa dəxli var. Mənim sizlərə təqdim edəcəyim örnəkləri seçməmdə əsas meyarlarım faydalılıq, tanıtmaq və tanınmaq, özünə yer tutmaq bacarığı, müstəqil olmaq qabiliyyəti, ən əsası heç kimə, heç nəyə fikir vermədən yaxşıları öyrənib tətbiq etməklə öz işi ilə məşğul olmaq, daim axtarışda olmaq, təkmilləşmək, görünə bilmək, seçilməyi bacarmaq. Bu sadaladığım qabiliyyətlərlə seçilmək, fərqlənmək 1920-ci ilə qədər birinci, 1920-1990 ikinci və 1990-dan sonra üçüncü (bu dövrü də 1990-2000, 2000-2010, 2010-2020, 2020-dən sonra) dövr olmaqla olduqca müxtəlif tələblər və şəraitdə baş verdiyini unutmamalıyıq. Bütün bu bölgülərin fövqündə dayanaraq müxtəlif dövrlərin keşməkeşlərinə sinə gərərib indi də mətin addımlarla sıralarımızda addımlayn bir qrup müasirlərimiz olan qələm adamları var ki, onlar çağdaş ədəbiyyatımızın məhəng daşlarıdır.

DÖVRLƏR VƏ TƏLƏBLƏR HAQQINDA

1920-ci illərə qədər bizim qənaətimiz üçün əsas olan meyarlar keyfiyyət baxımından təxminən indiki (1990-cı illərdən sonra)

kimi idi. Yəni yalnız öz şəxsi keyfiyyət və bacarıqlarınız (həm yaradıcılıq, həm də maddi baxımdan) əsasında uğur qazana bilərdiniz.
1920-1990-cı illərdə vəziyyət bir az fərqli idi. Beləki, yaradıcılıqda müəyyən korrektələr olmaqla demək olar ki, maddi problem yox idi. Yəni yaradıcılıq qənaətbəxş olduqdan sonra, maddi həllə yol tapmaq (təbii ki, bu məqamda da şəxsi keyfiyyətlər, bacarıqlar əsas amil olub) mümkün idi.
1990-lardan sonra baş verənlər çoxumuzun göz qabağındadır. Məncə ən qarışıq dövr 1990-2000-ci illər hesab olunmalıdır. Bu həm fürsətlər, həm də çətinliklər baxımından eyni dərəcədə əhəmiyyətlidir. Ümumiyyətlə, istənilən sahədə uğur qazanmaq üçün şəxsi keyfiyyətlər önəmlidir. Bu mövzuda söhbətə məsələyə dolayısı ilə aidiyyəti olan "utananın oğlu olmur" atalar sözü ilə nöqtə qoymaq istəyirəm.
2000-2020 zəngin təcrübə və püxtələşmə dövrü kimi səciyələnməlidir.
Ən maraqlı və real vəziyyəti əks etdirən dövr indi başlayıb (2020-ci ildən). Necə deyərlər, "bu meydan, bu şeytan".
Birinci dövrə baxdıqda kimləri xatırlayırıq, Abbasqulu Ağa Bakıxanovu, Mirzə Fətəli Axundovu, Nəriman Nərimanovu, Əbdürrəhim bəy Haqverdiyevi, Üzeyir Hacıbəyovu, Həsən bəy Zərdabini və b. Şərhə ehtiyac duymuram.
İkinci dövrün süzgəcindən keçib (birinci dövrlə əlaqəli şəxslər də daxil olmaqla) gələnlər; Süleyman Sani Axundov, Məmməd Səid Ordubadi, Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm, Mir Cəlal, Mirzə İbrahimov, Süleyman Rəhimov, İsmayıl Şıxlı, Bayram Bayramov, İlyas Əfəndiyev, Cabir Novruz, Fərman Kərimzadə, Fikrət Qoca, o taylı-bu taylı Şəhriyar və b. Bu dövrün ortalarından və sonlarından ədəbi fəaliyyətə başlamış və çoxu bu gün də yaradıcılığını uğurla davam etdirən dövrlərin fövqündə dayanmış, çağdaş ədəbiyyatımızın məhəng daşları adlandırdığımız Bəxtiyar Vahabzadə (2009-cu ildə vəfat edib), İsa Muğanna (2014-cü ildə vəfat edib), Anar, Elçin,

Çingiz Abdullayev yaradıcılığı Azərbaycan ədəbi irsində xüsusi yer tutur.
Çingiz Abdullayevi Azərbaycan ədəbi mühitində bu dövrlərin kəsişməsində möhkəm dayanaraq ədəbiyyatı cəmiyyətə, kitabı oxucuya qırılmaz tellərlə bağlayan mühüm fiqur kimi dəyərləndirmək lazımdır. Bu yöndə onun xidmətləri danılmaz və əvəzolunmazdır.
Bəxtiyar Vahabzadə, İsa Muğanna, Anar, Elçin və Çingiz Abdullayev kimi çağdaş ədəbiyyatımızın məhəng daşları adlandırdığımız örnək şəxsiyyətlərin üzərindən onların da içində olduğu üçüncü dövrə nəzər salsaq, Aqil Abbas, Akif Əlini, Sabir Rüstəmxanlı, Kamal Abdullanı, Yunus Oğuzu, Rəşad Məcidi, Elxan Elatlını, Varisi, Musa Ələkbərli, Səlim Babullaoğlunu, Vüqar Əhmədi, Azər Turan, Firuz Mustafa, Elçin Hüseynbəylini, Əli bəy Azərini, İlqar Fəhmini, Kənan Hacını, Sayman Aruzu, Fərid Hüseyni, Rövşən Abdullaoğlunu, Nicat Həşimzadəni, İntiqam Yaşarı görürük. Və təfərrüata keçməzdən əvvəl bir məqamı vurğulamaq istəyirəm. Necə ki, bu gün (22 mart 2022 – ci ildə) böyük əminliklə Çingiz Abdullayevi bir vaxtlar dahi Üzeyir Hacıbəyovun gördüyü işi ləyaqətlə və böyük əzmlə davam etdirərək ədəbiyyatla cəmiyyət, ədəbi-bədii yaradıcılıq məhsulu ilə kütlə-oxucu arasında möhkəm əlaqə, bağ yaradan şəxs kimi təqdim edirik, Rövşən Abdullaoğlu da eyni ilə gələcək nəsillər üçün bu vəhdəti qoruyacaq real namizəddir. Onun bu missiyanın öhdəsindən ləyaqətlə gələcəyinə inanıram. Xahiş edirəm ara-sıra bu tərz qeydləri oxuyarkən fiklərimizi əsaslandırıb, söykəndiyimiz meyarları unutmayaq. Mümkün qədər konkret və əhatəli izahatdan sonra ***“Nə məsləhət verirsiniz?”*** sualına cavab olacaq və yuxarıdakı qaydada əsaslandırılmış müasirlərimiz olan örnək yazarlar barədə danışmazdan əvvəl bir qeyd də etmək istəyirəm. Mənim yazdıqlarım tam subyektivdir. Və mən sadəcə fikirlərimi sizlərlə bölüşürəm. Bu heç vaxt məsləhət kimi qəbul edilməməlidir. Mən sualı eyni ilə eşitdiyim, oxuduğum kimi, mənə ünvanlanmış qaydada yazmışam. Ümumiyyətlə, bir şəxsin

yaxınlıq və qohumluq, subardinasiya dərəcəsindən asılı olmayaraq digər şəxsə məsləhət verməsi qəbuledilməzdir. Bu ən yaxşı halda tövsiyə formasında ola bilər. Bu yöndə ən təqdirəlayiq hal örnək göstərməkdir.

ÇAĞDAŞ ÖRNƏK YAZARLARIMIZ:

Aqil Abbas – şair, yazıçı, siyasətçi. “Ədalət” qəzeti idarəçiliyindədir. Xalqla bağlı istənilən məsələyə söz adamı olaraq anındaca mövqe bildirir.

Sabir Rüstəmxanlı – şair, siyasətçi. Mövqe sahibidir. Nəzarətində nəşriyyat var.

Çingiz Abdullayev – yazıçı. Dünyanın müxtəlif yazar klub və dərnəkləri, nəşriyyatları ilə əlaqəsi var.

Yunus Oğuz – yazar, həm də “Olaylar” informasiya agentliyi və eyni adlı qəzet idarəçiliyindədir.

Varis (Varis Yolçuyev) – yazar, həm də “168 saat” qəzeti və digər mətbu orqanlarla, TV-lərlə birgə fəaliyyət göstərir.

Rəşad Məcid – şair, həm də “525-ci qəzet” idarəçiliyindədir.

Bundan əlavə saytlardan, sosial şəbəkələrdən, TV-lərdən, müxtəlif internet kanallarından, bir sözlə fayda verəcək yazılı və görüntülü bütün dəstək variantlarından böyük ustalıqla istifadə edir.

Elxan Elatlı – yazar. Heç kimə, heç nəyə fikir vermədən öz işinə konsentrasiya olaraq fasiləsiz və nümunəvi fəaliyyət göstərir. Əsl müasir yazıçıdır.

Azər Turan – tənqidçi, publisist. Təyinatla “Ədəbiyyat qəzeti”nə rəhbərlik edir. Gücü çatdığı qədər bölgələrdə yaşayıb-yaradan yazarlar da daxil olmaqla bütün qələm adamlarına dəstək olmağa çalışır.

Musa Ələkbərli – şair, naşir. Bacardığı qədər yazarlara kitab işində dəstək olur.

Firuz Mustafa – nasir, dramaturq. Yazır yaradır.

Əli bəy Azəri – yazar, səlnaməçi. “Xəzan” jurnalı idarəçiliyindədir. Mümkün qədər ədəbiyyatımız, tariximiz üçün faydalı olmağa çalışır.

Səlim Babullaoğlu – şair, tərcüməçi. Kitabçılıq, tərcümə və

tanıtım baxımından fəaliyyəti misilsizdir. ATV kitab – "Parlaq imzalar" layihəsi kimi dəyərli bir iş ortaya qoymuş şəxsdir.
İlqar Fəhmi - şair, yazıçı, kinodramaturq. Bir sözlə xalq üçün faydalı ola biləcək bədii yaradıcılıqla bağlı istənilən sahədə onu görmək olar.
Kənan Hacı – şair-publisist, mücadilə edir. Bir zamanların Sabiri, Hadisi kimi mücadilə aparır. İlk anlaşılmazlıqda vaz keçən gənclər üçün nümunə olacaq müasirimiz, çağdaş yenilməz qələm adamı.
Rövşən Abdullaoğlu – yazar, psixoloq, araşdırmaçı, səyyah. "Qədim Qala" nəşriyyatının qurucusu. Yorulmadan öz üzərində işləyən, təkmilləşən və öyrəndiklərini həyatına tətbiq edib, oxucusuna təlqin edən ən  müasir, ən prespektivli çağdaş örnək yazarımız.
İntiqam Yaşar – şair, təşkilatçıdır. Həyatdan nə istədiyini bilir. Uğurları bol olsun!
Dəyərli oxucum, bu çəkdiyim misallar, gətirdiyim örnəklər sadəcə bir ipucu kimi dəyərləndirilməlidir. Müxtəlif yaş qruplarından olan, olduqca keşməkeşli həyat yolu keçərək uğura, misilsiz nailiyyətlərə imza atmış bu örnək şəxslərin həyat və yaradıcılıqları ilə tanış olmağınızda "Google" dostumuzun xidmətindən və kitabxanalardakı kitablardan istifadə edə bilərsiniz. Atalar yaxşı deyib: - "Gör, götür dünyasıdır." Və inanıram ki, təqdim etdiyim bu "açar söz"lərdən istifadə etməklə özünüz üçün böyük imkanlar vəd edən geniş bir dünyaya qapı açmış olacaqsınız. Uğur bələdçiniz olsun. Bu yazının ancaq və ancaq bir məqsədi var faydalı olmaq. Vəssalam!
Sona qədər həmsöhbət olduğunuz üçün təşəkkür edirəm. Çox sağ olun!
22.03.2022. Bakı.

*QEYD:*

*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı, "TƏƏSSÜRATLAR" və "QƏLƏMDAR – 2" kitablarında  QIRX  SƏKKİZİNCİ   yazı kimi müstəqil məqalə şəklində yer almışdır.*

**BİR DAHA HƏRB MÖVZULU YAZILAR HAQQINDA QIRX DOQQUZUNCU YAZI**

***(“Məsləhətli don gen olar”-“Bilməmək ayıb deyil...”)***

Salam olsun, dəyərli qələm adamları və çox dəyərli oxucular! Min şükür Uca Yardana! Söhbətimizin mövzusu yenə təkrarən olduqca qısa və xatırlatma məqsədi ilə hərb mövzulu yazılar barədə olacaq. Bu mövzuda hələ 44 günlük İkinci Qarabağ (Vətən) Müharibəsindən əvvəl yazdığım ənənəvi və elektron mətbuatda kifayət qədər geniş şəkildə işıqlandırılmış yazım

Zaur Ustac – 17 – ci yazı - YAZARLAR.AZ

olduğuna görə bu yazıda sadəcə qısa xatırlatma edəcəm.

Yuxarıda qeyd etdiyim yazını yazmağa Birinci Qarabağ Müharibəsindən sonra yaranan əsərlər vadar etmişdi. Tam səmimi etiraf edim ki, o məlumat və mətnlərdə 44 günlük İkinci Qarabağ (Vətən) Müharibəsindən sonra yaranan əsərlərdə olduğu qədər kobud, yolverilməz səhvlər yox idi. Ən acınacaqlısı odur ki, 44 günlük İkinci Qarabağ (Vətən) Müharibəsindən sonra məşhur televiziya kanalları (xüsusən onların xəbərlər proqramları), internet televiziyaları, saysız-hesabsız “Youtube” kanalları da bu sıraya qoşuldular. Əvvəllər belə səhvlər nisbətən kiçik auditoriyanı əhatə edən bir qəzet məqaləsində (saytda) və ya məhdud tirajlı bir kitabda rast gəlinirdisə, indi axşam saatlarının xəbərlər proqramı başlayanda böyük şövqlə “...ən baxımlı kanalda xəbərlər proqramına baxırsınız...” deyimindən sonra “...C.Naxçıvanski adına hərbi akademiyanı bitirmiş...” ifadəsi eşidilirsə deməli problem ciddidir. İnanın ki, haqqında danışılan şəxsin heç C. Naxçıvanski adına Hərbi Liseyin harada yerləşdiyindən xəbəri olmayıb. Ucqar bir dağ kəndində orta məktəbi bitirib, gedib hərbi xidmətə. Birinci Qarabağ Müharibəsindən sonra daxil olub H. Aslanov adına Bakı Ali

Birləşmiş Komandanlıq Məktəbinə, məktəbi bitirdikdən sonra zabit kimi yenə yollanıb döyüş bölgəsinə. Bütün xidməti boyu dağda-dərədə ön xətdə xidmət edib. 44 günlük İkinci Qarabağ (Vətən) Müharibəsində şəhid olub. İndi siz deyin onu – belə qəhrəman oğulu ağzından süd iyi gələn bir “y....”nun bu şəkildə təqdim etməyə ixtiyarı varmı? Əlbəttə, yoxdur! Bu “d....”in ağlı kəsmir ki, adi bir təhsil müəssisəsinin adını dəqiqləşdirmək üçün heç yana getməyə ehtiyac yoxdur. Sadəcə 5-6 saniyə vaxt sərf edib ən azı “Google” dostumuzun xidmətindən istifadə etmək olardı... Necə ki, ömrü boyu bircə dəfə də olsun “Google”da “Uşaq şeirləri” yazıb axtarış verməmiş alim oturub son dövrlərin uşaq şeirləri haqqında hesabat hazırlayır (məlumatlar da ən yaxşı halda ötən əsrin 80-90-cı illərini əhatə edir), eyni qayda da adi orta məktəb səviyyəsində dünya görüşü olmayan, ölkəsinin təhsil sistemindən xəbərsiz bir jurnalist heç bir məsuliyyət hiss etmədən on milyonluq əhalinin qarşısına çıxır və ağzına gələni danışır... Və şübhəsiz ki, izləyici də kanalı çevirir... Bilirsiniz bu təxminən nəyə bənzəyir? Hesab edin ki, belə bir xəbər anons edilir, - "Kimya Biologiya Təmayüllü Respublika Liseyi"nin şagirdi və ya məzunu həkim filankəs uğurlu açıq ürək əməliyyatı həyata keçirib... Əlbəttə, bu ilkin təsəvvür yaratmaq üçün ən primitiv misaldır. Düşünün, “ən baxımlı kanal” adı ilə bizlərə sırınan televiziya bu gündədirsə, bir belə nəzarətsiz internet kanalları, mətbu orqanlar (saytlar), kitablar hansı vəziyyətdədir...

Və ya oxuyuruq zabitlər oradan gəldi, buradan getdi... Elə etdilər, belə etdilər... Sonda baxırsan ki, ümumiyyətlə, haqqında söhbət gedən şəxs heç çavuş da deyil...

Yenə orta məktəbin son siniflərində verilən elementar ibtidai hərbi biliklərdən xəbəri olmayan, “əsgər heyəti”, “çavuş heyəti”, “zabit heyəti” anlayışlarının varlığından xəbərsiz, adi rütbələri belə ayırd etməyi bacarmayan birisi ağız dolusu qəhrəmanlıqdan danışır və ya yazır...

>>>>>**DÜNYANIN BİR RƏNGİ VAR..**

Xahiş edirəm belə yazıları yazanda və ya oxumadan dərc edəndə bir düşünün birdən bu kağıza pomidor və ya xiyar bükdülər, bu da getdi çıxdı bir hərbçinin evinə, o da bekarçılıqdan bu cəfəngiyatı oxudu... Və belə hallar tez-tez baş verir... Oxuyurlar... Kimiləri gülür... Mənim kimiləri isə ağlayır... İstər-istəməz dodaqaltı da olsa öz-özünə deməyə məcbur olursan: - "heyif səndən a, gilənar"...

Sona qədər həmsöhbət olduğunuza görə təşəkkür edirəm. Daha dərinə getməyə ehtiyac duymadım. **adalet.az**da dərc olunmuş "Hərb mövzulu yazılar..." (on yeddinci yazı)mda bu barədə ətraflı yazmışam. Hələlik bu qədər. Çox sağ olun!
23.03.2022. Bakı.

*QEYD:*
*Məqalə müxtəlif vaxtlarda fərqli saytlarda yayımlanmaqla yanaşı, "TƏƏSSÜRATLAR" və "QƏLƏMDAR – 2" kitablarında QIRX DOQQUZUNCU yazı kimi müstəqil məqalə şəklində yer almışdır.*

**PDF>>>ZAUR USTAC – "BB" HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

# KİTABIN İÇİNDƏKİLƏR

Ön söz ........................................................................3
“Təəssüratlar” (birinci kitab)...............................................9
24-cü yazı .....................................................................10
25-ci yazı ......................................................................16
26-cı yazı ......................................................................21
27-ci yazı ......................................................................26
28-ci yazı ......................................................................31
29-cu yazı .....................................................................47
30-cu yazı .....................................................................54
31-ci yazı ......................................................................63
32-ci yazı ......................................................................69
33-cü yazı .....................................................................77
34-cü yazı .....................................................................83
35-ci yazı ......................................................................87
“Təəssüratlar” (ikinci kitab) ................................................92
36-cı yazı ......................................................................93
37-ci yazı ......................................................................106
38-ci yazı ......................................................................110
39-cu yazı .....................................................................115
40-cı yazı ......................................................................121
41-ci yazı ......................................................................128
42-ci yazı ......................................................................132
43-cü yazı .....................................................................136
44-cü yazı .....................................................................140
45-ci yazı ......................................................................143
46-cı yazı ......................................................................147
47-ci yazı ......................................................................155
48-ci yazı ......................................................................160
49-cu yazı .....................................................................166



**Zaur Ustac**
***(Mustafayev Zaur Mustafa oğlu)***
"Qələmdar-2" *(məqalələr)*

Redaktor: Hacıxanım Aida
Naşir: Tuncay Şəhrili

Kitab "Yazarlar"ın kompüter mərkəzində yığılıb,
"El kitab çapı mərkəzi"ndə çap olunub.
Təşkilati dəstək: www.ustac.az *(qeyri-kommersiya)*.
Üzqabığının müəllifi: Gülü.
Kompüterdə yığıb: Gülü.
Çapa imzalanıb: 25.03.2022.

Qiyməti: pulsuz.
Kitab xeyriyyə məqsədi ilə nəşr olunub, heç bir kommersiya marağı yoxdur və gəlir əldə olunması nəzərdə tutulmur.
Sayı: 100 ədəd (elektron variantı var)
E-kitab hazırlanıb elektron kitabxanalara yerləşdirilir.

Əlaqə: Tel: (**+994**) 70-390-39-93
E-mail: zauryazar@mail.ru F/b:Zaur Ustac .

Müəllif hüquqları qorunur.

# QEYDLƏR




***Üzqabığının müəllifi: Gülü – Gülüzə Mustafayeva.***

**FAYDALI  KEÇİDLƏR**

**Zaur USTAC**

**ZAUR USTACIN YAZILARI**

**“YAZARLAR”  JURNALI PDF**

**ZAUR USTAC – “BB” HEKAYƏLƏR**

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

**Əbdürrəhim bəy Haqverdiyev – 150**

**“Tərəfsiz ədəbiyyat tarixdir” layihəsi**

**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**